**ISSN 2410-4108**
**e-İSSN 2411-4109**

**AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI**
**AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI**

# ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR

## Elmi-praktik jurnal

# № 3 (23)

*Azərbaycan Respublikası, Bakı şəhəri, Azadlıq pr. 181*
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*Tel.: (050) 631-57-90; e-mail:* ***jurnal@aesma.edu.az***
*Jurnal Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının*
*Elmi Şurasının qərarı ilə çap olunur (protokol №5, 29.12 2012)*
*Jurnal Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat № 3883. 07.05.2014*
*Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının*
***fəlsəfə,* sosiologiya *və* iqtisadiyyat** *elmləri üzrə tövsiyə etdiyi elmi nəşrlər sırasındadır.*

**BAKI 2024**

*ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR JURNALI (JLSR)*
**Elmi rəyə göndərilən, ildə iki (Elmi Şuranın qərarı ilə 2024-cü ildən 3 dəfə) dəfə nəşr edilən jurnal**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası (AALSR)**

**Baş redaktor**
**Yusif M.Ağayev**
AƏSMA, **Azərbaycan**

**İqtisadiyyat və idarəetmə hissəsinin məsul redaktoru**
**Vilayət İ.İsmayılov**
AƏSMA, **Azərbaycan**

**Humanitar və Sosial elmlər hissəsinin məsul redaktoru**
**Zeynəddin M.Şabanov**
AƏSMA, **Azərbaycan**

**Redaksiya heyətinin üzvləri:**

**Nurəngiz Y.Mikayılova**
AƏSMA**, Azərbaycan**

**Lalə F.Mahmudova**
AƏSMA, **Azərbaycan**

**Hicran A.Mirzəyeva**
AƏSMA, **Azərbaycan**

**Aygün N.Məmmədova**
AƏSMA, **Azərbaycan**

**Niyar Ə.Umarova**
AƏSMA, **Azərbaycan**

**Nailə R.Qəhrəmanova**
AƏSMA, **Azərbaycan**

**Azərbaycandan (15 mart 2023-25 oktyabr 2023) və xarici ölkələrdən** dəvət olunmuş alimlər:
**Prof. Dr. Ikrom I.Abdullayev, Xorazm Mamuna Akademiyası, vitse-prezident, Urgenç Dövlət Universiteti**, Özbəkistan; **Prof. Dr. Həsən Hüseyn Akkaş,** ABŞ-ın siyasi elmlər bölümü, rəhbər, **Karamanoğlu Mehmetbey Universiteti,** Türkiyə; **Prof. Dr. Rudenko Marina N., Perm Dövlət Milli Tədqiqat Universiteti,** kafedra müdiri, Rusiya; **Prof. Dr. Alla N.Tkaçenko, Zaporizhzhya Politexnik Milli İnstitutu,** kafedra müdiri, Ukrayna**; Prof. Dr. Bazar A.Babajanov, Urgenç Dövlət Universiteti,** kafedra müdiri, Özbəkistan**; Prof. Dr. Taner Güney, Karamanoğlu Mehmetbey Universiteti,** kafedra müdiri, Türkiyə; **Prof. Dr. Andrey V.Karpenko, Zaporizhzhya Politexnik Milli İnstitutu,** kafedra müdiri, Ukrayna**; Prof. Dr. Hacıyev P.İ., Vernadski adına Rusiya Dövlət Xalq Təsərrüfatı Universiteti,** dekan, Rusiya; **Prof. Dr. Karpenko E. Mixaylovna, Belorus Dövlət Universiteti,** kafedra müdiri, Belorus; **Prof. Dr. Arif H.İbrahimov, K.A.Timiryazev adına KTA,** Rusiya; **Prof. Dr. İlham R.Məmmədzadə, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,** direktor, Azərbaycan; **Prof. Dr. Rafael M.Həsənov, Bakı Dövlət Universiteti,** kafedra müdiri, Azərbaycan; **Prof. Dr. Vəkil Həsənov, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),** kafedra müdiri, Azərbaycan; **Prof. Dr. Ramiz K.İsgəndərov, Azərbaycan Texniki Universiteti,** Azərbaycan; **Prof. Dr. Qənimət Ə.Səfərov, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti,** "Sənayenin iqtisadiyyatı" kafedrasının professoru; **Prof. Dr. Tərbiz Əliyev, Azərbaycan Elm və Təhsil Nazirliyi, İqtisadiyyat İnstitutu,** bölmə müdiri, Azərbaycan.

**JOURNAL OF LABOR AND SOCIAL RELATIONS (JLSR)**
**Scientific, peer-reviewed journal, published twice a year**
**(from 2024 by decision of the Academic Council 3 times)**
**Azerbaijan Academy of Labor and Social Relations (AALSR)**

**Editor-in-Chief**
**Yusif M.Agayev**
AALSR, **Azerbaijan**

**Responsible editor for the economic and management part**
**Vilayat I.Ismailov**
AALSR, **Azerbaijan**

**Responsible editor for the humanitarian and social sciences part**
**Zeynaddin M.Shabanov**
AALSR, **Azerbaijan**

**Members of the Editorial Board:**

**Nurangiz Y.Mikayilova**
AALSR, **Azerbaijan**

**Lala F.Mahmudova**
AESMA, **Azerbaijan**

**Hijran Ə.Mirzayeva**
AALSR, **Azerbaijan**

**Aygun N.Mammadova**
AALSR, **Azerbaijan**

**Niyar A.Umarova**
AALSR, **Azerbaijan**

**Naila R.Gahramanova**
AALSR, **Azerbaijan**

Invited scientists from Azerbaijan (from March 15, 2023 to October 25, 2023) and foreign countries: **Prof. Dr. Ikram I.Abdullayev, Vice president of Khorezm academy of Mamun**, **Urgench State University**, Uzbekistan; **Prof. Dr. Hasan Hüseyin Akkaş,** U.S. Department of political science, President, **Karamanoglu Mehmetbey University,** Turkey; **Prof. Dr. Rudenko Marina N.** Head of the Department of Entrepreneurship and Economic Security, **Perm State National Research University,** Russia**; Prof. Dr. Alla M.Tkachenko,** Head of the Department of Business and Economics, **National University Zaporizhzhia Polytechnic,** Ukraina; **Prof. Dr. Bazar A.Babajanov, Urgench State University, Head of Department,** Uzbekistan; **Prof. Dr. Taner Güney, Karamanoglu Mehmetbey University,** Head of the Department of Economics, Turkey; **Prof. Dr. Andrii V.Karpenko,** Head of the Department of Economics and Customs,, **National University Zaporizhzhia Polytechnic,** Ukraina; **Prof. Dr. Parviz İ.Hajiyev,** Dean of the Faculty of Economics, **Vernadsky Russian State University of National Economy,** Russia**; Prof. Dr. Karpenko E.Mikhailovna,** Head of the Department of International Management, **Belarusian State University,** Belarus; **Prof. Dr. Arif H.Ibragimov,** Department of Management, **Institute of Economics and Management of the Agro-Industrial Complex of the Russian State Agrarian University - K.A.Timiryazev Agricultural Academy**, Russia; **Prof. Dr. Ilham Mammadzade, Director of the Institute of Philosophy and Sociology ANAS,** Azerbaijan ; **Prof. Dr. Rafael M.Hasanov,** Head of the Department of Sociology, **Baku State University,** Azerbaijan; **Prof. Dr. Vakil Hasanov,** Head of the Department, General Humanities, Azerbaijan State University of Economics (UNEC), Azerbaijan; **Prof. Dr. Ramiz K.Isgandarov, Azerbaijan Technical University,** Azerbaijan; **Prof. Dr. G.A.Safarov,** Department of Industrial Economics, **Azerbaijan State University of Petroleum and Industry,** Azerbaijan; **Prof. Dr Tarbiz Aliyev, Ministry of Science and Education of Azerbaijan, Institute of Economics,** Azerbaijan.

# MÜNDƏRİCAT

## HUMANİTAR VƏ SOSİAL ELMLƏR


**Zeynəddin Şabanov**
Məhəmməd Füzulinin dünya fəlsəfi irsinə münasibəti.......................................... 5

**Mohammad Saedabad**
İcmaların təşkilatlandırılması və inkişafı, fərqli cəhətlər....................................... 12

**Rabil Mehtiyev**
Sosial münasibətlər sistemində estetik şüur……….............................................. 24

**Gülnaz Mədədli**
Müasir ali təhsilin sosial problemləri.................................................................... 29

**Hasil Abbasov**
Azərbaycanda etnik icmaların formalaşması xüsusiyyətləri.................................. 36


## İQTİSADİYYAT VƏ İDARƏETMƏ


**Vilayat Ismayılov, Alla Tkachenko**
The impact of food security on the well-being and standard of living
of the population.......................................................................................... 44

**Рустам Рустамов**
Управление человеческим капиталом в условиях социальных инноваций:
глобальные тенденции и локальные стратегии................................................. 54

**Hikmet Mirzeyev**
State-private partnership in reconstruction and development in
post-conflict areas in Azerbaijan........................................................................... 62

**Səmayə Salahova**
Vergi inzibatçılığının nəzəri əsasları və vergi inzibatçılığının iqtisadi mahiyyəti... 69

**Mirzəbala Poladov**
Əmək münasibətlərinin tənzimlənməsində insan resursları strategiyaları ilə
şirkət rəqabət strategiyaları arasında əlaqə.............................................................. 78

**GülnarəTanrıverdiyeva**
Azərbaycanda formalaşan investisiya mühiti və uçotunun təşkili………………. 85

**Daşqın Adgözəlov**
Dayanıqlı iqtisadi inkişafın sosial aspektləri.......................................................... 92

**Taleh Babayev**
**Elmi rəhbər: dosent H.Ə.Eynalov**
Davamlılıq və davamlı iqtisadi inkişaf.................................................................. 99

**Zakir Əlizadə**
Azərbaycanda süni imtellekt imkanları.................................................................. 107

**Niyar Umarova**
Azərbaycan mədəniyyətinin tanınmasında İKT-nin rolu………………………… 114

**Firanə Məmmədova**
Oyunlar nəzəriyyəsinin müxtəlif elm sahələrinə təsiri və inkişaf dinamikası.......... 125

doi.org/10.61764/lasr.3.2024.5-11

# HUMANİTAR VƏ SOSİAL ELMLƏR

## MƏHƏMMƏD FÜZULİ -530

**UOT 1(091)**

**Zeynəddin Şabanov**
*AƏSMA, dosent*
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, aparıcı elmi işçi,* ***Azərbaycan***
*zeynaddin.shabanov@gmail.com*
https://orcid.org 0000–0003–4102–6250

## MƏHƏMMƏD FÜZULİNİN DÜNYA FƏLSƏFİ İRSİNƏ MÜNASİBƏTİ

***Xülasə***

***Məqalənin məqsədi*** dahi Azərbaycan şair-filosofu Məhəmməd Füzulinin dünya fəlsəfə irsinə münasibətini tədqiq edilməsindən ibarətdir. Şairi bir sıra fəlsəfi məsələlər maraqlandırmış və onların mahiyyətinə enmək üçün Füzuli antik fəlsəfəni, qədim və orta əsrlər Şərq fəlsəfəsini incələmiş, filosof-mütəfəkkirlərin, ayrı-ayrı fəlsəfi məktəblərin fikirlərini təhlil edərək münasibətini bildirmişdir.

***Metodologiya*** – Füzulinin fəlsəfi məsələlərə olan münasibətinin tədqiqi prosesində sintez, təhlil və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

Şair elmli və bilikli olmağı cəmiyyətin inkişafı üçün əsas amil hesab etmişdir. Bilik və onun növləri haqqında maraqlı fikirlər irəli sürmüşdür.

***Tədqiqatın nəticəsi*** – şairin əsl səbəbin və həqiqətin əldə olunması üçün bilikli olmağın vacibliyinə, buna görə də müəllimlərə və alimlərə onların əvəzolunmaz fəaliyyətlərinə cəmiyyətdə yüksək qiymət verilməsinə olan münasibətinin aşkarlanmasıdır.

***Açar sözlər:*** *şair, fəlsəfə, insan, cəmiyyət, ruh, bədən, ağıl, bilik, varlıq*

### Giriş

Azərbaycanın, o cümlədən bütün türk, müsəlman dünyasının görkəmli filosof-şairi Məhəmməd Füzulinin təfəkkürünün məhsulu olan dərin mənalı poeziya və nəsr nümunələrində bir sıra vacib mövzulara – irfani məhəbbət, ilahi eşq, sevgi, düzgün və ədalətli idarəetmə, haqsızlığa qarşı mübarizə, qadın hüquqsuzluğu, dostluq, humanizm və s. kimi məsələlərə toxunulmuş, maraqlı fikir və mülahizələr irəli sürülmüş, tövsiyələr verilmiş, çağırışlar edilmişdir.

Füzuli özündən sonrakı türkdilli ədəbiyyatın inkişafına güclü təsir göstərmiş, yaşadığı əsrdən başlayaraq müasiri olan sənət nəzəriyyəçiləri və ədəbiyyatşünaslar onun yaradıcılığı ilə maraqlanmış və Füzulinin əsərləri rus, alman, ingilis, fransız, italyan, ispan, rumın, macar, polyak, gürcü və sair dillərə tərcümə edilmişdir (3, s.14).

Füzulinin şeirləri eşq və məhəbbət duyğularını tərənnüm edən ifadələrlə bəzədilsə də, məqsəd etibarilə əqli və əxlaqi keyfiyyətlərin tərbiyəsi və təbliği məsələsinə həsr edilmişdir. Buna görə də Füzuliyə təkcə “eşq”, “məhəbbət” şairi kimi deyil, həm də mütəfəkkir və pedaqoq şair kimi də baxmaq lazımdır. Onun dünyagörüşündə insan, mənəviyyat, əxlaq, etika, estetika problemləri əsas yer tutmuşdur. Məhz bu problemi özünün şəxsi nümunəsində həll

etməyə çalışan şair tərcümeyi-halında yazır: "Mən bütün ülüm və fününu özündə toplamış bir insan olmaq üçün çalışırdım" (6, 24).

**Elm, bilik, ağıl**

Filosof-şair həm Şərq, həm də Qərb fəlsəfi incilərindən əxz etdiyi biliklərdən də yaradıcılığında yeri gəldikcə istifadə etmişdir. Füzuli bildirir ki, bu biliklərə yiyələndikdən sonra dörd rüknü (sütunu) olan bir ev tikdim; belə ki, onun hər bir təməlində iman bağına açılan bablar (qapılar) vardır. Belə bir binanı "Mətlə-ul-itiqad fi-mərifəti-l-məbdəi vəl-məad" – "Başlanğıc və sonun dərkinə aid etiqada giriş" adlandırdım. Belə ki, birinci rükn — elm biliyi (mərifəti) və bilik (mərifət) elmi; ikinci rükn — aləmin vəziyyətlərinin biliyi; üçüncü rükn — vacibə (Tanrıya) aid bilik və sonuncu-dördüncü rükn — peyğəmbərliyə və ona aid olanlara dair biliklər haqqındadır.

Qeyd edək ki, "Mətlə-ul-itiqad" fəlsəfə ilə kəlamı özündə birləşdirən teoloji risalədir. Müəllif bu əsərdə elm və mərifət (bilik) məfhumlarına müxtəlif təriflər verir, mərifətin vacibliyi məsələsinə toxunur və mərifətin növlərindən bəhs etməklə, onların əldə edilməsi üsullarını araşdırır. Əsərdə bəhs edilən mövzular arasında kainatın mənşəyi və mahiyyəti haqqında fikirlər də öz əksini tapır. Burada müqayisəli-tipoloji təhlil verməkdə müəllifin məqsədi onları eyni bucaq altında cəmləmək deyil, mövzunun mahiyyətini daha dərindən açıqlamaqdır. Eyni yanaşma ilə əvvəlcə insanların peyğəmbərlərə ehtiyacı məsələsində filosofların mövqeyi sadalanıb, daha sonra isə Allah-insan arasındakı əlaqə, insan növünün psixoloji və sosioloji quruluşu nəzərə alınmaqla, peyğəmbərliyin zəruriliyinə dair dəlillər gətirilmişdir. Məhəmməd Füzuli kəlam bəhslərində rasionalizm metodundan istifadə etsə də, bununla belə, o, əqli və nəqli dəlillərdən tarazlaşdırılmış və balanslı şəkildə faydalanmışdır. Bu səbəbdən də o, tanımanı mümkün olan bir iş, əqli və nəqli isə bu tanımanın iki mənbəyi saysa da, ilahi zatın tanınması məsələsində əqli qeyri-kafi bir faktor hesab etmiş və ilahi sifətləri tanımaqda da əql və vəhyin birgə tarazlı şəkildə istifadə edilməli olduğunu bildirmişdir (7, s.71).

Füzuli insanın kamilləşməsi üçün biliklərə yiyələnməni zəruri hesab edirdi. Biliklərin ən yaxşısı isə onların ən çətini və ən xeyirlisidir. Bu isə ruhani səadətdən və insanın kamal və inkişafından ibarətdir. Şair iki növ biliyi fərqləndirirdi. Birincisi, dünya işlərinə, məsələn, yaşayış vəsaitinə aiddir. İkincisi, din işlərinə aiddir ki, bu da iki növdür: birincisi, etiqadlara, ikincisi isə ibadətlərə aiddir. Etiqadlar da iki növdür: birincisi, vacibə, yəni Allaha aid, ikincisi isə mümkünə, yəni yaranmışlara aiddir. Allaha aid olan etiqadlar da iki növdür: birincisi, onun Zatına, ikincisi, sifətlərinə, yəni əlamətlərinə aiddir. Başqa bölgüyə görə, biliyi, əməli və nəzəri olmaqla, iki yerə bölürdü. Əməli biliyə nəfsə aid olan əxlaq elmini, cəmiyyətin xırda bir hissəsinə aid olan biliyi, yəni ailə idarəsi kimi, ya da bütün cəmiyyətə aid olan biliyi, yəni ölkə siyasəti kimi daxil edirdi.

Şairə görə, biliyi daha iki növə bölmək olar. Birincisi, əməli, ikincisi isə nəzəri bilikdir. Əməli bilik özü də üç növdür: birincisi, nəfsə (fərdə) aid olan əxlaq elmidir; ikincisi, cəmiyyətin ya xırda bir hissəsinə aid olan bir bilikdir ki, bu, ailə idarəsindən ibarətdir, ya da bütün cəmiyyətə aid olan bilikdir ki, bu da ölkə siyasəti (idarəsi) adlanır. Məqul (rasional) və mənqul (rəvayətə əsaslanan) elmlər və ədəbiyyat buna misal ola bilər. Bütün bunların hər birisi üçün bir-birindən fərqlənən istilahlar vardır (8).

Füzuli nəzəri biliyin üç cür olduğunu bildirirdi. Çünki nəzəri bilik varlığında maddənin iştirakı ya şərt olmayan və ya şərt olan əşyaya aiddir. Birincisi, İlahiyyatdır. Məsələn, sadə və mücərrəd biliklər (belədir). İkincisi, elə əşyaya aiddir ki, onu düşünmək üçün maddə haqqında düşünmək ya nəzərə alınmır və ya nəzərə alınır. Birincisi, riyazi elmlərdir. Zahirdə varlığı olmayan ümumi məsələlərə aid biliklər (buna misal ola bilər). İkincisi isə təbiyyatdır. Mürəkkəb əşyaya aid bilik (buna misal ola bilər). Başqa bölgüyə görə bilik iki yerə bölünür:

birincisi, mahiyyət etibarilə dünya işlərinə və nəticə etibarilə axirət işlərinə aiddir. Adi sənətlər, məsələn, əkinçilik, ticarət, dərzilik və sairə buna misal ola bilər. İkincisi isə mahiyyət etibarilə axirət işlərinə və nəticə məqul (rasional) və mənqul (rəvayətə əsaslanan) elmlər və ədəbiyyat buna misal ola bilər. Bütün bunların hər birisi üçün bir-birindən fərqlənən istilahlar vardır (1, s.114).

**İlk varoluş haqqında**

Füzuli Miletli Falesə müraciət edərək bildirir ki: "Aləmin bir yaradıcısı vardır. Əql bu yaradıcının sifətini mahiyyətcə deyil, ancaq onun əsərləri etibarilə dərk edə bilər. O, elə bir ünsür yaratmışdır ki, onda varlıqların və məfhumların şəkli vardır. İstər mənəvi, istərsə də maddi aləmdə olan bütün varlıqların şəkli həmin ünsürdə vardır" (1, s.117). Şair Faleslə razılaşaraq ilk ünsürün sudan yarandığını söyləyirdi. Suyun hər bir şəklə düşmək qabiliyyəti olduğuna görə, onun sıxlaşıb bərkiməsindən yer, durulmasından od və seyrəkləşməsindən hava əmələ gəlmişdir. Göyün isə odun tüstüsündən törədiyni bildirirdi. Müqəddəs kitabımızdakı "Onun ərşi su üzərində idi" ayəsinə diqqəti yönəldirdi. Falesin fikrini Anaksaqor da qəbul etmişdir. Füzulinin ana dilində yazılmış «Su» qəsidəsində Məhəmməd Peyğəmbərin tərifi yer alır. Şair Peyğəmbərin tərifindən ötrü sudan bir poetik obraz kimi istifadə edir. Bu da təsadüfü səciyyə daşımır. Füzuli suyu paklıq, saflıq, təmizlik rəmzi kimi götürür və Peyğəmbərin tərənnümü üçün bu əlamətlərdən lazımi formada istifadə edir (6, s.37).

Pifaqora xitabən Füzuli də Tanrının əql ilə ruhu eyni zamanda yaratdığını bildirirdi. Aristotel əsərlərinin mütaliəsindən sonra belə bir fikri dəstəkləyir ki, vahid yaradıcıdan ilkin fəal olan əql meydana gəlmişdir. Əql öz mahiyyəti etibarilə vacibdir. Əql öz mahiyyətini və səbəbiyyətini xatırlamış və bu xatırlamadan müxtəlif varlıqlar meydana gəlmişdir. Füzuliyə görə, varlıqların əsasında məhəbbət və ədavət durur. Bunlar xeyir və şərin səbəbləridir. Var olmanın, dayanıqlığın səbəbi məhəbbət, parçalanma və dağılmanın səbəbi isə ədavətdir.

Dahi şair elmləri hüzuri və hüsuli olmaqla, iki növə bölürdü. Hüzuri – yəni, bildirmə vasitəsindən asılı olmayan elmdir. Məsələn, Tanrının bütün məfhumlar haqqındakı elmi və yaxud bizim öz varlığımız haqqındakı elmimiz belədir. Hüsuli isə vasitədən asılı olan elmdir. Məsələn, bizim bəzi predmetlərin mahiyyətləri haqqındakı elmimiz belədir. Belə bir elmə bilik də deyilir, çünki bu elmin bir bildirənə ehtiyacı vardır. Bunları helm və elm kimi də göstərmək olar. Şair külliyyatı və yaxud mürəkkəb olanları dərk etməyi elm adlandırır, lakin təfərrüat və yaxud sadə predmetləri dərk etməyi bilik-mərifət hesab edirdi (1, s.124).

Füzuli yazır ki, kəşf əhli olan bəzi tədqiqatçıların dediyinə görə, bilik, mərifət elmdən yüksəkdir; çünki, onların fikrincə, İlahiyyat haqqında məsələlər və islahatlara aid hər nə varsa, elmdir, Tanrının zatı və sifətlərinə aid olanlar isə bilikdir (mərifətdir). Məsələnin belə qoyuluşu həqiqətin əksinədir; çünki Tanrıya öz kəlamında (Quranda) bilik deyil, elm sifəti istinad edilir və beləliklə, elm bilikdən yüksəkdir. Ola bilsin ki, Füzuli burada hissi idrakın verdiyi informasiyalara, ilkin biliklərə nisbətdə, rasional idrakın irəli sürdüyü bilikləri ehtiva edən elmi nəzərdə tuturdu (1, s.125).

İnsan özünün həyatdakı rolu barədə fikirləşsə, öz vücudunun mahiyyəti haqqında həm icmal şəklində, həm də təfsilatı ilə düşündükdə özünün doğuluşdan ölümə qədərki vəziyyəti haqqında fikir yürütdükdə, varlıq, yoxluq, sağlamlıq, xəstəlik, yaşlılıq və uşaqlıq haqqında düşündükdə, bilər ki, onun sərbəst olan bir idarəedicisi və bir hərəkətvericisi vardır. Elmli adam öz bədəninin zahiri və daxili üzvlərinin tərkibinə, həmin üzvlərdə yerləşmiş olan duyğular və qüvvələrə, üzvlərdən nəşət edən əməllərə, fəaliyyətlərə, bədənindəki nizamın həmin duyğular və qüvvələrə əsaslandığına baxdıqda belə bir məsələ ilə tanış olar ki, bütün bu müxtəlif vəziyyətlər bədənin hissələrindən birisinin təsirinin nəticəsi deyildir; çünki bədənin hissələrindən hər hansı birisi imkandan həqiqətə doğru hərəkətdədir. Bu isə xarici hərəkətvericiyə möhtacdır. Beləliklə, bədənin ruhunu etiraf edər.

doi.org/10.61764/lasr.3.2024.5-11

Füzuli ünsürlərdən əmələ gəlmiş varlıqları dərəcə etibarilə də bir-birindən fərqləndirirdi. Belə ki, bitkilər göyərib artdığına görə, cansız varlıqlardan üstündür. Heyvanlar iradi hərəkətə malik olduğuna görə bitkilərdən üstündür. İnsan ağıl və ixtiyara malik olduğuna görə heyvanlardan üstündür. Peyğəmbərlər isə peyğəmbərlik feyzinə malik olduğuna görə başqa insanlardan üstündürlər. O bildirir ki, əgər bütün insanlar bərabər olsaydılar, onların hamısı həlak olardılar. Deməli, bəşər cəmiyyəti öz məsləhətləri xeyrinə peyğəmbərlərə, düzgün yol göstərənlərə təzim etməlidir (1, s.142).

Şair insanları biri-birindən fərqləndirməyin zəruriliyindən bəhs edir. Füzuli qeyd edir ki, ağıllı adamlara qiymət verməк lazımdır k, qüsurlu adamlara tərbiyə versin, onları düzgün yola istiqamətləndirsin. Əks halda onlar doğru olmayan fəaliyyətlə məşğul olarlar. Bunun üçün də cəmiyyətin müəllimə ehtiyacı vardır. Füzuli cəmiyyətdəki insanları bilik sahibləri olan müəllimlər, ehkama inanan təqlidçilər, Tanrının mərhəmətinə nail olmuş insanlar və naqis insanlar olmaqla, fərqləndirirdi. Eyni zamanda, digər məktəblərin fikirləri ilə razılaşaraq, azadlığı və məsuliyyəti qəbul etməyərək qədərə inanan və insanların fəaliyyətlərində azad olmasını qəbul edənlər olmaqla, insanları biri-birindən fərqləndirirdi.

Füzuliyə görə, insanların fitri olaraq ehtiraslardan ləzzət alması doğru deyildir. Onlar maddi həyata, zənginliyə, varlanmağa və cismani həzlərə meyil göstərirlər. Halbuki bunlardan zərər görürlər. İnsanı bu işlərdən çəkindirən isə qiyamət qorxusu və axirətdəki hesabatdır. İnsan doğru yol tutmalı, dəyərlərə hörmətlə yanaşmalı, cəmiyyət üçün faydalı işlər görməlidir ki, son hesabat günündə hərəkət və davranışlarına görə cavab verə bilsin.

Dünyada ləzzətlə ələm bir-birinin ayrılmaz hissəsidir. Belə ki, biz ancaq ələmdən sonra ləzzəti, məsələn, xəstəlikdən sonra sağlamlığı dərk edirik, həmçinin varlıq ləzzəti qarşısında yox olmaq qorxusundan törənən ələm həyat ləzzəti müqabilində ölüm qorxusundan törənən ələm və biliklər ləzzəti qarşısında təhsil zəhmətindən törənən ələm vardır.

Füzuli insan təbiətində şəhvət və qəzəb qüvvələrinin olduğunu söyləyirdi. Məhz şəhvət və qəzəb qüvvələri vasitəsilə əlverişli, faydalı olanları özünə cəlb etmək və zərərli olanları rədd etmək qabiliyyəti qurulmuşdur. Belə ki, bu iki qüvvə insan təbiətinin bəzi cəhətlərini ələ keçirərək bir məzlumun varını əlindən almağa və yaxud onu zülm ilə öldürməyə səbəb olur. Əgər bunun qarşısında cəza verilməzsə, ədalət pozulmuş olar. Məzlumun haqqını yemək, onun hüququnu tapdalamaq olmaz. Bu, cəmiyyətə ziyan gətirər.

**Ruh və bədənin münasibəti**

Füzuliyə görə, insan nəfs (ruh) və bədəndən ibarətdir. Ruhun varlığı sabitdir, insan şüurludur, təfəkkürlüdür, idarə edir, düşünür, qurur, yaradır və başqa insanlarla ünsiyyətə girdiyinə görə heyvanlardan fərqlənir. Halbuki ruh bəsitdir (bölünməzdir). Sonra ruh nə maddədir, nə də surət, çünki maddə ilə surət bir-birindən ayrılmazdır; halbuki ruh (maddə və surətdən) ayrıla bilər. Füzuli bildirirdi ki, ruh bəsit bir cövhərdir və cisim deyildir. Ruhun bədəndən əvvəl yarandığını söyləyirdi. Şair Aristotel və onun tərəfdarlarının ruhun bədəndən sonra törənməsini qəbul etdiyini bildirirdi. Onların fikrincə, əgər ruh bədəndən əvvəl mövcud olsaydı, sayca çox olardı və əgər (sayca çox olan bu ruhların) hər birisi üçün fərqləndirici xüsusiyyət təsəvvür etsək, onda ruhun mürəkkəb olması, yəni həm ümumi, həm də fərqlənmə cəhətlərinə malik olması lazım gələrdi. Halbuki ruh bəsit fərz edilmişdir. Beləliklə, əvvəlcə bədən olmalıdır ki, ruhu növlərə görə şəxsi bölmələrə ayırsın. Aristotelə görə, bədən ruhun davam edib qalması üçün deyil, onun mövcudiyyəti üçün şərtdir. Füzuli bildirir ki, ruh ürəkdə olan bölünməz bir hissədir. O, ruhun üç qüvvədən ibarət olduğunu düşünürdü. Onlardan birincisi, beyində olub, hikmət mənşəyidir. İkincisi, ürəkdə olub, qəzəb mənşəyidir. Üçüncüsü, qaraciyərdə olub, şəhvət (ehtiras) mənşəyidir. Eyni zamanda, ruh beyində olan bir qüvvə olub, hiss və hərəkət mənşəyidir.

doi.org/10.61764/lasr.3.2024.5-11

İnsanın nəfs və bədəndən ibarət olmasına rəğmən Füzuli bildirirdi ki, bunlardan birisi nəcib və ruhani bir cövhərdir; digəri isə cismani qaba bir kütlədir. Bunların hər ikisi öz mənşəyinə doğru meyil göstərir və öz yoldaşı tərəfindən cəlb edilir. Əgər nəfs bədəni cəzb etməklə, onu heyvani şəhvətlərin ləzzətindən çəkindirərək paka çıxarıb yüngülləşdirərsə, qayıdan zaman (öləndə) onunla birlikdə (Ərşin) ən uca yerlərinə (cənnətə) yüksələr. Yoxsa, əgər bədən nəfsə üstün gələrək onu öz xidmətçisinə çevirib, öz xeyrinə işlədərsə və öz yaramaz işlərinə şərik edərsə və beləliklə, onu tutqunlaşdıraraq ağırlaşdırarsa, onunla birlikdə ən alçaq yerlərə (yəni, cəhənnəmə) enər. Lakin bədənin ruhu cəzb etməsi işi ruhun bədəni cəzb etməsi işindən bir neçə səbəbə görə daha asandır. Birincisi budur ki, ruh yüngül, bədən isə ağırdır. Yüngül şeyin ağır şey tərəfindən dartılması ağır şeyin yüngül şey tərəfindən dartılması kimi ola bilməz. İkincisi budur ki, ruh təbiətən yuxarıya qalxmağa, bədən isə aşağıya düşməyə meyil göstərir. Ağır şeyin yüngül şey ilə birlikdə aşağı düşməsi yüngül şeyin ağır şey ilə birlikdə yuxarı qalxmasından asandır. Üçüncüsü budur ki, bədənin inkişafı təbiidir və xarici köməyə ehtiyacı yoxdur. Halbuki ruhun inkişafı kəsibdir, xaricdə olan bir öyrədiciyə ehtiyacı vardır və əgər öyrədici olmazsa, nöqsan halında qalar və nəticə etibarilə nöqsanlı şey kamil şey tərəfindən məğlub olar. Deməli, insanı inkişafa doğru yönəltmək lazımdır.

Füzuli bildirir ki, ruh ilə bədənin əlaqəsi aşiq və məşuqun əlaqəsi kimidir. Onların arasındakı ünsiyyət zaman keçdikcə daha şiddətlənir, möhkəmlənir. İstəklinin ayrılığından törənən kədər ruhun xüsusiyyətlərindəndir. Ruh və bədən bir-birini tələb edir, biri o birini tamamlayır. Beləliklə, bədən olmadan ruh üçün ləzzət ola bilməz. Bununla belə, bədən ruhun əzab çəkdiyi yerdir. Ona görə ki, bədən quruluşca, məişətcə və hadisələr qarşısında dəyişkən olması etibarilə ruhdan fərqlənir. Öləndən sonra ruhun bədənə qayıtmasında ləzzət və ya ələm təkmilləşmə vasitələrindəndir; belə ki, ruhu pis işlər görməyə bədən məcbur etmişdi. Əgər ruh mükafata layiqdirsə, bədən onun ən gözəl tələbatıdır ki, onun mütənasibliyini, gözəlliyinin bəzəyini və itib-batmaq təhlükəsi olmadan öz arzularına çatmasını təmin edir; hətta ruh üçün bədən mükəmməl surətdə və daimi olaraq içərisində ləzzət aldığı saraylardan da üstündür (1, s.229).

Füzuli düşünür ki, ruhlar bədəndən ayrıldıqda, göyə doğru yönəlir; çünki ruhlar göylərə mənsubdur və ülvidir. Eyni zamanda söyləyir ki, bu ruhların bəzisi keçmişdə heç bir günah etmədiyinə görə yuxarı qalxır, özünün fələklərdəki yerində yerləşir və məlum günədək, qiyamətə kimi orada qalır. Bəzisi isə günahlara bulaşdığına görə, göylərə doğru yuxarı qalxmaq istədiyi zaman mələklər onlara mane olur və beləliklə, qiyamətə kimi ələm içərisində qalır. Ruhlar bədənlərdən ayrıldıqda, yaxşı ruhlar dünya əhlinin yaxşı ruhları ilə ünsiyyət saxlayır, yaxşı işlərdə onlara yardım göstərir və onlarla gəzir; pis ruhlar isə pis ruhlar ilə ünsiyyət saxlayır və şər işlərdə onlara kömək edir və onlarla gəzir. Qiyamətə qədər işin gedişi belədir (1, s.234).

Qiyamətdən sonra əməllərinə görə, insanların yerinə münasibətdə şair möminlərin behiştdə, yəni cənnətdə olacağını bildirir. Dini qaydalara əməl etməyən kafirlər isə odda yanacaq, cəhənnəmdə olacaqlar. Şair burada bir maraq doğuran fikir irəli sürür ki, bu iki yer arasında başqa bir yerin də olduğunu təsdiq edirlər. İyman (yəni, əməli-saleh insan ) cəhənnəmə daxil ola bilməz; günah isə behiştə daxil olmaz. Buna görə lazım gəlir ki, günahkar möminin o iki yer arasında bir yeri olsun. Yəni, dini qaydalara əməl etməsə də, əməli-saleh davranışlarına, cəmiyyətə faydasına, insanlara yardımına, məzlumlara köməyinə görə bəzi insanlar bu iki mövqe arasında ola bilərlər.

Məhəmməd Füzulinin fəlsəfi irsi böyük maraq doğurur, onun fikirlərinin dərindən təhlil olunması həmişə aktuallığını saxlayır. Şair fəlsəfənin maraq dairəsində olan məsələlərə ayrı-ayrı mütəfəkkirlərin, məktəblərin, cərəyanların münasibətini hərtərəfli öyrənmiş, onlara öz münasibətini bildirmiş, müqayisələr aparmış, ümumiləşdirmələr etmiş, təzadlı fikirləri

araşdırmış, fərqli cəhətləri göstərmiş, maraqlananlara istiqamət vermişdir. Şairin fikrincə, fəlsəfi fikirlərin

## ƏDƏBİYYAT


1. Məhəmməd Füzuli. Əsərləri. Altı cilddə. V cild. Bakı, "Şərq-Qərb", 2005
2. Baxşəliyeva G. Anadilli şeirimizin böyük ustadı/"Dahi Azərbaycan şairi Məhəmməd Füzuli müştərək müsəlman mədəniyyətinin yetirməsi kimi" mövzusunda beynəlxalq elmi konfransın tezisləri. Bakı, Elm, 2024
3. R.Hüseynov. Yoxdan var. Bakı, 2014
4. Nəcəfxanlı Ə. Hər sözüm bir pəhləvandır. "Xalq" qəzeti, 20 02 2024
5. İbrahimova S. Yaradıcılığı ilə ana dilinin keşiyində duran şair. http://www.orientalstudies.az/index.php/2013-05-15-10-02-50
6. Hüseynzadə R. Məhəmməd Füzulinin təhsil və tərbiyə haqqinda fikirləri. "Dahi Azərbaycan şairi Məhəmməd Füzuli müştərək müsəlman mədəniyyətinin yetirməsi kimi" mövzusunda beynəlxalq elmi konfransın tezisləri. Bakı, Elm, 2024
7. Cəfərli D. Məhəmməd Füzuli və kəlam elmi. "Dahi Azərbaycan şairi Məhəmməd Füzuli müştərək müsəlman mədəniyyətinin yetirməsi kimi" mövzusunda beynəlxalq elmi konfransın tezisləri. Bakı, Elm, 2024
8. Quliyev E. Füzuli sənətinin mövzu dairəsi. http://www.orientalstudies.az/index.php.17.05.2024
9. Quluzadə P. Məhəmməd Füzuli və Platonda gözəlliyin mənbəyi. http://www.orientalstudies.az/index.php 22.05.2024
10. Abuzərova Ü. M.F. "Mətlə-ul-itiqad" əsəri çərçivəsində ruhun ölümsüzlüyü və esxatologiya anlayışı. http://www.orientalstudies.az/index.php 28.05.2024


**Зейнаддин Шабанов**

## ОТНОШЕНИЕ МУХАММЕДА ФИЗУЛИ К МИРОВОМУ ФИЛОСОФСКОМУ НАСЛЕДИЮ

### *Резюме*


***Целью статьи*** – является исследование отношения гениального азербайджанского поэта-философа Мухаммеда Физули к мировому философскому наследию. Поэта интересовал ряд философских вопросов, и чтобы сойти к их сути, Физули усовершенствовал античную философию, древнюю и средневековую восточную философию, проанализировал взгляды философов-мыслителей, отдельных философских школ и выразил свое отношение к ним.

***Методология*** – в процессе исследования отношения Физули к философским вопросам использовались методы синтеза, анализа и сравнительного анализа.

Поэт считал научность и эрудицию главным фактором развития общества. Он выдвинул интересные идеи о знании и его видах.

***Результатом исследования*** – является раскрытие отношения поэта к важности познания истинного разума и истины для достижения истины, следовательно, и к учителям и ученым, высоко ценившим в обществе их бесценную деятельность.


***Ключевые слова***: *поэт, философия, человек, общество, душа, тело, разум, знание, существование*

doi.org/10.61764/lasr.3.2024.5-11

**Zeynaddin Shabanov**

# MAHAMMAD FÜZULI'S RELATIONSHIP WITH THE WORLD PHILOSOPHICAL HERITAGE

***Summary***

***The purpose of the article*** – is to study the attitude of the brilliant Azerbaijani poet-philosopher Muhammad Fuzuli to the world philosophical heritage. The poet was interested in a number of philosophical issues, and in order to get to their essence, Fuzuli improved ancient philosophy, ancient and medieval Eastern philosophy, analyzed the views of philosophical thinkers, individual philosophical schools and expressed his attitude towards them.

***Methodology*** – in the process of researching Fizuli's attitude to philosophical issues, methods of synthesis, analysis and comparative analysis were used.

The poet considered scholarship and erudition to be the main factor in the development of society. He put forward interesting ideas about knowledge and its types.

***The result of the research*** – is the disclosure of the poet's attitude to the importance of knowing the true mind and truth in order to achieve the truth, and therefore to teachers and scientists who highly appreciated their invaluable work in society.

***Keywords*****:** *poet, philosophy, human, society, soul, body, mind, knowledge, existence*

doi.org/10.61764/lasr.3.2024.12-23

**UOT 316**

**Mohammad Saedabad**
*Əmək və Sosial Münasibətlər Akademiyası, s.f.d.*
*m.orxun@gmail.com*

# İCMALARIN TƏŞKİLATLANDIRILMASI VƏ İNKİŞAFI, FƏRQLİ CƏHƏTLƏR

***Xülasə***

*İcmalarla iş, icmaların inkişafı və təşkilatlandırılması, icmadaxili həmrəylik və səfərbərlik imkanlarının artırılması və ümumi olaraq müxtəlif tipli icmaların rifah səviyyəsinin yüksəldilməsi daima sosial müdafiə və sosial siyasətin diqqət mərkəzində olan məsələlərdən biri olmuşdur. İcmaların inkişafı cəmiyyətin inkişafı, makro layihələrin uğurla həyata keçməsi və ümummilli inkişafın təmin edilməsi üçün vacibdir. Buna görə də, icmaların inkişafı, təşkilatlandırılması və səfərbərliyi həm sosioloqlar həm də, sosial işçilərin diqqət mərkəzində olmuşdur. Xüsusilə sosial işçilər sadəcə icma inkişafı ilə bağlı maneələr və çıxış yollarını araşdırmırlar, həm də, konkret həll yolları və layihələrin həyata keçirilməsi fonunda icmalarla işləyib, onların inkişafı üçün real addımlar atırlar. Bu istiqamətdə müxtəlif yanaşmalar mövcud olsa da iki başlıca yanaşma "icma inkişafı" və "icma təşkilatlandırılması" olmuşdur. Bunları daha dəqiq bilmək və icma ilə iş zamanı hansı yanaşmanın əsas götürüləcəyini dəqiqləşdirmək olduqca vacib məsələdir. Bəzən bu iki yanaşmanı eyniləşdirmək cəhdlərinin olduğunu nəzərə alraq, onların nəzəri və teorik cəhətdən fərqli və oxşar cəhətlərinin dəqiq izahı, müqayisəli təhlili və müxtəlif tipli icmalara (ənənəvi, inklüziv, virtual və xəyali) tətbiqinin mümkünlüyünün öyrənilməsi tədqiqatın əsas məqsədini təşkil edir.*

***Açar sözlər***: *icma, təşkilatlandırma, inkişaf, virtual icmalar, icma potensialı*

## Giriş

Sosiologiya və sosial iş sahəsində icma anlayışı, icmalarla iş və icma problemlərinin öyrənilməsi daima aktual məsələlərdən biri kimi diqqət mərkəzində olmuşdur. Xüsusilə müasir dövrdə dini və mədəni icmalar arasında münasibətlərin mürəkkəbləşməsi və xüsusi ilə bəzi icmalar arasında münasibətlərin kəskinləşməsi, həmçinin icmaların inkişafının prioritet mövzuya çevrilməsi icmalar, icmaların təşkilatlanması və inkişafı kimi məsələlərin öyrənilməsini zərurətə çevirmişdi. Eyni zamanda icmalarla iş sosial iş sahəsinin əsas fəaliyyət sferalarından biri, icmalar fərd və qruplarla birlikdə sosial işin obyektini təşkil edir. İcmalarla iş zamanı məqsəd və strategiyanın düzgün qoyulması icma işinin uğurunu təmin edən əsas amillərdən biridir. Bu baxımdan təşkilatlandırma və inkişaf kimi məsələlərin biri-birindən fərqlənməsi, uyğun plan və strategiyanın işlənilməsi icmalarla işin səmərəliliyini şərtləndirən başlıca amillərdən biridir (şəkil 1).

"İcma nədir sualına" cavab olaraq demək olar ki, fərqli mənbələrdə icma anlayışı müxtəlif rakurslardan (dini, hüquqi, sosial, siyasi, tarixi) izah edilib. Ənənəvi olaraq icma birgə yaşayışın müəyyən forması kimi nəzərdən keçirilirdi. Elmi-tarixi ədəbiyyatlarda icma anlayışı əsasən tarixi yaşayış forması kimi və insan cəmiyyətinin ilkin inkişaf dövrünü xarakterizə edən ictimai quruluşunu ifadə etmək məqsədi ilə işlədilib. Bu ədəbiyyatlarda "ibtidai icma quruluşu" əmək alətlərinin hazırlanma materialına və texnologiyasına əsasən müxtəlif dövrlərə bölünür.

doi.org/10.61764/lasr.3.2024.12-23

**Sosiologiyada** cəmiyyətin tipologiyası və sosial təkamülünə dair elmi araşdırmalarda icma anlayışı ilə tez-tez rastlaşmaq olur. Sosiologiyada icma anlayışından sosial quruluşun konkret formasını ifadə etmək üçün istifadə edilir. Cəmiyyətin tipologiyası və inkişafını öyrənən sosioloqlardan Ferdinand Tönnis "İcma və cəmiyyət" adlı əsərində icmanın sosioloji mahiyyətini izah etmişdi. O, "Gemeinschaft" termini ilə "icma" və "Gesellschaft" termini ilə cəmiyyət anlayışını ifadə edir. Almanca olan "Gemeinschaft" müasir sosiologiyada "Community" və "Gesellschaft" isə "Society" terminınə ekvivalent hesab edilir. Bu bölgü (icma və cəmiyyət) və ona məxsus olan həyat tərzi Maks Veberin də yaradıcılığında ciddi diqqət mərkəzində olmuşdur. Tönnis bu iki tip sosial quruluşa məxsus normaları üç cəhətdən biri-birindən fərqlənir:

- Sosial nizam normaları
- Hüquq normaları
- Əxlaq normaları




**Şəkil 1. İbtidai icma quruluşunun arxeoloji dövrləri**
Mənbə: (1)

Eyni zamanda o, sosial həyatın formalarını üç pilləli piramida şəklində izah edir: sosial münasibətlər, sosial qruplar və korporasiya yaxud birliklər (şəkil 2).




**Şəkil 2. Sosial həyatın formaları**
Mənbə: (2)

Münasibətlər o zaman mövcud olur ki, onda iştirak edənlər tərəfindən a) hiss edilir, b) dərk edilir və c) zəruriliyi başa düşülür. İkidən artıq iştirakçı arasındakı sosial münasibətlər "sosial dairə"ni yaradır. Sosial dairə "münasibətdən" qrupa keçid pilləsidir. Qrup o zaman mövcud olur ki, fərdlərin birləşməsi onlar tərəfindən şüurlu surətdə müəyyən məqsədə çatmaq üçün zəruri akt olaraq qəbul edilir. Sosial formanın korporasiya, birlik və yaxud bir icmaya çevrilməsinin əsas şərti, onun, daxilən təşkil olmuş olmasıdır, yəni, müəyyən iştirakçıların müəyyən funksiyalar yerinə yetirməsidir.

Tönnisin fikrincə "icma münasibətləri emosiyalar və mənəvi meyillərə əsaslanır və aşağıdakı tiplərə malikdir:

- Qəbilə münasibətləri,
- Birgə yaşayışla səciyyələnən qonşuluq münasibətləri,
- Mənəvi yaxınlığa və ya qohumluğa əsaslanan dostluq münasibətləri" [2, s 238].

"Cəmiyyət" münasibətlərinin əsasında isə rasional mübadilə dayanır. Başqa sözlə desək, icma münasibətlər dərin, "emosional, təbii və orqanikdir. Üzvlər spontan formada öz funksiyalarını həyata keçirirlər. Üzvlər arasında təbii və ya qan qohumluğuna əsaslanan əlaqələr var və məkan məhdudluğu səbəbindən onların hamısı bir-birini tanıyırlar. Qeyri-rəsmi sosial nəzarət din, ailə, dostlar qrupu, mentalitet vasitəsilə həyata keçir. "Cəmiyyət"də isə üzvlərin maraqları arasında ziddiyyət, əmək bölgüsü, qanuni intizam, xüsusi mülkiyyət üstünlük təşkil edir" [1, s 144-145]. Burada üzvlərin çoxsaylılığı və fərqliliyi əlaqə və münasibətləri şərtləndirən amilə çevrilir. Burada icmadakı təbii, dərin, məhdud və emosional münasibətləri müşahidə etmək çətindir. Eyni məkanda yaşayan insanlar sadəcə öz maraq və məqsədlərinə uyğun münasibətlərə üstünlük verirlər. "Kalkulyator" insanlar xüsusi mülkiyyət formasına üstünlük verir, mexaniki münasibətlər daxilində fəaliyyət göstərirlər. Bu münasibətlərin xarakterik cəhəti, onların səthi və bürokratik olması, əmək bölgüsünə əsaslanması, soyuq və texnoloji inkişafdan təsirlənməsidir.

İcmada əlaqələr şəbəkəsi dar və məhduddur, dərin və orqanikdir, hər bir fəaliyyət fərdin deyil toplunun maraqlarına xidmət edir, insanlar bir-birini tanıyır və bir-birinin keçmişini bilir. Bu tanışlıq və keçmişə dair məlumat insanlararası münasibətlərə təsir edir. "Cəmiyyət"də məkan geniş və üzvlərin sayı çox olduğu üçün əlaqələr daha çox formal və kontraktual xarakterlidir, səthidir, qazanc-itki hesablamasına məruz qalır, əlaqə tərəfləri biri-birin əvvəlcədən tanımır və keçmişinə dair məlumata malik deyil.

Tönnis icmanın üç növünü fərqləndirir: məkan eyniliyinə, mental eyniliyə, qan eyniliyinə (qan qohumluğu) əsaslanan icmalar. Məkan (coğrafi) eyniliyinə əsaslanan icmada insanların birliyi və özlərini bir icmanın üzvü kimi qəbul etməsi eyni məkanda yaşamağa, qonşu və yaxud yerli olmağa əsaslanır. Buna kəndin bütün resurslarından ortaq istifadə edən kənd icmalarını misal göstərmək olar. Mental (zehni) icma üzvlər arasında razılıq, zehniyyət və hisslər eyniliyi əsasında formalaşır. Buna dini icmaları misal göstərmək olar. Qan eyniliyi və yaxud qan qohumluğuna əsaslanan icma isə tayfa, nəsil kimi anlayışlar ətrafında birləşən uzaq və yaxud yaxın qohumlardan olan üzvlərin birliyinə deyilir. Burada icmada birgəyaşayış və fəaliyyət məhz qohumluq münasibətlərinin nəticəsi olaraq meydana çıxır.

Tönnisin fikrincə, həm icma həm də, "cəmiyyətin" yaranması və fəaliyyəti iradənin məhsuludur. Lakin "icmada zəka iradəyə tabedir (Kürwille / arbitrary will) "cəmiyyət"də isə iradə zəkaya tabedir (Wesenwille / natural will)" [1, s 145].

İcmaya məxsus təbii iradə üç formada təzahür edir: həzz, vərdiş və yaddaş. Həzz, vərdiş və yaddaş icmanın qohumluq, qonşuluq, dostluq səviyyəsinə uyğun gəlir. "Tönnis icma və "cəmiyyət" arasındakı fərqləri aşağıdakı kimi qruplaşdırmışdı:

doi.org/10.61764/lasr.3.2024.12-23

1. İcma kəndin kəndli toplusuna xasdır, "cəmiyyət" isə industrial sosial orqanizmdir;
2. Əmək bölgüsü icmada qohumluq əlaqələri üzrə qurulur və məhdud ixtisaslaşmaya əsaslanır. "Cəmiyyət"də isə rollar professionallaşır və ailə rollarından fərqlənir.
3. Sosial nəzarət sferasında icma ənənəvi adətlər və yazılmamış qanunlara söykənir, "cəmiyyət" formal hüquqa əsaslanır.
4. İcmada əsas sosial institutlar rolunda ailə, qonşuluq, qohumluq, din və ənənə, "cəmiyyətdə" isə korporativ və assosiasiya mahiyyətli birliklər çıxış edir.
5. İcma mədəniyyəti dini dəyərlərə, "cəmiyyət"in mədəniyyəti isə dünyəvi dəyərlərə əsaslanır" [2, s 238].

Əlbəttə Tönnisin qeyd etdiyi fərqləndirici cəhətlər onun yaşadığı dövr və əsas götürdüyü anlayışları xarakterizə edirdi və günümüzdə, xüsusilə, sosial işdə icma anlayışını xarakterizə etmək üçün kifayət etməyə bilər. Digər tərəfdən artıq hazırda bir çox dini və etnik icmalar, hər hansı bir maraq və düşüncə ətrafında formalaşmış icmalar, həm industrial şəhər yerlərində həm də, kənd və rayonlarda müşahidə edilə bilər və ən azından əmək bölgüsü ilə bağlı Tönnisin qeyd etdiyi əlamətlər eyni zamanda hər bir icmada və ümumiyyətlə cəmiyyətdə müşahidə edilə bilər.

Qərb sosiologiyasının nümayəndələrinin fikrincə, "icma müəyyən coğrafi ərazidə müəyyən vaxtda yaşayan, ümumi mədəniyyətə malik olan, müəyyən sosial strukturu əmələ gətirən, ayrıca qrupun tərkibində öz mənlik və birlik hissini təzahür etdirən insanların funksional cəhətdən qarşılıqlı əlaqəyə əsaslanan daxili birliyidir". Talkot Parsons icma dedikdə "özlərinin gündəlik fəaliyyətinin böyük hissəsini malik olduqları ortaq ərazi məkanına keçirən insanlar birliyini başa düşürdü və hesab edirdi ki, icmanın müstəqil tam olması mütləq deyil".

Ümumi olaraq sosioloji baxımdan belə hesab etmək olar ki, icma insanların davamlı məcmusu olub, həmin insanların həyat şəraiti və həyat tərzinin, sosial norma, maraq və dəyərlərinin bu və ya başqa şəkildə eyniliyi ilə xarakterizə olur. Dinin sosiologiyasında dini icma anlayışından istifadə edilir. Yuxarıda da qeyd edildiyi kimi dini icma əsasən eyni düşüncə və zehniyyət ətrafında insanların birlik halında fəaliyyəti və əlaqələrini özündə birləşdirir. Dini icmalarda üzvlərin qarşılıqlı əlaqəsi, səfərbərliyi və birgə fəaliyyətinin yeganə motivi dini inam və dəyərlər haqda düşüncə eyniliyidir. Belə ki, dini düşüncə eyniliyi zəifləyib yaxud mövcud olmadıqda dini icmanın davamı və fəaliyyəti mümkün olmur.

Qruplar və birliklərin sosial təhlili ilə məşğul olan tədqiqatçılar sosial birliklərin müxtəlif növlərini və xüsusiyyətlərini qeyd edirlər ki, bunların bir çoxunu sosial birliklərin bir forması olan icmalara da aid etmək olar:

A) "Kütləvi birlik: çoxlu sayda fərdi özündə birləşdirən sosial birlikdir və dörd mühüm əlamətlə səciyyələnir: mövcudluğun situativ üsulu ilə; tərkibinin rəngarəngliyi ilə; açıq sərhədlərin mövcudluğu ilə; daha geniş birliklərin struktur elementi hüququnda çıxış etməyə qadir olması ilə.

B) Qrup birliyi: fərdlərin kəmiyyət etibarı ilə müəyyən məcmusudur və malik olduğu əlamətlər bunlardır: davamlı məkan-zaman sərhədləri; tərkibinin dəqiq ifadə olunmuş həmcinsliyi; birlik üzvlərinin müəyyən məqsəd və vəzifələrə malik olmaqla müxtəlif fəaliyyət növlərini birlikdə yerinə yetirməyə qadir olmaqları; daha geniş sosial birliklərin struktur elementi hüququnda fəaliyyət göstərmək qabiliyyəti.

C) Sosial-ərazi birliyi: məkanla məhdud sosial strukturlar çərçivəsində insanlar arasında iqtisadi, sosial, siyasi və digər əlaqələrin mövcudluğu ilə səciyyələnir.

doi.org/10.61764/lasr.3.2024.12-23

Burada əmək bölgüsü və əhalinin yenidən istehsalı hesabına davamlı olaraq mövcud olur.

D) Etnik birlik: ərazi və sosial-mədəni-iqtisadi həyatın vəhdəti əsasında formalaşır. Etnik birliklərin əlamətlərinə bir qayda olaraq vahid dil, mədəniyyət və psixologiyanın ümumi və sabit xüsusiyyətlərini, həmçinin etnik mənlik şüurunu aid etmək olar" [2, s. 241].

Sosioloji aspektdə icma birbaşa və dolayı yolla ifadə edilən xüsusiyyətlərin toplusudur. O, əslində obyektiv təriflərdən kənara çıxan subyektiv təcrübələri ehtiva edir. İcmanı subyektiv tərifinə daxil olan xüsusiyyətlər konkret ölçüyə uyğun gəlməyir, bu xüsusiyyətlər hiss edilir və yaşanılır. İcmanın tərifi onun quruluşundan asılıdır. Ona həm tarixi prizmadan, həm də inkişaf etdiyi coğrafi və ideoloji fondan baxmaq lazımdır. Robert Bellah "sosial cəhətdən bir-birindən asılı olan, diskussiyalar və qərarların qəbulunda birlikdə iştirak edən, həm birliyi var edib həm də, birlikdən qaynaqlanan müəyyən təcrübələri paylaşan insanlar birliyini" icma adlandırır. İcma üzvləri mənşə və xüsusiyyətlər (sosial, mənəvi, təhsil, etnik, iqtisadi, siyasi və s.) müxtəlifliyini qəbul edən iki və ya daha çox insan qrupudur. Bu müxtəlifliyiə rəğmən birləşmək, onlara səmərəli və açıq ünsiyyət qurmağa və ümumi mənafeləri naminə müəyyən edilmiş məqsədlərə doğru birlikdə hərəkət etməyə imkan verir". Bryon Munon hesab edir ki, "icma məhdud coğrafi ərazidə yaşayan, birlik və qarşılıqlı asılılıq hissləri ilə bir-birinə bağlı olan özünü təmin etməyi müəyyən səviyyədə bacaran insan birliyidir". C.Farrington və E.Pine icmanı "diskussiya və kollektiv fəaliyyətə zəmin yaradan əlaqə və ünsiyyət şəbəkəsinə malik insanlar qrupu" kimi tərif edirlər.

İcmaların təşkili əsasına görə, onları başqalarından fərqləndirən xüsusiyyətlərinə görə müxtəlif formaları var. Xüsusilə müasir dövrdə artıq ənənəvi icma anlayışı icma problemi və icmalar iş məsələlərinin həlli üçün kifayət etmir. Bu baxımdan da icmaların üç xüsusi tipindən danışmaq olar: Real (ənənəvi) icmalar, virtual icmalar və xəyali icmalar (şəkil 3).

İcmanın formalaşma və fəaliyyətində əsas diqqət çəkən amil icmanı simvolizə edən, digər icmalardan fərqləndirən və icma üzvlərinin fərqləndirici cəhəti (identifik amil) olmalıdır. Ənənəvi icmalarda simvolizə amili rolunda qan qohumluğu, eyni ərazi, maraq, etnik və ya dini mənsubiyyət çıxış edir. Lakin virtual və xəyali icmalar daha fərqli amillərlə xarakterizə olur. "Modernizmin son dövrləri istisna olmaqla, icma tarixən insanın birgə yaşayış forması olmuşdur" düşüncəsini müdafiə edən Viliam Brugman (William G. Brueggemann) icmanı simvolizə edən amillərin təhlilini verərək, hesab edir ki, "icma mövcud olmaq üçün təcəssüm tapmalıdır [4, p 148]. Yəni, icma üzvləri və icmanın bir hissəsi olmayanlar üçün icmanı simvolizə edən bir faktor olmalıdır ki, məkan əsaslı icmalarda bu təcəssüm və simvolizə faktoru fiziki/coğrafi məkandır. Bu məhdudlaşmış məkan kənd, rayon, yaşayış massivi, klub, məktəb və s. ola bilər. Eyni zamanda hansısa dini məbəd, kilsə, məscid, əyləncə klubu və s. də icmanı simvolizə edən məkan ola bilər. Təbii bu məkan müəyyən sərhədlərə malikdir və bu sərhədlər icmanın fiziki sərhədləri kimi qəbul edilir. Qeyd edilənlərə baxmayaraq "Karp, Stoun və Yoels icmanı məkan və ya ərazi vahidi kimi təsvir etmirlər. "Onlar icmanı qarşılıqlı əlaqə şəbəkələri və ya "qarşılıqlı fəaliyyət sahələri" kimi təsvir edirlər. Phillip Olson, başqa bir aspektdən yanaşaraq hesab edir ki, artıq icmaya ərazi vahidi kimi deyil, daha çox ümumi maraqları və fəaliyyətləri paylaşan insanlar arasında müxtəlif əlaqələr vahidi kimi baxılmalıdır" [4, p 148].

İcmaların xarakterik cəhətlərindən biri də, icmadaxili münasibətlər, güc və imkanlar bölgüsü, məhdudiyyət və mənsubiyyətə görə insanlara fərqli yanaşmalar ola bilər. İcma üzvlərinə məhdudiyyət və mənsubiyyətinə görə fərqli yanaşılan, vəzifə və güc bölgüsündə həmin məhdudiyyət və mənsubiyyət faktoruna əsaslanan icmalar əsasən qeyri-inklüziv və

doi.org/10.61764/lasr.3.2024.12-23




**Şəkil 3. İcmaların tipləri**
Mənbə: (2)

daha dəqiq desək, "eksklüziv" xarakterli icmalar olur. Bu icmalarda hüquqi bərabərlik və bərabər iştirak imkanları ya olmur və ya olduqca kövrək və zəif şəkildə müşahidə edilir. Bu halda icma daxilində cinsi, yaş, iqtisadi və sağlamlıq durumu, fərqli dini görüşlər və fərqli orientasiyalara görə üzvlərin icma təşəbbüsləri və qərarqəbulundan kənarda qalma halları da ola bilər.

İnklüziv icma üzvlərin müxtəlif fərqli cəhətlərinə baxmayaraq hamısının eyni hüquqlu olduğu, icma resurslarından faydalanma imkanlarının bərabərliyi və hər kəsin "səsi"nin eşidildiyi bir birlikdir. Burada icma üzvlərinin iqtisadi imkanları, yaş, cins, dini və etnik mənsubiyyəti, sağlamlıq durumu (xüsusilə əlilliyi olan şəxslərlə nəzərdə tutulur) onların icmadakı mövqeyinə təsir göstərməli, iştirak imkanlarını məhdudlaşdırmamalıdır. İnklüziv icma məsələsi xüsusilə icmalarda gender münasibətlərinin tənzimlənməsi və icmalarda gənclərin rolunun artması baxımdan olduqca vacibdir.

İnklüziv icmaların fəaliyyəti bu gün ən vacib məsələlərdən biridir. Əslində hələ də xüsusilə bir sıra kənd və rayon icmalarında inklüzivliyin təmin edilməsi icmalarla işin əsasını təşkil etməlidir. Çünki xüsusilə cins və yaş amili həmin icmalarda üzvlərin böyük hissəsinin icma fəaliyyətlərinə, təşəbbüs və planlaşdırma işlərinə cəlb olmasına mane olur. Bəzi icmalar qadınlar və gənclərin aktiv iştirakına mane olur, nüfuzlu şəxslərin düşüncə dominantlığına əsaslanaraq fəaliyyət göstərirlər. Bu isə icmanın səfərbərlik imkanlarını xeyli dərəcədə məhdudlaşdırır, hüquq bərabərliyini pozmuş olur. Qeyri-inkilüziv icmalarda bir çox layihələrin icrası (xüsusilə icma fəaliyyətlərindən kənarda qalan insan qrupları ilə əlaqədar olan layihələr) effektiv nəticələrlə sonuclanmır. Məsələn gender bərabərliyi pozulmuş icmada qadınların hüquq və sosial fəaliyyətinin yaxşılaşdırılmasına yönəlmiş layihələrin icrası dominant qrupların törətdiyi maneələr nəticəsində ya icra olmur və yaxud icra edilsə də, gözlənilən təsir gücünə malik olmur.

İcmanın inklüziv xarakterli olması həm də, icmanın inkişafı və təşkilatlanması üçün vacibdir. Hər bir icmanın inkişafı icma üzvlərinin aktivliyi, icma problemlərinə həssaslığı, icma problemlərinin həllində effektiv iştirakı və icma səfərbərliyinin təşkilindən asılıdır. Eyni zamanda icma resurslarının daxili və xarici resurslar olaraq iki yerə ayrılmasına baxmayaraq, təcrübə göstərir ki, daxili resursları zəif olan icmanın xarici resurslar hesabına inkişaf etmə ehtimalı da zəifdir. Daha dəqiq desək icma inkişafının əsasını daxili resurslar

təşkil edir və xarici resurslar əsasən köməkçi resurs rolunda çıxış edir. Hər bir icmanın daxili resurslarının nüvəsini isə icma üzvləri təşkil edir. Bu nüvənin güclənməsi inklüzivliyin təmin edilməsi ilə birbaşa əlaqədardır. Mövzuya bu aspektdən yanaşdıqda hazırkı dövrdə icma inkişafı və icmaların təşkilatlandırılması məsələsində inklüzivlik amilinə diqqətin əhəmiyyətini daha açıq şəkildə görmək olar.

Müasir dövrdə sosial sahənin mütəxəssisləri icmaların real və virtual formalarından danışırlar. Real icma ənənəvi forma və məzmunla fəaliyyət göstərən sosial birlikdir. Virtual icmalar isə yeni informasiya-kommunikasiya texnologiyalarının inkişafı və insanların sosial həyatında onların rolunun artması ilə əlaqədar meydana gələn icmalara deyilir. Beləki, virtual icmalarla bağlı bəzən internet-icma terminindən də istifadə edilir.

Virtual icma (e-icma və ya onlayn icma da adlanır) təhsil, sosial, peşəkar fəaliyyət və ya digər məqsədlər üçün üz-üzə deyil, əsasən xəbər bülletenləri, onlayn müzakirə platformaları və ya ani mesajlar kimi kommunikasiya vasitələri ilə qarşılıqlı əlaqədə olan insanlar qrupudur. Müasir dövrdə virtual və onlayn icmalar həm də bir-birini ilk növbədə real həyatda tanıyan insanlar arasında ünsiyyətin əlavə formasına çevrilib. Sosial proqram təminatında ayrılıqda və ya kombinasiyada bir çox vasitələrdən, o cümlədən mətn əsaslı söhbət otaqları və səs, videomətn və ya ani mesajlaşma imkanı verən sosial şəbəkələrdən istifadə edilərək virtual icmalar təşkil edilir. Əhəmiyyətli sosial-texniki dəyişiklik bu cür İnternet əsaslı sosial əlaqələr şəbəkəsi, qruplar və icmaların çoxalmasına gətirib çıxarmışdı. Sosial yüksəliş və kollektiv fəaliyyət üçün coğrafi və maraqlarla bağlı icmaların virtual şəbəkələr yaradaraq onlardan istifadə etməsi də, mümkündür. Buna nümunə olaraq yerli virtual icmaları, müxtəlif dini, siyasi, cinsi və s. maraqlar əsasında formalaşan virtual icmaları misal göstərmək olar.

Virtual icma qarşılıqlı maraq və ya məqsədləri həyata keçirmək üçün spesifik sosial media vasitəsilə əlaqə quran fərdlərin sosial şəbəkəsidir. Virtual icmalar üçün coğrafi mənsubiyyət və qohumluq sərhədləri önəmli deyil. Burada fərqli və olduqca çeşidli dəyərlər və simvolizə edən amillər birləşdirici amil rolunda çıxış edir. Hovard Reynqold 1993-cü ildə nəşr olunan “Virtual icma” (The Virtual Community) kitabında virtual icmalardan bəhs etmişdir. Burada virtual icmanı mümkün edən texnologiyalar, vasitə və platformalar (sosial şəbəkələr, çat otaqları və elektron poçt siyahıları) müzakirə edilir. Reynqold həmçinin, virtual icmaya mənsub olmağın şəxsi-psixoloji duruma və bütövlükdə cəmiyyət üçün potensial faydalarını qeyd edir. Eyni zamanda, virtual təcrübə icmalarının fəaliyyətinin müsbət təsirlərindən danışır.

Virtual ünsiyyət və fəaliyyəti əhatə edən virtual icmaların hamısı qarşılıqlı əlaqəni təşviq edir, bəzən xüsusi bir maraq və ya sadəcə ünsiyyət üzərində fokuslanır. Bəzi virtual icmalar hər ikisini edir. İcma üzvlərinə müxtəlif vasitələrlə ortaq bir maraq üzərindən qarşılıqlı əlaqəyə imkan yaradır, o cümlədən, mesaj lövhələri, çat otaqları, sosial şəbəkələr, ümumdünya hörümçək toru üzərində saytlar və ya virtual dünyalar.

Üzvlər adətən icma dünyasına bağlanır, hər gün əlaqədar saytlara daxil olur və çıxır və həm ünsiyyət həm də informasiya mübadiləsi üçün bunlardan istifadə edir. Şübhəsiz ki, bu, bəzən asılılığa çevrilə bilər. Real dünyada ənənəvi üsullarla formalaşmış icmalar əsasən coğrafi mənsubiyyət və coğrafi cəhətdən (məhəllələr, kəndlər və s.) məhdud olan birliklər olduğu halda, virtual icmalarda coğrafi mənsubiyyət və coğrafi sərhədlər bir çox hallarda heç bir rola malik olmur.

Virtual icma üzvləri adətən coğrafi mənsubiyyət baxımdan səpələnmiş və fərqli məkanlara aid olurlar. Təbii olaraq belə bir xüsusiyyət ənənəvi formada meydana çıxan icmalara verilən təriflərə uyğun gəlmir və məhz elə buna görə də, virtual icmalara yeni tərif verilməli, onların əsasını təşkil edən elementlər yenidən nəzərdən keçirilməlidir. Artıq burada coğrafi sərhəd və mənsubiyyət icmanın təşkilinin əsas amili kimi nəzərdə

tutulmamalıdır. Virtual icmaların digər bir xüsusiyyəti icma üzvlərinin biri-birinə yad olması, hər hansı qohumluq və yaxın münasibətin mövcudluğu şərtinə tabe olmamasıdır. Lakin virtual icmadakı yad insanlar arasında dəstək, məlumat mübadiləsi, dostluq və qəbuletmə aktları real həyatdakı icmalar qədər önəmli və bənzərdir. Virtual icmalarda əsasən ortaq dəyər, maraq və fəaliyyət insanları birləşdirir. Yəni real məkandakı icmaları xarakterizə edən üç əsas xüsusiyyətin yalnız biri virtual icmalarda müşahidə edilir. Digər iki xüsusiyyət (ortaq məkan və tanışlıq/qohumluq əlaqələri) həm müşahidə edilə bilər, həm də, edilməyə bilər.

Virtual icmalarla bağlı ən vacib məqamlardan biri, bir neçə media platforması və ya şəbəkəsi vasitəsilə ünsiyyət qurmaq imkanıdır. Mediaya əsaslanan icmaların mövcud olmağına dair ilk araşdırmalar virtual reallığın təbiəti, virtual məkandakı icmaların icma kimi nəzərdən keçirib-keçirilməməsi idi. XVII əsrdə London Kral Cəmiyyəti ilə əlaqəsi olan alimlər məktub mübadiləsi yolu ilə bir icma yaratmışdılar. 1963-cü ildə Melvin Vebber tərəfindən icad edilən “azad edilmiş icma” və 1979-cu ildə Berri Vellman tərəfindən təhlil edilən “yaxınlığı olmayan icma” əsəri qeyri-lokal icma haqqında düşüncənin yeni mərhələsini başlatmışdır.

Xəyali icma. Hazırda virtual icma ilə yanaşı xəyali icma anlayışından da istifadə edilir. Benedikt Andersonun 1983-cü ildə "Təsəvvür edilən icmalar" adlı əsərində ümummilli qəzetlər kimi müxtəlif texnologiyaların erkən milli dövlətlər arasında milli və regional şüurun inkişafına necə töhfə verdiyi təsvir edilmişdir. Nəzəriyyələrini Andersonun “Təsəvvür edilən icmalar” əsəri üzərində quran bəzi müəlliflər bu konsepsiyanı tənqid etmiş, bütün icmaların ünsiyyətə əsaslandığını və virtual-real dixotomiyasının dağıldığını iddia etmişlər.

Benedikt Andersonun “Təsəvvür edilən icma” əsərində milliyətçiliyi izah etmək məqasədi ilə “çap mediası xəyali icmalar formalaşdırır” konsepsiyasını irəli sürmüş və isbat etməyə çalışmışdır. Onun fikrincə, xəyali icmaların formaşmasının səbəbi “çap mediası”dır və Anderson bu əsərində çap mediasını konkret olaraq “çap kapitalizmi” adlandırır. Andersonun iddiasına görə kapitalist təşəbbüsçülər kitabları və başqa materiallarının tirajını maksimallaşdırmaq məqsədi ilə onları artıq Latın dilində yox, danışıq dillərinə daha yaxın dillərdə buraxırdılar. Bu həmin dillərdə (və ya ləhcələrdə) ümumi diskursları yaradaraq, “milli çap dilləri” əsasında Avropanın ilk milli dövlətlərinin formalşması ilə nəticələnib [3, p 35-36].

Özü marksist olan Andersonun, nə marksizmdən, nə də liberalizmdən gələn millətçiliyin izahlarını qəbul etmədiyini bildirirdi. Andersonun konsepsiyasının qısaca izahını belə vermək olar: media xəyali kimlik (identiklik) və xəyali ortaq dəyərlər-maraqlar ətrafında insanları birləşdirərək xəyali icmaların, birliklərin yaranmasına şərait yaradır. Bəzən bu xəyali icmaların əsasını təşkil edən düşüncə və ya ideologiya güclənərək daha böyük insan birliklərini öz ətrafında birləşdirir, onların səfərbərlik səbəbinə çevrilir. Bütün bunlar isə ciddi sosial hərəkat və hadisələrlə nəticələnə bilir.

Bütün bunlara baxmayaraq Anderson millətçiliyə qarşı pessimist mövqedə olduğu söylənilmir və onun fikrincə, millətçilik qloballaşan dünyada köhnəlmiş bir ideya deyil. Anderson millətçilikdə mövcud olan utopik elementi müsbət qiymətləndirir. Andersona görə “millət” süni olaraq inşa edilən bir şeydir. O, 1778 və 1838-ci illər arasında Cənubi və Şimali Amerikada ortaya çıxan elit təbəqənin şüurlu şəkildə özlərini bir millət olaraq tanıtdıqlarını və ilk milli-dövlət modellərinin bu şəkildə yarandığını irəli sürür. “Millətçilik düşüncəsi” milləti və milli-dövləti birlikdə inşa edir. Anderson Fransa və Amerika təcrübəsinə istinad edərək millətin yaranmasının necə inkişafını göstərir. Millətçiliyin belə formada və qeyd edilən təcrübələrdə inkişafı əsasən iki şəkildə müşahidə edilə bilər: ilk mərhələdə vətəndaş millətçiliyi olaraq meydana gəlir və ikinci mərhələdə etnik millətçilik

olaraq davam edir. Anderson millət nəzəriyyəsində yazılı ədəbiyyata və onun yayılmasına mərkəzi bir rol verir. O, hesab edir ki, millətçiliyin inkişafı, kitabların sayının artması və mətbəə texnologiyasının inkişafı ilə əlaqəlidir və millətin yaranışı üçün “həqiqi hekayələr”dən çox “əfsanə”lərə və “fantastik anlayışlar”a ehtiyac duyulur. Əlbəttə Andersonun irəli sürdüyü bu fikirlər müxtəlif cəhətlərdən ciddi tənqidlərə məruz qalmışdır. Lakin müasir dövrdə müxtəlif icma və birliklərin yaranması, təşkilatlanması, aktiv fəaliyyəti və inkişafında etməsində medianın rolunu inkar etmək də doğru olmazdı.

Artiq müasir informasiya və kommunikasiya texnologiyaları, həmçinin virtual məkanda formalaşmış icmaların mövcudluğu icmalarla iş konteskdtində təşkilatlanma və inkişaf prosesinə müsbət təsir edir. Təşkilatnadırma və inkişaf hər bir ölkədə icmaların fəaliyyəti və davamlılığını şərtlərindən əsas amildir. Həm icmanın təşkilatnadırılması həm də onun inkişafı istiqamətində aparılna işlər sonucda icmanın effektiv fəaliyyəti və davamlılığını təmin edir. Bir şox ədəbiyyatlarda isə bu iki fəaliyyət arasında ciddi bir fərq və sərhəd qoyulmadan bəzən eyni fəaliyyətlər kimi nəzərdən keçirilir. Bu halda daha çox nəticəyönümlü yanaşma özünü göstərir və icmanın inkişafı ilə təşkilatlanmasını eyni fəaliyyət kimi dəyərləndirən mütəxəssislər hesab edirlər ki, hər iki fəaliyyət sonda icmanın fəaliyyətinin səmərəliliyi və effektivliyini təmin edir, onun davamlılığı və irəliləməsinə səbəb olur. Bu baxımdan da bu iki fəaliyyəti biri-birindən fərqləndirmək doğru olmaz.

Qeyd edilənlərə baxmayaraq, əlaqədar ədəbiyyat və əsərlərin əksəriyyətində icmaların inkişafı icmaların təşkilatlandırılmasından fərqləndirilir və bunların iki ayrıca proses və fəaliyyət olduğu qeyd edir. Belə yanaşıldıqda bu iki prosesin fərqli cəhətlərinin dəqiqləşdirilməsi və izahı əhəmiyyət kəsb edir.

“**İcmanın inkişafı**” icma üzvlərini gücləndirmək, onların rifah və inkişafına mane olan amilləri aradan qaldırmaq və daha güclü icmalar yaratmaq məqsədi daşıyan bir prosesdir. İcmanın inkişafı səlahiyyətlərin artırılması, insan hüquqları, inklüzivlik, sosial ədalət, öz müqəddəratını təyinetmə və kollektiv fəaliyyət prinsiplərinə əsaslanan vahid yanaşmadır. İcma inkişafı təşəbbüslərində bilavasitə iştirak edən uşaqlar və ailələr bacarıqların, biliklərin, səlahiyyətlərin artırılması və özünü effektivliyin artırılmasından faydalana bilər və inkişaf etmiş sosial inklüzivlik və icma əlaqəsini təcrübədən keçirə bilərlər.

İcma inkişafı sosial işçilərin icma inkişaf korporasiyaları (QHT-lər, müxtəlif təşkilatlar və icma üzvləri tərəfindən yaradılmış hərəkatlar) vasitəsilə icma üzvlərinə iqtisadi, siyasi və sosial layihələri planlaşdıraraq, dizayn və həyata keçirməklə kömək etdiyi bir üsuldur. Antonia Pantoja və Wilhelmina Perry icma inkişafını iqtisadi cəhətdən asılı və siyasi hüquqdan məhrum edilmiş icmaların üzvlərinin birgə işləməsi vasitəsi kimi müəyyən edir ki, əsas məqsədi aşağıdakılardan ibarətdir:

- Onları yoxsulluq və asılılıq vəziyyətinə salan və bu durumun davamına səbəb olan qüvvələri və prosesləri anlamaq.
- İcma və üzvlərin güclü tərəflərini səfərbər edərək onları təşkilatlandırmaq və məlumat, bilik, bacarıq və maliyyə resurslarını nəzərə alaraq fəaliyyət planı hazırlamaq.
- Fərdlər və qrup mədəniyyətinin asılılıq və gücsüzlüyə səbəb olan elementlərini aşkara çıxararaq, bu amilləri aradan qaldırmaq.
- Üzvlərin rifahına xidmət edən və əsasən iqtisadi xarakterli olan yeni xidmətlərin və sosial proqramların icrası, bərpası və inkişafı üçün fəaliyyət göstərmək [4, p. 212].

İcma inkişafı dedikdə əsasən həyat keyfiyyətinin yaxşılaşdırılmasını məqsəd kimi qarşısına qoyan əraziyönümlü və həllyönümlü kompleks dəyişikliklər nəzərdə tutulur. Sosial işdə icmalarla iş sahəsində icmaların inkişafı effektiv bir yanaşma olaraq qəbul edilmişdir. İcmaların inkişafı sadəcə mövcud bərabərsizliklərin nəticələrini minimuma

endirməyə deyil, ümumiyyətlə bərabərsizliyə son qoymağa çalışır. Tipik olaraq, icma inkişafı ədalətsizlik və yoxsulluq yaradan amillər, sistemlər və mühiti diqqət mərkəzində saxlayır. İcma inkişafı inteqrasiya olunmuş çoxşaxəli müdaxilələri nəzərdə tutur". İnkişaf cəhdlərində icmada müşahidə edilən problemin həllində icma imkanalrı və icma potensiyalına ciddi diqqət yetirilir. Məsələn, oxsulluq hər bir cəmiyyətdə mürəkkəb və özünəməxsus tərzdə ifadə olunduğundan, biz icmanın inkişafı naminə yoxsulluqla mübarizə üçün həmin icmanın öz xarakterik cəhətlərinə nəzər yetirməli, daha çox icmanın potensiyalına istinad edərək ortaq və birgə fəaliyyətlərin intensivləşməsi və yerli mübadilə sisteminin yaxşılaşdırılmasına çalışmalıyıq. Çünki icmada yoxsulluq səviyyəsini azaltmaq və rifah səviyyəsinin yaxşılaşdırmaq istədikdə sadəcə müəyyən bir faktora diqqət və konkret bir problemin həllinə yönəlməklə mümkün olmur və bu "kompleks həll" yolunu tələb edən bir məsələdir. Burada davamlı inkişafa nail olmaq üçün məskunlaşma, ekoloji təhlükəsizlik, xidmətlərə əlçatanlıq, iqtisadi inkişaf və s. problemlərin sistemli təhlili və kompleks həlli vacibdir.

İcma inkişaf modellərinə gəldikdə əsasən 4 modeldən danışmaq olar: "qonşuluq inkişafı modeli (icm daxilində insanların rifahının təmin edilməsi üçün biri-biri ilə, qonşularla birgə fəaliyyət və mübadilə imklanlarını artırmaq), sosial fəaliyyət modeli (bu model gücün və resursların yenidən bölüşdürülməsinə və təcrid olunmuş sosial qrupların qərar qəbul etmə səlahiyyətində effektiv və birgə iştirakına diqqət yetirir), sosial planlaşdırma/siyasət modeli (icma üzvlərinin rastlaşdırları problemlərin həlli üçün rasiona və məqsədyönlü, texniki cəhətdən düşünülmüş planlar hazırlanır, əsasən diqqət səhiyyə, təhsil, mənzil təminatı və uşaqların inkişafına yönəlir), lokal/yerli inkişaf modeli (insanların özünədəstək potensiyalını gücləndirmək prinsipinə əsaslanır və insanyönümlü bir modeldir. İcma üzvlərinin özünədəstək və itraksiya gücünü artırmaqla qarşılıqlı əməkdaşlığı əsas götürür)" [5].

İcma təşkilatlandırılması icma üzvlərinin potensiyalına istinad edərək onların siyasət və qərarqəbulu proseslərində rolunu artırmaq istiqamətində aparılan işdir. əsa məqsəd icma üzvlərinin sosial-siyasi iştirak və fəaliyyət səviyyəsini artırmaqla onların həyatının yaxşılaşmasına təsir etməkdir.

Təşkilatlandırma nisbətən passiv qrupların ortaq maraqlar uğrunda effektiv iştirakı üçü şərait yaradan bir fəaliyyətdir. Təşkilatlandırmanın başlıca məqsədi qərarqəbulu imkanlarının təkrar bölgüsü yolu ilə kənarda qalan qrupların siyasət və sosial proseslərdə təsir gücünü artırmaqdır.

Randy Stoeckerin fikrincə, təşkilatlandırma təsir imkanları məhdud olan "icmalarla liderlər, bazar və hökumət arasında əməkdaşlıq əlaqələri qurur, insanların rifahına diqqəti yönəldir, icmadaxili investisiyaların təşviqinə və mənzil və biznesin inkişafına kömək edir. təşkilatlandırma icma üzvləri arasında birlik və harmoniyanı gücləndirə, onların ümumi mənafe uğrunda birgə fəaliyyət meyli və öhdəliyini gücləndirir" [4, p 221].

İcma üzvləri arasında müəyyən bir məsələ ilə bağlı ziddiyyətlər olsa da, təşkilatlandırma, onları qarşılıqlı anlaşma və rasional müzakirə fonunda səfərbər olaraq bir-birini başa düşməyə və ümumi məqsədlərinə diqqət yetirməyə sövq edə bilər.

Qeyd edilənlərə nəzərən icmanın inkişafı ilə təşkilatlandırılması arasında fərli və oxşar cəhətlərin olduğunu görmək mümkündür (cədvəl 1). Bu fərqli cəhətlərə baxmayaraq inkişaf və təşkilatlandırma biri-birinin şərtləndirən, təkmilləşdirən və daha tez bir zamanda effektiv nəticələrin əldə edilməsinə şərait yaradn fəaliyyətlərdir.

İcmanın inkişafı və təşkilatlandırılmasına dair oxşar və fərqli cəhətləri ümumiləşdirilmiş müqayisəli izahı verildi [6] və göründüyü kimi bu iki yanaşma sadəcə məqsəd və nəticə baxımından deyil həmdə müxanizm və alətlər baxımınından da fərqli xüsusiyyətləri ehtiva edirlər.

**Cədvəl 1. İcmanın inkişafı və təşkilatlandırılması arasında fərli və oxşar cəhətlər**

| *İcmanın inkişafı və təşkilatlandırılması* | |
|---|---|
| Oxşar cəhətlər | Fərqli cəhətlər |
| Təcrid olunmuş insanların həyatını yaxşılaşdırmaq üçün sistemli ədalətsizliyi aradan qaldırmaq cəhdləri. | İnkişaf yanaşmasından fərqli olaraq icma təşkilatlandırılması icma ilə institutlar və hakimiyyət arasında zidiyyətlərin mövcudluğunu dəyişikliyin zəruri elementi hesab edir. |
| Hər iki yanaşma məkan yönümlü fəaliyyət olub yerli potensiyala diqqət yetirir. | Təşkilatlandırma rəhbərləri bəzi istək və məqsədlərə nail olmaq üçün diqqətləri cəlb edəcək mübahisələrə səbəb olacaq mövzular ətrafında birləşməyi zəruri hesab edirlər. |
| Hər ikisində müəyyən edilmiş məkan daxilində qonşularla tərəfdaşlıq qurulur və fəaliyyətə dəstək üçün onların da imkanlarından istifadə edilir. | İcma İnkişafı yanaşması ümumiyyətlə konsensus, iştirakçılıq və müxtəlif sektorlar arasında daha çox əməkdaşlığı əsas götürür və konfliktdən uzaqdır. |
| Bu yanaşmaların hər ikisi ədalətsizliyə qarşı uzunmüddətli həll yolları axtarır və bu yöndə sistemləri və strukturları yenidən formalaşdırmağa çalışır. | Təşkilatlandırma bir çox hallarda sistemlərə təzyiq edərək dəyişikliyə və təkrar formalaşdırmağa nail olmaq istədiyi halda, inkişaf yanaşması onların yerli ekosistem daxilində yenidən formalaşdırılmasına təkid edir. |

Mənbə: müəllif tərtibi

Bu fərqli cəhətlər icmalarla iş layihələrinin dizayn və planlaşdırılması üçün əsas çıxış nöqtəsi hesab edilir.

**Nəticə**

Beləliklə qeyd etmək olar ki, icma ilə iş zamanı icma mütəxəssisi ilk öncə icmanın inkişafı və təşkilatlandırılması arasındakı ciddi fərqi nəzərə almalı, ona uyğun olaraq fəaliyyət layihəsini dizaynedib, planlaşdırmalıdırlar. Əslində inkişaf və təşkilatlandırma məqsəd və nəticə baxımdan kifayət qədər fərqlidirlər və bu da, icmalarla iş zamanı icma ilə bağlı yanaşmanın dəqiqləşdirilməsinin böyük əhəmiyyətini göstərir. eyni zamanda icma ilə iş zamanı müsir tələblər və imkanlar, həmçinin, icmanın müasir tipləri və xüsusiyyətləri nəzərə alınmalıdır. Təbii olaraq, ənənəvi əsaslarla fəaliyyət göstərən icma ilə virtual icmalra eyni yanaşma və münasibət icma mütəxəssisinin fəaliyyətinin uğur ehtimalını minimuma düşürmüş olar. Bu mövzu səfərbərlik və icmanın daxili və xarici resurslarına münasibətdə də əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT

1. Q.V.Osipov (məsul erdaktor). Qərbi Avropada və ABŞ-da sosiologiya tarixi (tərcümənin elmi redaktoru: İzzət Rüstəmov). Bakı; Turan nəşriyyatı. 2010, 612 s.
2. Z.T.Qolenkova, M.M.Akuliç, V.N.Kuznetsov (tərcümə: İzzət Rüstəmov). Ümumi sosiologiya. Bakı; Diplomat. 2007, 494 s.
3. Benedıct Anderson. Imagined Communities: Reflections on the Origin and Spread of Nationalism (revised edition). London & New York; Verso. 2006, 235 p.
4. William Brueggemann. The Practice of Macro Social Work (fourth edition). Belmont; Brooks/Cole Publishing Company. 2014, 524 p.
5. https://epgp.inflibnet.ac.in/epgpdata/uploads/epgp_content/S001610/P001769/M023901/ET/1507268112Mod15ModelsofCommunityOrganizationtext.pdf
6. https://www.luptoncenter.org/community-development-and-community-organizing/

doi.org/10.61764/lasr.3.2024.12-23

**Мохаммад Саедабад**

## ОРГАНИЗАЦИЯ И РАЗВИТИЕ СООБЩЕСТВ, ОТЛИЧИТЕЛЬНЫЕ ЧЕРТЫ

***Резюме***

*Работа с сообществами, развитие и организация сообществ, повышение возможностей внутриобщинной солидарности и мобилизации, а также в целом повышение уровня благосостояния различных типов сообществ всегда были одними из вопросов, находящихся в центре внимания социальной защиты и социальной политики. Развитие сообществ важно для развития общества, успешной реализации макропроектов и обеспечения общего национального развития. Поэтому развитие, организация и мобилизация сообществ были в центре внимания как социологов, так и социальных работников. Социальные работники, в частности, не просто исследуют препятствия и пути выхода из развития сообществ, но и работают с сообществами на основе конкретных решений и реализации проектов, предпринимают реальные шаги для их развития. Хотя в этом направлении существуют разные подходы, двумя основными являются «развитие сообщества» и «организация сообщества». Очень важно знать это более четко и определить, какой подход использовать при работе с сообществом. Учитывая, что иногда предпринимаются попытки отождествления этих двух подходов, четкое объяснение их теоретически и теоретически различных и схожих аспектов, сравнительный анализ и исследование возможности применения к разным типам сообществ (традиционным, инклюзивным, виртуальным и воображаемым) составляют основную цель исследования.*

***Ключевые слова***: *сообщество, организация, развитие, виртуальные сообщества, потенциал сообщества*

**Mohammad Saedabad**

## COMMUNITY ORGANIZATION AND DEVELOPMENT, DISTINCTIVE FEATURES

***Summary***

*Work with communities and the development and organization of communities, increasing the possibilities of intra-community solidarity and mobilization, and generally raising the level of well-being of different types of communities has always been one of the issues in the focus of social protection and social policy. The development of communities is important for the development of the society, the successful implementation of macro projects and ensuring the overall national development. Therefore, the development, organization and mobilization of communities has been the focus of both sociologists and social workers. Social workers, in particular, do not just examine the obstacles and ways out of community development, but also work with communities on the basis of concrete solutions and implementation of projects, and take real steps for their development. Although there are different approaches in this direction, the two main approaches are "community development" and "community organization". It is very important to know these more clearly and to specify which approach to take when working with the community. Taking into account that there are sometimes attempts to equate these two approaches, the precise explanation of their theoretically and theoretically different and similar aspects, comparative analysis and the study of the possibility of application to different types of communities (traditional, inclusive, virtual and imaginary) constitute the main goal of the research.*

***Keywords***: *community, organization, development, virtual communities, community potential*

doi.org/10.61764/lasr.3.2024.24-28

**UOT 1:008**

**Rabil Mehtiyev**
*Bakı Mühəndislik Universiteti, dosent*
*rabil.mehtiyev@mail.ru*
https://orcid.org/0000-0002-7809-8867

# SOSİAL MÜNASİBƏTLƏR SİSTEMİNDƏ ESTETİK ŞÜUR

*Sosial münasibətlər sistemində estetik şüur və onun formalaşması bilavasitə cəmiyyətdaxili proseslərin dinamikası ilə şərtlənir. Dəyişən cəmiyyət meyarları estetik şüurun məzmununu, təzahür formalarını transformasiyaya məruz edərək yeniləyir. Bundan irəli gələrək, estetik şüur ictimai şüurun bir hissəsi kimi onun digər formaları ilə əlaqədə olmaqla, insanın dünyaanlamı və düyagörüşünü tamamlayır. Bu mənada bu şüur forması daha çevik olmaqla, fərdin sosial rollarına adekvat olaraq şaxələnir. Yəni, estetik şüur daha çox gerçəkliyə münasibət, insanın ruhi vəziyyəti ilə bağlıdır, yaratdığı münasibət qiymətləndirmə şəklində olub idrak prosesində zəruri həlqədir.*

***Məqsəd*** **–** Estetik şüurun sosial münasibətlərin dinamik dəyişiklikləri konteksində məzmunca yenilənməsini araşdırmaq

***Metodologiya*** **–** Analiz və sintez metodlarından istifadə olunmaqla estetik şüurun sosial münasibətlər ilə şərtlənməsi tədqiq olunur

***Tədqiqatın nəticələri*** **–** Estetik şüura sosial münasibətlər konteksində baxılaraq onların qarşılıqlı dialektikası təhlil olunur

***Açar sözlər*** *– estetik şüur, sosial münasibətlər, estetik fəaliyyət, estetik gözəllik, estetik ideallar*

## Giriş

Estetik şüurun struktur komponentlərinə gəldikdə bura estetik münasibətlər, hislər, estetik ehtiyaclar, qavrayış, estetik təxəyyül, estetik zövq aid edilə bilər. Bu komponentlərin ardıcıllığı ixtiyari olmaqla fərdlərdən asılı olaraq dəyişir. Yəni, fərdin əhatə olunduğu mühit, onun ehtiyacları, gözləntiləri zaman və məkan konteksində çevikdir. Bu baxımdan eyni bir obyekt, ya proses fərdin təfəkküründə müxtəlif şəkildə inikas edə bilər. Bu proses mühakimə və qiymətləndirmə hissi və əqli idrakın hazırlıq səviyyəsindən birbaşa asılıdır. Estetik duyğu mənəvi axtarışlar ilə birləşərək fərdin şüuraltı duyumuna və cəmiyyətdəki gözləntilərinə bağlıdır.

Estetikliin ən başlıca əsası gözəllikdir. Estetikanın predmeti bir çox yüzilliklər ərzində gözəllik kateqoriyası ilə ifadə olunurdu (3, s.180). Birmənalıdır ki, insan daim gözəllik axtarır, buna görə vəsait xərcləmək lazım gələndə imtina etmir. Gözəllik axtarışına hər bir fərd ilk növbədə özündən başlayır. Bacardığı qədər gözəl, cəlbedici olmağa çalışır. Bunun üçün dəbdən, ən azı onu əhatə edən yaxın çevrəsindən geri qalmamağa çalışır. Daxili əminlik yaranana qədər cəhd edir, ətrafdakı yeni trendləri və meylləri gündəlik həyatında təsbit etməyə çalışır.

Bundan sonra cəmiyyətdəki gözəlliklərə diqqət kəsilməyə, onları özününküləşdirməyə nail olmaq istəyir. Bu zaman insanı əhatə edən reallıq ön plana çıxır. Hansı mühidə yaşamaq insanın sosiallaşmasına və esteik şüurunun təşəkkülünə mühüm təsir göstərir.

Bu proses tədrici xaraker daşıyır və sosiallaşmanın mərhələlərinə adekvat olaraq dəyişir. Gözəl ilə təmasda olan subyekt (insan və ya bir qrup insan) ideal və maddi olanın harmoniyasını yaşayır, estetik zövq alır. Zamanın əvvəlindən bəşəriyyətə xas olan gözəlliklərə, ideala can atmaq yaradıcılığa həvəsləndirici bir mesajdır, çünki insanın təbii deyil, özünün

doi.org/10.61764/lasr.3.2024.24-28

yaratdığı formada ifadə etməsinə səbəb olur. Beləliklə, mədəniyyətdə gözəllik həmişə genetik funksiyanı yerinə yetirir və davam etdirir – yaradıcılığı təşviq edir (2, s.12-13).

Esteik şüurun inkişafı cəmiyyətin sosial-iqisadi inkişaf səviəsindən birbaşa asılıdır. Estetik şüurun suverenliyi onun tərifi ilə birləşir. Tarixi şüur kimi, içindəki estetik keyfiyyətlərə görə sosial zamanın dinamik məkanında fəaliyyət göstərir (4, s.184).

**Estetik şüur sosial münasibətlərdə**

Cəmiyyətdəki mədəni inkişaf səviyyəsi mənəvi sferaya həlledici təsir göstərir. Buna misal olaraq tarixi məkanlara, mədəni obyektlərə insanların çıxışı üçün yaradılan şəraiti nəzərdə tuturuq. Vahid ziyarət kartlarının istifadəyə verilməsi, onlayn bilet satışı, bonus sisteminin olması və sair asanlaşdırıcı amillər əlçatanlığı artırır. Bu da öz növbəsində fərdlərə stimul verməklə onların sosial-mədəni fəallığını yüksəldir. Tərəddüd edən, vaxtı az olan insanlar belə imkanlardan yararlanırlar. Praktiki estetikanın maraq sferası (gündəlik estetika) - məişət sferasında, insan davranışı, elmi yaradıcılıq, idman, estetik ritualların, adətlərin, kütləvi tədbirlərin estetik mənimsənilməsidir (5, s.6).

Kütləvi mədəniyyətin təsiri nəticəsində fərdlərin estetik şüuru radikal şəkildə də dəyişə bilər ki, bu da tədricən cəmiyyətdəki mənəvi iqlimin dəyişməsinə səbəb olur. Proses qarşılıqlı təsir və əks təsir qaydası ilə baş verdiyi üçün estetik şüurun ictimai şüurdakı yeri və çəkisi də adekvat olaraq yenilənir.

İctimai rəyin əhəmiyyətli olduğu indiki mərhələdə estetik zövq bəzi hallarda məzmunu qabaqlayır. İnsanlar prezentabellik moduluna uyğun seçimlər edir, mahiyyətə bir o qədər əhəmiyyət vermirlər. Bu isə sosial münasibətlərin, onun bir hissəsi olan ictimai şüururn transformasiyasına gətirib çıxarır. İctimai rəydə müəyyən assosiasiyalar doğuran brend firmalar, transmilli şirkətlər, belə qəbildən olan digər strukturlar bu mənada fəal təsiredici gücə malikdirlər. Çevik bazar siyasəti ilə gündəmi zəbt edir, estetik ideallar yaradırlar.

Eyni zamanda qeyd edək ki, estetik şüur yalnız aktiv həyat tərzi ilə formalaşmır. Passiv formada da inikas fərdlərdə duyğular yaradaraq onlarda müvafiq qiymətləndirmə və əxz etmə doğurur. Bura ədəbiyyat mütaliəsi, müxtəlif süjetlərin izlənilməsi və sair daxildir.

Estetik şüurun öz yaranma mexanizmi də yeni keyfiyyət dəyişiklikləri doğurmaqla məzmun dəyişikliklərinə ehtiyac yaradır. Bu dinamik, zamanla ayaqlaşan bir fenomendir. İnsani ideallarıın inkişaf dinamikası bütövlükdə estetik təfəkkürün inkişaf dinamikasını müəyyən etmişdir, insani idealların hər bir tarixi tipi uyğun estetik təfəkkür tərzini formalaşdırmışdır, sosial idealların tarixi dinamikası estetik təfəkkürün bu və ya digər formasında əks olunmuşdur (1, s.135).

Onun məzmununa fərdin qrup mənsubiyyəti, ailə dəyərləri, yaşadığı ərazinin spesifikası təsir edir. Qrup mənsubiyyəti iki formada ola bilər: birincisi rəsmi qrup, digəri isə qeyri-rəsmi. Rəsmi qruplara iş kollektivləri, şagird, tələbə qrupları və sair, qeyri-rəsmi qruplara isə dostlar, qohumlar, qonşular və sair aid edilə bilər.

Belə qruplarda təmsil olunmaq insanın sosiallaşmasına, kollektiv formatda şüurunun formalaşmasına, eləcə də estetik zövqünün inkişafına səbəb olur. Ailə dəyərləri isə daha çox ənənələrə, imitasiyala əsaslanır. Burada valideynlər, böyük yaşlı ailə üzvləri müstəsna rol oynayır.

Yaşadığı ərazinin spesifikası dedikdə, ilk növbədə şəhər, kənd bölgüsü və bunlar daxililində diferensiallaşma nəzərdə tutulur. Məsələn, dağ rayonu sakinləri ilə aran zonası insanları arasında coğrafi xüsusiyyətlərdən irəli gələn yanaşma, qiymətləndirmə, zövq fərqləri danılmazdır. Bu mənada ərazidə qarışıq nikahlardan doğulanların olması, müxtəlif etnik qruplara mənsub insanların yaşaması mühüm rol oynaır. Belə ki, qarışıq mədəniyyət daşıyıcılarının bir mühtidə olması onların gündəlik şüuruna təsir eməkdədir. Bu faktor

doi.org/10.61764/lasr.3.2024.24-28

dəyərləndirmədə də şüuraltı kodlar yaradır. Estetik ideallar məhz bu şərtlərdə formalaşır və yeniliklər axtarışında olur.

Estetik ideallarin təşəkkülündə romantizmin də müstəsna rolu vardır. Romantizmin estetik bazasını bədii ideallaşdırma təşkil edir ki, bununla da romantik duyğular insanların daxili dünyasında sarsıntılar doğurmaqla onları mənəvi axtarışlara sövq edir. Romantik ədəbiyyat, rəsm nümunələri bu baxımdan mühüm rol oynayır. Bu cərəyana aid bədii mütaliə insanlarda personajların daxili aləmi ilə bağlı müəyyən assosiasiyalar yaradır. Belə personajların fəzilətləri subyektlərdə fərqli duyğular yaradır.

Söhbət gözəl, ülvi, ahəngdar, qəhrəman, kamil olandan gedəndə şüur istər-istəməz onları tamamilə dəyişməz, davamlı, əbədi bir şey kimi, birdəfəlik çevrilmiş ideal və prinsiplər sferası kimi qəbul etməyə çalışır, çünki hətta gündəlik həyatda belə biz tez-tez "solmayan gözəllik", "əbədi harmoniya", "yaşlanmayan şah əsərlər" və s. kimi ifadələr işlədirik (6, s.17-18).

**Postsənaye dövrü və estetik şüur**

Bəşəriyyət dördüncü sənaye inqilabı mərhələsində yaşayır. Bu mərhələdə insanın imkanları və istəkləri əvvəlki dövrlərdən ciddi şəkildə fərqlənir. Sosial şəbəkələrin məişət tərzini belə dəyişdiyi bu mərhələdə insanlar konservatizmdən uzaqlaşmaqdadırlar. Yeniliklər bir çox hallarda mahiyyətinə varılmadan qəbul olunur. Süni zəkanın daha çox tətbiq ounduğu 4-cü sənaye inqilabı mərhələsində estetik zövqlərin formalaşması prosesi fərqli şəkildə baş verir. İndi insanlar təsəvvüründə olanları texnoloji vasiələr ilə daha rahat əldə etmək imkanındadırlar. Müxəlif tətbiqlərdən isifadə olunmaqla əlverişli nümunələrin yaradıla bilinməsi estetik təxəyyülün miqyasını da genişləndirir.

Hazırda estetikanın başlıca kateqoriyaları olan gözəllik, nəciblik, ülvilik, komiklik və başqaları süni intelekt vasitəsilə obrazlaşdırıla və ya fərqli kaloritdə təqdim oluna bilər. Odur ki, müxtəlif sosial statusa malik insanlar öz zövqlərinə uyğun predmet və mənəvi nümunələrini sifariş edə, yaxud hazır maketlərdən istifadə edərək hazırlaya bilərlər. Buna indi daha az vaxt və resurs tələb olunduğu üçün əksəriyyət üçün daha əlçatan və cəlbedicidir. Estetik şüur postsənaye dövrünün belə imkanları müqabilində daha çox beynəlmiləl xislət alır.

Qlobal meyllər estetik şüurun milli ruhunu tədricən assimliyasiya etməkdədir. Bu qaçılmaz proses olub bütün cəmiyyətləri əhatə edir. Qlobalizmin mənfi təsirləri ictimai şüurun digər formaları kimi estetik şüura da sirayət edərək onu daha çox kosmopolit ruha daşıyır. Buna görə də ictimaiyyət estetik zövqü formalaşdıran milli faktorlara, maddi və mənəvi mədəniyyət nümunələrinə daha çox müraciət etməli, gənc nəslin tarixi irsə uyğun tərbiyə olunmasına çalışmalıdır.

Yalnız müvafiq dövlət strukturlarının hərəkətlililyi bu məsələnin tam və kompleks həllini təmin edə bilməz. İctimaiyyət, təhsil struktuları, media qurumları, ayrı-ayrı ziyalılar gənclərin estetik şüurunun formalaşmasında milli kaloritin dominantlığını təmin etməyə mənəvi borcludurlar.

**Nəticə**

Estetik şüurun formalaşması və fərdin həyatı boyu yenilənməsi sosial münasibətlərə inteqrasiyada mühüm yer tutur. Sosiallaşma prosesinin mərhələlərinə adekvat olaraq bu şüur forması ictimai şüurun digər formaları ilə qarşılıqlı surətdə fərdin cəmiyyətdəki sosial statusunun tamamlanmasında fəal rol oynayır. Onun fəal tərəfi postsənaye dövründə daha çox hiss olunur. Belə ki, bu dövr sürətli tranformasiyalar, sosial-iqtisadi münasibətlərin dinamik dəyişmələri ilə müşayət olunur. Odur ki, ictimai şüurun, onun forması olan estetik şüurun cəmiyyətin ümumi inkişaf meylləri ilə ayaqlaşması sosial münasibətləri keyfiyyətcə müsbət planda dəyişir.

doi.org/10.61764/lasr.3.2024.24-28

## ƏDƏBİYYAT

1. Əsədova N. Mənəvi-estetik dəyərlər: mahiyyəti, tarixi və bu günü. Bakı: QHT nəşriyyatı, 2017. – 160s.
2. Беспалова И.В. Основы эстетики: Учебно-методическое пособие. – Нижний Новгород, 2017. – 79 с.
1. 3.Бычков В. Маньковская Н. Энциклопедический поиск. Философская антропология. 2022. Т. 8. № 1. С. 158–187.
2. 4.Видгоф В.М. Философия эстетического сознания: интеллектуальноэмоциональный мир, социальная природа и специфика. − Томск: Изд-во Том. ун-та. − 356 с.
6. Давлятова. Е.В. Эстетика для всех специальностей I ступени высшего образования: учебно-методический комплекс по учебной дисциплине / сост. Е.В. Давлятова. – Витебск: ВГУ имени П.М. Машерова, 2021. – 44 с.
7. Титаренко. И.Н.Эстетика: Учебное пособие. – Таганрог: Изд-во ТРТУ, 2006. – 225 с.

**Рабил Мехтиев**

## ЭСТЕТИЧЕСКОЕ СОЗНАНИЕ В СИСТЕМЕ СОЦИАЛЬНЫХ ОТНОШЕНИЙ

***Резюме***

*В этой статье рассматривается эстетическое сознание в системе социальных отношений и его формирование напрямую обусловлено динамикой внутрисоциальных процессов. Изменяющиеся критерии общества подвергают трансформации содержание и формы проявления эстетического сознания, обновляя их. В этом контексте, как часть общественного сознания, эстетическое сознание взаимодействует с его другими формами, дополняя человеческое мировосприятие. В данном смысле эта форма сознания более гибкая и дифференцируется в соответствии с социальными ролями человека. Эстетическое сознание связано с эмоциональной стороной и психическим состоянием человека, и проявляется через оценку, становясь необходимым элементом познания.*

***Цель*** – исследовать обновление содержания эстетического сознания в контексте динамических изменений в социальных отношениях.

***Методология*** – используя методы анализа и синтеза, исследуется обусловленность эстетического сознания социальными отношениями.

***Результаты исследования*** – эстетическое сознание рассматривается в контексте социальных отношений, анализируется их диалектическая взаимосвязь.

***Ключевые слова*** *– эстетическое сознание, социальные отношения, эстетическая деятельность, эстетическая красота, эстетические идеалы*

**Rabil Mehtiyev**

## AESTHETIC CONSCIOUSNESS IN THE SYSTEM OF SOCIAL RELATIONS

***Summary***

*This article examines aesthetic consciousness in the system of social relations and its formation is directly conditioned by the dynamics of intra-social processes. Changing criteria of society subject the content and forms of manifestation of aesthetic consciousness to transformation, updating them. In this context, as part of social consciousness, aesthetic consciousness interacts with its other forms, complementing the human worldview. In this sense, this form of consciousness is more flexible and is differentiated according to the social roles of man. Aesthetic consciousness*

*is related to the emotional side and mental state of man, and manifests itself through evaluation, becoming a necessary element of cognition.*

***Objective*** – to investigate the renewal of the content of aesthetic consciousness in the context of dynamic changes in social relations.

***Methodology*** – using the methods of analysis and synthesis, the conditioning of aesthetic consciousness by social relations is investigated.

***Research Results*** – aesthetic consciousness is considered in the context of social relations, their dialectical relationship is analysed.

***Keywords*** – *aesthetic consciousness, social relations, aesthetic activity, aesthetic beauty, aesthetic ideals*

doi.org/10.61764/lasr.3.2024.29-35

**UOT 101**

**Gülnaz Mədədli**
*AMEA Fəlsəfə və Sosiologya İnstitutu, doktorant*
*gmadadli@yahoo.com*
*ORCİD:0000-0003-2519-537X*

# MÜASİR ALİ TƏHSİLİN SOSİAL PROBLEMLƏRİ

*Məqalədə müasir cəmiyyətdə ali təhsilin ən mühüm sosial problemləri və meylləri araşdırılır, müasir mütəxəssis modeli, təhsilin keyfiyyətinin qiymətləndirilməsi üçün sosioloji metodologiya təklif olunur. Qloballaşan dünya kontekstində təhsil sektorunun fəaliyyətinin və islahatlarının tədqiqindən çıxarılan bir sıra nəticələr təqdim olunur. Yeni təhsil layihələrinin yaradılması və ya mövcud islahatların aparılmasının şərtlərini, ehtiyaclarını və yollarını araşdırmış, istənilən təhsil layihələrinin ictimai-siyasi və iqtisadi kontekstdə şərtliliyinin sosial problemləri araşdırılır.*

***Açar sözlər:*** *müasir mütəxəssis, təhsilin keyfiyyəti, səriştələr, ali təhsilin tədqiqat metodologiyası*

## Giriş

Təhsil sistemi sosial institutlardan biri olduğu üçün onun inkişafı elmi-texniki və sosial tərəqqinin mahiyyəti və nailiyyətləri ilə müəyyən edilən cəmiyyətin tələbatının dəyişməsi ilə tamamilə əvvəlcədən müəyyən edilir. Müasir ictimai inkişafın dinamikası insan həyatının və fəaliyyətinin bütün sahələrində – elm və texnikada, iqtisadiyyat və siyasətdə, təhsil və mədəniyyətdə, istehsalın təşkilində və onun idarə edilməsində sürətli və dərin dəyişikliklərlə səciyyələnir. Ən mühüm sosial institutlardan biri kimi təhsil həm də cəmiyyətin dəyişən məqsəd və tələblərinə uyğun olaraq, yüksək texnologiyaların işlənib hazırlanması və tətbiqi ilə daim inkişaf etdirilir. Eyni zamanda, təhsil sistemlərinin zamanın ictimai çağırışlarına reaksiyası avtomatik yox, dolayı yolla, ictimai rəyin formalaşması prosesində, müəllimlərin, ictimai və dövlət məmurlarının fəaliyyətində müəyyən ətalətlə səciyyələnir.

Cəmiyyətin postindustrial mədəniyyətə daxil olması, xüsusən də informasiya və koqnitiv texnologiyaların tətbiqi təhsil sistemlərinin sürətli inkişafına səbəb olur. Təhsilin, o cümlədən onun bütün pillələrinin: məktəbəqədər, məktəb, orta ixtisas və ali təhsilin fəaliyyəti üçün yeni şərait yaradılır.

Belə inkişafın əsas mexanizmi keçmiş nəsillərin mədəni təcrübəsinin uyğunlaşdırılması, sistemləşdirilməsi, yaradıcılıqla işlənməsi və mütəşəkkil mənimsənilməsi prosesləri üzərində qurulmuş ali təhsil sistemidir. İqtisadiyyatın və cəmiyyətin müasir transformasiyası istər-istəməz müxtəlif fəaliyyət sahələrində, o cümlədən təhsil kimi konservativ sahələrdə dəyişikliklərə səbəb olur [8, s.252]. İqtisadi sabitlik, vətəndaşların sosial rifahı, dövlətin xarici siyasətdəki statusu - bütün bunlar bilavasitə təhsilin inkişaf səviyyəsindən asılıdır. Bu, ölkəmizdə ali təhsilin inkişafını ən yüksək prioritetlər sırasına qoyur.

Sosial-iqtisadi idarəetmənin bazar mexanizmlərindən istifadə cəmiyyətin yeni şəraitinə tez uyğunlaşmağa imkan verən həm peşə, həm də sosial keyfiyyətlərə malik olmalı, eyni zamanda sosial fəallığını qoruyan ali təhsilli mütəxəssisin modelləşdirilməsi zərurətinə gətirib çıxarır. Hər bir universitetin konkret peşə yönümlü mütəxəssis modelinin formalaşmasında öz xüsusiyyətləri vardır.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu dövlət orqanlarının təməl təhsil proqramlarının məzmunu, tədris yükünün maksimum miqdarı və məzunların hazırlıq

səviyyəsinə olan tələblərin minimum səviyyədə qurulması nəzərdə tutulur [5].

**Müasir şəraitdə mütəxəssis modelinin inkişafı**

Müasir şəraitdə mütəxəssis modelinin inkişafı üç istiqamətdə aparılmalıdır:

1) ali təhsil və əmək bazarı arasında əlaqənin təhlili;

2) müasir cəmiyyətdə mütəxəssisin yeri və rolunun öyrənilməsi (mütəxəssis həm peşəkar, həm də fərd kimi);

3) universitetin mütəxəssis hazırlığı sistemi kimi öyrənilməsi.

Bu mqdellər tələbə şəxsiyyətinin uyğunlaşma xüsusiyyətlərinin xarakterini, habelə müvafiq təsir edən amilləri aşkar edən əsas sosial problemləri müəyyən etməyə imkan verir. Bu baxımdan aşağıdakı problem sahələri xüsusi əhəmiyyət kəsb edir.

- Qeyri-sabit mühitdə müasir gənclərin ali təhsilə münasibəti. Bir iş adamının dəyərləri sosial-peşəkar fəaliyyət sahəsində, onun sosial-iqtisadi və sosial-mədəni statusunda necə dəyişir? Bu dəyişikliklərin mənəvi əsası nədir?

- İşçi qüvvəsinin ixtisasları üçün əmək bazarının tələbləri. Müasir dünya praktikası bu tələblərin polaritesini qeyd edir. Əmək bazarının bir hissəsi ixtisassız əməyə, digər hissəsi isə yüksək ixtisaslı əməyə yönəlir. Əmək bazarında bu tələblərin inkişaf tendensiyaları hansılardır?

- Əmək bazarında Dövlət və özəl ali təhsil müəssisələri arasında qarşılıqlı əlaqə. İşəgötürən və istehsalçı kimi ali məktəb. Hər bir mövqenin dəyərləri nədir?

- Ali təhsilin mövcud şəraitində yaşamaq qabiliyyəti və imkanı. Onun uyğunlaşma qabiliyyətləri nələrdir? Onun gücü (xüsusilə elmi və peşəkar-pedaqoji) nədir? Ali təhsil bazara (bütün növ bazarlara) fəal təsir göstərə bilirmi?

- Sosial təbiətin dəyişməsi ali təhsil sistemində gərginlik. Sürətlə dəyişən xarici mühitdə təşkilatın bu xüsusiyyəti ağırlaşa və ali təhsil üçün qeyri-adi formalar ala bilər. Bu əmlakın məzmunu və mahiyyəti nədir? Ən aktiv şəkildə özünü harada göstərə bilər? Hansı struktur elementlər onun təsirinə daha çox həssasdır? Bu fenomenin müsbət və mənfi nəticələri nələrdir?

Ümumi problemlərin formalaşdırılmasından daha konkret, yerli problemlərin həllinə ehtiyac yaranır. Yeni sosial münasibətlərə keçid şəraitində (qlobal böhran proseslərinin nəticəsi kimi) ali təhsilin məqsəd və vəzifələri əhəmiyyətli dərəcədə dəyişir. İstənilən təşkilata gəlincə, universitet üçün əsas məqsəd daim dəyişən mühitdə, yəni daimi risk şəraitində yaşamaqdır. Onun fəaliyyətinin planlaşdırılmasında və təşkilində yeni problemlər yaranır. Bunlardan: universitetin ixtisasının əmək bazarının tələblərinə uyğunluğu; kadrların seçilməsi və yerləşdirilməsi (müəllimlərin və tələbələrin fəaliyyətinin xarakteri arasında əlaqə, onların əməyinin real qiymətləndirilməsi); elmi məktəblərin inkişafı və onların fəaliyyətinin nəticələrinin xalq təsərrüfatında və tədris prosesində tətbiqi; təhsil prosesinin optimal strukturunun yaradılması (düz və ya çoxsəviyyəli, ixtisaslaşdırılmış və ya fənlərarası, fərdi və ya qrup); müəllimlərin, tələbələrin, abituriyentlərin və idarə heyətinin motivasiyasının yaxşılaşdırılması və fəaliyyətinin stimullaşdırılması; yüksəkixtisaslı mütəxəssislərin hazırlanması sistemi və bilikləri istehlak edən və yeni biliklər yaradan müstəqil sistem kimi universitetin fəaliyyətinə nəzarətin yeni formalarının təşkili. Onlardan bəzilərini daha ətraflı araşdıraq.

Universitetlə əmək bazarı arasında qarşılıqlı əlaqə probleminə gəlincə, burada ali təhsilin ikili rolu aydın görünür. Bu ikililik ondan irəli gəlir ki, universitet fəaliyyət göstərir, bir tərəfdən, mütəxəssislər hazırlayan əmtəə istehsalçısı kimi, digər tərəfdən müəllim və tələbələri işlə təmin edən işəgötürən kimi.

Təhsil sahəsində yeniliklər istehsal və idarəetmə texnologiyalarına bölünür. İstehsalın texnoloji yenilikləri (yeni texnologiyalar), pedaqoji cəhətdən yeni tədris və öyrənmə metodlarını əhatə edir. İdarəetmə yeniliklərinin strukturuna iqtisadi yeniliklər (təhsil sahəsində

doi.org/10.61764/lasr.3.2024.29-35

yeni iqtisadi mexanizmlər) və təşkilati yeniliklər (təhsil sahəsində yeni təşkilati strukturlar və institusional formalar) daxildir [4, s.113].

Bazar münasibətlərinin mahiyyətindən çıxış edərək, təşkilat (universitet) üçün əsas məsələ işçini iş yerinə uyğun seçməkdir (iş yeri işçi axtarır, “insan yer rəngləyir” yox). Bazar mütəxəssisdən peşəkar və işgüzar keyfiyyətlərə malik olmağı tələb edir, onun şəxsi keyfiyyətləri müşaiyətçi olur və müəyyənedici olmur. Beləliklə, mütəxəssisin seçimi funksional xarakter daşıyır.

Bu gün aşağıdakıları nəzərə almaq lazımdır: yaşamaq üçün ali təhsil nəinki əmək bazarındakı dəyişikliklərə tez reaksiya verməli, həm də bu bazarın özünə fəal təsir göstərməli, yəni yeni biliklər yaratmalı və yeni biliklərə malik mütəxəssislər hazırlamalıdır.

Hər bir təşkilat kimi, ali məktəb də cəmiyyət və onu əhatə edən sosial sistemlər, həmçinin öz işçiləri və tələbələri, abituriyentləri və məzunları qarşısında müəyyən sosial məsuliyyət daşıyır.

Belə ki, müasir şəraitdə ali təhsildən həm uzunmüddətli perspektivdə, həm də konkret zaman nöqtəsində məqsədlərin müəyyən edilməsində, təşkilatın optimal strukturunun (təhsil prosesi, kurikulum və s.) seçilməsində, rasional seçimində çeviklik və aydınlıq tələb olunur [2, s.391].

Bu problemlərin təhlili bizə ali təhsildə mütəxəssis hazırlığının keyfiyyətlərinin öyrənilməsi modelinin formalaşa biləcəyi göstəriciləri müəyyən etməyə imkan verir. Təhsilin keyfiyyətinin, tələbənin, məzunun və müəllimin şəxsiyyətinin qiymətləndirilməsi üçün sosioloji meyarları özündə əks etdirən aşağıdakı strategiyalar təklif olunur.

**I. Təhsil münasibətlərinin subyektləri** (tələbələr, müəllimlər, məzunlar, işəgötürənlər) üzrə təhsilin metodikasının və keyfiyyətinin qiymətləndirilməsi.

Tədris metodlarının qiymətləndirilməsi (fənlərin dövrlərinə görə): mühazirə kursunun məntiqi, mühazirə kursunun əsas müddəaları, materialın həcmi, təqdimat tempi, mühazirə materialına maraq və anlayış, xarakter materialın təqdimatı, mühazirə materialının səriştə əsaslı yanaşma tələblərinə uyğunluğu, mühazirə materialının və praktiki (laboratoriya, seminar) məşğələlərinin ardıcıllığı, kurrikuluma uyğun olaraq tələbələrin müstəqil işlərinin həcmi və xarakteri, tələbələrin nəzəri-metodiki hazırlığının təcrübənin məzmununa və həcminə (tədris, istehsalat, texnoloji, diplom), məsləhətçilik fəaliyyətinə uyğunluğu.

Tədrisin keyfiyyətinin qiymətləndirilməsi (fənlərin tsikllərinə uyğun olaraq): fənnin nəzəri və metodoloji əsaslandırılması, problemlərin aktuallığı, müasir elmin bu sahədə nailiyyətlərindən istifadə, tədrisin mahiyyəti, mövzunun mübahisəliliyi, ixtisas və digər bilik sahələri ilə əlaqəsi.

Tədris prosesinin maddi-texniki bazasının qiymətləndirilməsi: kitabxana fondu, sinif otaqlarının, texniki laboratoriya vasitələrinin kompüterləşdirilməsi, sanitar-gigiyenik şərait və s.

Müəllimin şəxsi keyfiyyətlərinin qiymətləndirilməsi: peşəkar, işgüzar, mədəni, mənəvi, sosial-psixoloji, psixomorfoloji keyfiyyətlər, dil mədəniyyəti, tədris olunan mövzuya elmi töhfə.

Tələbənin şəxsi keyfiyyətlərinin qiymətləndirilməsi: fəal həyat mövqeyi, elmi və humanist dünyagörüşü; milli iqtisadiyyatın, texnikanın və elmin seçilmiş sahələrində peşəkar bilik və müstəqil iş bacarıqları; işə yaradıcı münasibət, biliyi təkmilləşdirmək bacarığı, ixtisasını artırmaq istəyi; təşkilatçılıq və idarəetmə bacarıqları; əxlaqi və iradi keyfiyyətlər, kollektivizm; mənəvi mədəniyyət.

Mütəxəssisin keyfiyyətlərinin qiymətləndirilməsi: hazırlığın səviyyəsi və keyfiyyəti, iş yerinin tələblərinə uyğunluq (səriştə göstəriciləri); peşəkar artım; şəxsi keyfiyyətlər.

doi.org/10.61764/lasr.3.2024.29-35

**II. Tədris prosesindən və tədris prosesinin subyektlərinin** - tələbələrin, müəllimlərin, məzunların peşə hazırlığının xarakterindən məmnunluq səviyyəsi (müsbət cəhətlərin öyrənilməsi, narazılıq səbəbləri):

■ tədris prosesinin tədris-metodiki təminatından məmnunluq;

■ təlimin keyfiyyətindən məmnunluq;

■ tədris prosesinin təşkilindən məmnunluq.

III. Tələbə təhsil prosesinin obyekti və subyekti kimi:

■ təhsil fəaliyyəti: universitet proqramına hazırlıq, akademik göstəricilərin xarakteri və səviyyəsi, təhsil prosesinə cəlb olunma xarakteri və dərəcəsi, kurrikulumun mənimsənilmə səviyyəsi, informasiya mədəniyyəti;

■ tədris prosesinin təşkilinə münasibət;

■ tədqiqat fəaliyyəti;

■ sinifdənkənar fəaliyyətlər (müstəqil işə münasibət, tədris prosesinin təşkilinin məsləhət formalarından istifadə və s.);

■ asudə vaxt;

■ ixtisasa münasibət, motivlər, ixtisas, universitet, təhsil forması, ixtisas növü və ixtisas seçimi;

■ şəxsiyyət strukturu (ehtiyaclar, münasibətlər, maraqlar, dəyərlər, bazara şifahi və davranışsal uyğunlaşma, gözləntilər və onların həyata keçirilmə səviyyəsi);

■ sosial mobilliyin səviyyəsi və xarakteri;

■ universitetdə və təşkilatda ictimai-siyasi fəaliyyətdə iştirak (iştirak faktı; iştirakın müntəzəmliyi; ictimai-siyasi fəaliyyətin xarakteri və məzmunu; ictimai-siyasi fəaliyyət bacarıqlarına yiyələnmə dərəcəsi);

■ mədəniyyət sahəsində fəaliyyətin xüsusiyyətləri (mədəni informasiyanın istehlakının intensivliyi; mədəni informasiyanın istehlakında seçicilik və diqqət; mədəni yaradıcılıqda iştirakın xarakteri; universitetdə əldə edilmiş ümumi mədəni xarakterli bilik və bacarıqlar; hansı dərəcə universitetdə davamlı özünütəhsil ehtiyacı və bacarıqları formalaşır).

**IV. Mütəxəssis əmək fəaliyyətinin obyekti və subyekti kimi-**universitetdə təhsil hazırlığının səviyyəsi: təlim prosesi zamanı əldə edilmiş biliklər (dövrlərinə uyğun olaraq); təlim prosesi zamanı əldə edilmiş bacarıq və bacarıqlar; universitetdə akademik performans; təlimin peşə fəaliyyətinin xarakterinə uyğunluğu (tələbə ixtisası); bilikləri əldə etmək və mənimsəmək üçün müstəqil işləmək bacarıq və qabiliyyətlərin əldə edilməsi.

*e-mail: mirze.poladov@list.ru*

# ƏMƏK MÜNASİBƏTLƏRİNİN TƏNZİMLƏNMƏSİNDƏ İNSAN RESURSLARI STRATEGİYALARI İLƏ ŞİRKƏT RƏQABƏT STRATEGİYALARI ARASINDA ƏLAQƏ


### *Xülasə*

*Araşdırma, İR tətbiqlərinin stratejilərlə uyğunluğunun performans üzərindəki müsbət təsirinə və sıx uyğunluqla minimal uyğunluğun daha yaxşı performansla nəticələndiyini vurğulayır. Eyni zamanda, menecerlərin strateji İR idarəçiliyinə daha çox meyl göstərmələri lazım olduğunu qeyd edir.*

*Strateji insan resursları idarəçiliyinin inkişaf etməkdə olan Azərbaycada həyata keçirilən tədqiqat metodologiya, strateji uyğunluq dinamikalarının konseptualizasiyası, nümunənin keyfiyyəti və Qərb mənşəli olmaması baxımından əvvəlki tədqiqatlardan fərqlənir. Tədqiqatda əlavə analizlər çərçivəsində təşkilati əmək münasibətlərinin müəssisələrin qəbul etdiyi müxtəlif strategiyalara görə əhəmiyyətli fərqin olub-olmadığı da araşdırılmışdır. Əməkdaş münasibətləri performansının müxtəlif strategiyalara görə əhəmiyyətli fərq göstərdiyini ortaya qoyur. Həmçinin, müdafiəedici, öncül və analitik strategiyaların önə çıxdığı bazar performansı, məhsul xidmət performansı və əməkdaşlar münasibətləri performansı üzərində müsbət və əhəmiyyətli təsirlərə sahib olduğu müəyyən edilmişdir. Ümumilikdə, nəticələr İR tətbiqləri ilə uyğunluq təşkil edən strategiyaların performans üzərində müsbət bir təsir göstərə biləcəyini ortaya qoyur.*

***Məqsəd*** – müəssisələr varlıqlarını davam etdirmək, rəqiblərinə qarşı müsbət üstünlük əldə etmək, sektor ortalamasının üstündə gəlir təmin etmək və bütün bu üstünlükləri davamlı hala gətirmək üçün insan resursları (İR) strategiyaları və tətbiqlərinə gündən-günə daha çox diqqət yetirirlər. Ancaq dəyişikliklərin və qeyri-müəyyənliyin hakim olduğu bir fəaliyyət mühitində, insan resursları idarəçiliyi (İRİE) funksiyaları və tətbiqlərinin tam yerinə yetirilməsi, müəssisələrin hədəflədikləri rəqabət üstünlüyünə çatmalarında həmişə kifayət etmir. Bu çatışmazlıq, müəssisələrin məqsədlərinə nail olmasında İR ilə strategiya və tətbiqləri birləşdirən, İR-yə strateji bir rol verərək insan varlığının idarə olunmasını təmin edən strateji İRİE disiplinini ön plana çıxarmışdır.

***Metodologiya*** – tədqiqatda pozitivist sosial elmlər anlayışının bir nəticəsi olaraq kvant tədqiqat metodologiyası istifadə olunmuşdur. Ədəbiyyatın incələnməsindən məlumatların toplanmasına, analiz və şərh edilməsinə qədər kvant tədqiqat metodları yanaşmaları mənimsənilmişdir. Bu istiqamətdə tədqiqat mövzusu, tədqiqat məqsədi, tədqiqatın əhəmiyyəti, tədqiqatın problem cümlələrinin yaradılması, ədəbiyyatın tədqiqi, konseptual çərçivənin çizilməsi, məlumat toplama texnikasının müəyyənləşdirilməsi, məlumatların toplanması, qiymətləndirilməsi, ölçülməsi, analizi, nəticə və müzakirənin yazılması mərhələləri hiyerarik bir addım-addım prosesi çərçivəsində həyata keçirilərək tamamlanmışdır.

***Elmi yenilik*** – tədqiqatda irəli sürülən mövzu günümüzdə çox əhəmiyyət kəsb edir. Belə ki, şirktin qarşısına qoyduğu strategiyalara çatmaq üçün struktur bölmələrin strateji hədəflərini şirkətin strateji hədəflərinə inteqrasiya etmələri çox önəmlidir.


***Açar sözlər:*** *idarəetmə, insan resursları, əmək münasibətləri, strategiyalar, strateji uyğunluq, təşkilat, performans, şirkət ölçüsü*

doi.org/10.61764/lasr.3.2024.78-84

**Giriş**

Qloballaşmanın rəqabəti daim artırdığı bir mühitdə, müəssisələrin ayaqda qala bilməsi və problemlərlə mübarizə apara bilməsi üçün strateji idarəetmə ilə İR-nin eyni əsasda birləşdirilməsi qaçınılmaz hala gəlmişdir. Strateji İR-nin tərifi də bu qaçınılmazlığa işarə edir. Strateji İR, qəbul edilən müəssisə strategiyalarının həyata keçirilməsində, tələblərin müəyyən edilməsi və strategiyaların tətbiqi mərhələlərində çalışanların rasyonel və sistematik idarə edilməsini ifadə edən bir yanaşmadır. Strateji İR şirkət strategiyalarını İR strategiyaları ilə birləşdirir və daha əvvəl də qeyd edildiyi kimi insan varlığını, davamlı rəqabət üstünlüyünün təmin olunmasında strateji bir resurs kimi qəbul edir. Strateji İR-nin önə çıxan məqsədlərindən biri, müvafiq strategiyalar arasında uyğunluğun təmin edilməsinə bağlıdır. İR strategiyaları ilə şirkət strategiyaları arasında uyğunluğun təmin edilməsi və İR strategiyalarının öz aralarında bütövlük əldə etməsi, strateji İK-nın əsas fokusudur.

**Strategiya bir anlayış kimi**

Strateji anlayışı, Qədim Yunan dilindəki "strategos" məfhumundan törəmişdir. "Stratos" sözü (ordu) və "agein" (liderlik etmək) kəlimələrinin birləşməsindən ibarət olan bu kəlimə, qədim Atina tituludur və Atina ordusunun ən yüksək rütbəli komandiri olan generalı ifadə edir. Strateji anlayışı, müəssisə idarəçiliyində yerini alana qədər hərbi terminlər vasitəsilə modelləşdirilərək düşünülmüşdür. Nəticədə, strateji kimi mürəkkəb bir anlayışla başa çıxmağın ənənəvi yolu onun metaforlar kontekstində konseptualizasiyasıdır. Bu dövrdə böyük müəssisələrdə strateji planlama ilə bağlı heyətlər yaradılmış və strateji planlama prosesləri həyata keçirilmişdir. Strateji, ilk dəfə işin digər elementləri kimi idarə edilə bilən bir iş prosesi halına gəlmişdir [2].

Miles və Snow, 1970-ci illərin əvvəlində çoxsaylı müəssisələrin strateji davranış növlərini araşdırmaq məqsədilə apardıqları tədqiqatlarda, müəssisələrin rəqabətçi yanaşmaları nəticəsində sərgilədikləri strateji davranışların, hər sektorda görünən bir neçə əsas iş strategiyası ətrafında cəmləşdiyini müəyyən etmişlər. Tədqiqatçılar, müəssisələrin fəaliyyət göstərdikləri məhsul bazar sahələrində yaşanan mürəkkəblik, dinamiklik və dalğalanmalar nəticəsində idarəçiliyin, davamlı olaraq həll yolu tapmalı olduğu üç əsas problem ilə üzləşdiyini və müəssisələrin strateji davranış növlərinin bu üç problem altında təsnif olunduğunu ortaya qoymuşlar [21].

İş stratejisi olaraq müdafiəedici stratejini mənimsəyən bir müəssisənin, fəaliyyət göstərdiyi sektorda müvəffəqiyyət əldə etməsi, məhsul və bazar sahəsində öne çıxmasına və bu bacarığını davamlı hala gətirməsinə bağlıdır. Müdafiəedici müəssisə, bu bacarığını məhsul və bazar sahəsində aqressiv (saldırgan) davranışlar sərgiləyərək qazanmağa çalışır.

Rəqiblərinin, hal-hazırda dar və məhdud olan bazar sahələrinə girmə riskinin hər zaman mövcud olması, müdafiəedici müəssisəni bu bazarda aqressiv davranmağa yönləndirməkdə və çox vaxt məcbur etməkdədir. Müdafiəedicinin məhsul və bazar sahəsindəki aqressiv davranışları, adətən müəssisənin texnoloji səmərəlilik əldə etməsinə yönəldilmiş intensiv və davamlı səylərdə görünür. Buna görə də, texnoloji səmərəliliyin təmin edilməsi və davamlı hala gətirilməsi müdafiəedici müəssisələrin əsas hədəflərindən biri kimi ifadə oluna bilər.

Texnoloji səmərəliliyin əldə edilməsi məqsədinin yanında, müdafiəedici müəssisələrdə, ümumi müəssisə xərclərinin ən aşağı səviyyədə saxlanması da əsas hədəflərdən biri kimi göstərilir. İstehsal və paylama xərclərini minimum səviyyədə saxlamağa fokuslanan müdafiəedici müəssisə, eyni zamanda məhsul və xidmətlərinin keyfiyyətini qorumağa və ya yaxşılaşdırmağa da diqqət yetirir, bu məsələdə güzəştə getməməyə çalışır. Buna görə də, müdafiəedici müəssisələrin hədəf bazarlarına təqdim etdikləri məhsul və xidmətlərin qiymət və keyfiyyətləri baxımından olduqca rəqabətli olduğu söylənə bilər [7]. Müdafiəedici müəssisələrin girişimsel problemləri, sabit bir məhsul çeşidi və hədəf bazar yaratmaq üçün

ümumi bazarın effektiv bir ya da bir neçə hissəsini hədəfləmələri ilə bağlıdır. Miles və Snow (1978), müdafiəedici müəssisələrin girişimsel problemlərinə yönəlik beş fərqli həll yolu inkişaf etdirmişlər. Bu həll yolları aşağıdakı kimi ifadə olunmuşdur (Miles və Snow, 1978):

- Dar və sabit bir məhsul və bazar sahəsi
- Dar və sabit məhsul və bazar sahəsində hakimiyyət qazanmaq üçün aqressiv mövqe və davranışlar sərgiləmək (məsələn, rəqabətli qiymətləndirmə, müştəri məmnuniyyətinin təmin edilməsi və s.)
- Təsir sahəsindən kənarda baş verən dəyişiklikləri göz ardı etmə meyli
- Mövcud bazara dərindən nüfuz etmə yolu ilə ehtiyatlı, yavaş və mərhələli böyümə
- Mövcud məhsullarla yaxından əlaqəli və ya mövcud məhsul xəttinin uzantısı olaraq məhsul inkişaf etdirmə.

**Müəssisələrin yüksək texnologiyalı və xidmət əsaslı irəliləyişində menecerlərin insan resursları idarəçiliyində rolu**

Müəssisələrin istehsal proseslərini tək bir əsas texnologiyaya inteqrasiya etmələri mümkün olmur. Mövcud məhsulların inkişaf etdirilməsi və yeni məhsulların istehsalı üçün çoxsaylı texnoloji struktura ehtiyac var. Buna görə də, məhdud qarşılıqlı asılılıqla fəaliyyət göstərən bir neçə texnologiyanın mövcudluğu söz konusudur. Əvvəlki başlıqda müzakirə olunan müdafiəedici müəssisələr, texnoloji strukturdakı stabilliyi standartlaşdırma, mexanizasiya və şaquli inteqrasiya kimi struktural tamponlar vasitəsilə qorumağa çalışırlar. Öncü müəssisələr isə yüksək səviyyədə kompetensiyalara malik, hansı hallarda hansı bilik və bacarıqların istifadə edilməli olduğunu düşünə bilən şəxsləri işə götürərək texnoloji çevikliyi davam etdirirlər. Texnoloji strukturu quran və idarə edən işçilər öncü müəssisələr üçün əvəzolunmazdır. Buna görə də, öncü müəssisələrin texnoloji struktur və prosesləri, rutin və ya mexaniki əməliyyatlara deyil, bacarıqlı işçilərə bağlıdır. Müəssisələrin yüksək texnologiyalı və xidmət əsaslı bir iqtisadiyyatın mürəkkəb, dəyişkən və bilinməz dünyasına doğru irəlilədikcə, menecerlərin insan resursları idarəçiliyinin üzərinə düşən rolun əhəmiyyətini qəbul etməyə başlamalarıdır. İnsan resursları idarəçiliyinin əhəmiyyətinə dair edilən vurğunun davamı olaraq, İR peşəkarları müəssisələrin uzunmüddətli tələblərinin yerinə yetirilməsində strateji iş planlaması prosesinə qatılmağı zəruri hesab edirlər. İR peşəkarları bu istiqamətdə strateji planlamanın dilini, metodlarını və texnikalarını öyrənməyə, insan resursları sahəsində strateji düşüncəni təşviq etmək üçün daha proaktiv bir mövqe tutmağa və kadr idarəçiliyinin ənənəvi fəaliyyətlərindən ibarət olan funksiyasını sərhədlərinin çox ötesinə genişləndirməyə başlamışlar [19].

Fonksional ya da funksiyalara əsaslanan təşkilat strukturu, məhdud sayda böyümə göstərən bazara, yüksək həcimli və standartlaşdırılmış məhsullar təqdim etmənin uyğun maliyyətli və gəlirli bir yol olduğunu sübut etmişdir. Fonksional bölmələrə gedən bu müəssisələr, ixtisaslaşmanı təşviq etmişlər. İdarəetmə hiyerarşisinin zirvəsində isə sistemi bütövlükdə qiymətləndirmək üçün lazım olan koordinasiyanı təmin edə biləcək səviyyədə bilgi və ixtisas mövcuddur. Məhsul xətlərini genişləndirmək üçün maliyyə resurslarına və lazım olan texnologiyalara sahib olan müəssisələr, ard-arda inkişaf edən hər bir məhsul və bazar yeniliyinin fonksional struktura daxilində idarə edilməsində çətinliklərlə qarşılaşmağa başlamışdır. Bu çətinliklər, çeşidlilik yönündəki cəhdləri düşündürməyə başlamışdır. Zamanla, çeşidlilik cəhdləri müəssisələrdə menecerlərin müəyyən qərarlar üzərindəki nəzarətlərini itirmələrinə səbəb olmuşdur. Çeşidlilik ehtiyacının mövcudluğu fonksional strukturdakı bu strategiyanın bütöv struktur üzərindəki nəzarətin zəifləməsinə ya da itirilməsinə, strukturun məhsul ya da coğrafi/bölgesel bölmələrə ayrılmasına və məhsul qrupları ya da bölgələrdən məsul yüksək səviyyəli menecerlərin ayrılmasına yol açmışdır [12].

doi.org/10.61764/lasr.3.2024.78-84

Çalışanlara həm fərdi, həm də komanda olaraq istifadə olunan alətlər, çıxış miqdarı, sürəti və keyfiyyəti kimi mövzularda məsuliyyətlər yüklenir. Bu təşkilatlarda liderlik, ənənəvi menecer olaraq ifadə olunsa da, iş axını, iş dizaynı, məsuliyyət, nəzarət və s. mövzularda daha müasir sayılacaq məsələlərlə uyğunluq içərisindədir. Müdafiəçi olaraq araşdırılan Lincoln elektrik şirkəti, öz-özünə böyümə meyli göstərir. İstehsal sistemi yalandır. İşçilərdə şəxsi inkişaf uzun müddətdə təmin oluna bilsə də, inkişaf terfi ilə mükafatlandırılır. İnsan resursları departamentinin təşkilat içərisindəki rolu açıq şəkildə göstərilir. Belə ki, insan resursları, işə alma və seçim, yerləşdirmə, qiymətləndirmə, təlim kimi məsələlərlə yanaşı, iş dizaynı ilə təşviq sistemi arasındakı uyğunluğun izləyicisi və dəstəkçisidir [16].

Sürekli böyüyən bir sənayenin sürətli dəyişim və inkişafına ayaq uydurabilən bir şirkətdir. Davamlı olaraq yeni fikirlər inkişaf etdirir və bunları məhsullara yansıtdırır. Şirkətin özünəməxsus bir dizaynı və texnoloji baxımdan bir çox üstünlükləri mövcuddur. Yeni məhsul inkişaf etdirmə və dizayn, müxtəlif texnologiyaların istifadəsi, sürətli və davamlı böyümə hədəfi ilə xarakterizə olunan öncü təşkilatda, insan resursları departamenti müdafiəçilərə nisbətən çox fərqli fəaliyyətlər və prioritetlər üzərinə götürür. Həm departament, həm də korporativ səviyyədə insan resursları bölməsi davamlı olaraq yeni qruplar yaradılması, idarəetmə, texniki kadr mənbələrinin tapılması və paylanması vəzifəsini daşıyır. Bacarıqlı şəxslərə həm təşkilat daxilində, həm də təşkilat xaricində çatmağa çalışılır. İnsan resursları departamentinin eyni zamanda öncü təşkilatlarda təşəbbüskar kimi xarakterizə edilə bilən bir xüsusiyyəti də var. Bu istiqamətdə əhəmiyyətli bacarıqların əldə edilməsinə və təşkilati məqsədlər istiqamətində inkişaf etdirilməsinə xidmət edir.

Bir müəssisənin strategiyasının xarici mühitlə uyğun olduğu halda, təşkilati performansının iş strategiyasının xarici mühitlə uyğun olmadığı vəziyyətlə müqayisədə daha yüksək olacağı proqnozlaşdırılır. Ancaq araşdırmaçılar. İş strategiyası ilə xarici mühit arasındakı uyumun performansın yaxşılaşdırılmasında yalnız bir addım olduğunu və performansın birbaşa təsirini təmin etməyəcəyini ifadə ediblər [11].

**Nəticə**

Strateji və əmək münasibətləri əlaqəsi üzərində çalışan tədqiqatçılar, ümumiyyətlə müəssisələrdə rasional çərçivədə seçilən, mənimsənilən və effektiv şəkildə tətbiq olunan istənilən şirkət strategiyasının uzun müddətdə arzu olunan təşkilati nəticələr verdiyini qeyd edirlər. Təşkilati performans və uğurda, arzu olunan səviyyənin təmin edilməməsini isə təşkilati strategiyaları ilə mühit, təşkilat strukturu və proseslər arasındakı uyğunluq və tutarlılığın olmaması ilə əlaqələndirirlər.

Araşdırmaya qatılan İR mütəxəssisləri, təşkilati performans dəyişənlərindən əməkdaş münasibətlərinin performansını, quruluşlarını eyni/bənzər məhsul və xidmət təqdim edən müəssisələrlə müqayisə edərək qiymətləndirmişlər. Bu qiymətləndirmədə, açar əhəmiyyətə malik olan işçilərin müəssisəyə cəlb edilməsi və saxlanılması, idarəetmə səviyyəsi ilə müəssisə işçiləri arasındakı əlaqələr və təşkilat üzrə çalışanlar arasındakı münasibətlər nəzərə alınmışdır. Əməkdaşlar münasibətləri performansı üzərində müdafiəedici, öncül və analitik strategiyaların hər birinin təsiri əhəmiyyətli və müsbət şəkildə əldə edilmişdir. Təşkilati performansın bu alt ölçüsü, əsasən təşkilatlardakı insan varlığına verilən əhəmiyyətə vurğu edir. Mövcud tədqiqatın təşkilati strategiyaları, insan resursları strategiyaları, strateji uyğunluq dinamikləri və müəssisə ölçüsü arasındakı əlaqələrə dair ortaya qoyduğu nəticələrin mövcud ədəbiyyata töhfə verdiyi düşünülür. Eyni zamanda, tədqiqatın, müvafiq dəyişənlərin araşdırılmasına dair daha çox empirik tədqiqatları təşviq edəcəyi ümid edilir. Tədqiqatda istifadə olunan strategiya tipologiyası və strateji uyğunluq dinamikalarına dair çərçivələr ədəbiyyatdakı yeganə modellər deyil. Fərqli tipologiyaların və strateji uyğunluq perspektivlərinin yer alacağı araşdırmalar,

strategiya-performans və strateji uyğunluq-performans əlaqələrinin incələnməsi baxımından nəzəri töhfələr verəcəkdir.

## ƏDƏBİYYAT


1. Aiko, A. H. (2021). Relationship between Human Resource Strategies and Strategic Fit Realization: A Review of Conceptual and Empirical Literature Perspective from Japan. Journal of Strategic Management, 5(2), 8-16.
2. Allen, R. S. ve Helms, M. M. (2006). Linking strategic practices and organizational performance to Porter's generic strategies. Business Process Management Journal, 12(4), 433-454
3. Andrews, R., Boyne, G. A., Law, J. ve Walker, R. M. (2008). Organizational strategy, external regulation and public service performance. Public Administration, 86(1), 185-203.
4. Armstrong, M. (2017). Armstrong'un Stratejik İnsan Kaynakları Yönetimi El Kitabı. (Prof. Dr. Yonca Deniz Gürol, Evrim Gemici, Çev.). Nobel Kitab evi
5. Barca, M. (2005). Stratejik Yönetim Düşüncesinin Evrimi: Bilimsel Bir Disiplinin Oluşum Hikayesi. Journal of Management, 5(1), 7-38
6. Berberoglu, A. (2018). Organizational`s climate on organizational commitment and empirical evidence from hospitals. BMC Health Services Research, 18(1), 1-9.
7. Collins, C. J. (2021). Expanding the resource-based view model of strategic human resource management. The International Journal of Human Resource Management, 32(2), 331-358.
8. Creswell, J. W. ve Poth, C. N. (2016). Qualitative inquiry and research design: Choosing among five approaches. Sage Publications.
9. X. ve Tang, Dai, N. T., Kuang, , G. (2019). Differential weighting of objective versus objective measures in potential evaluation: experimental evidence. European Accounting Review, 26(1), 129–148
10. Fuertes, G., Alfaro, M., Vargas, M., Gutierrez, S., Ternero, R. ve Sabattin, J. (2020). Conceptual framework for the strategic management: a literature review— descriptive. Journal of Engineering, 1-21.
11. Hayes, A. F. (2018). Introduction to Mediation, Moderation, and Conditional Process Analysis: A Regression-Based Approach. The Guilford Press, New York.
12. Hsieh, Y. H. ve Chen, H. M. (2011). Strategic fit among business competitive strategy, human resource strategy, and reward system. Academy of Strategic Management Journal, 10(2), 11
13. Jhajharia, P. ve Kaur, R. (2015). Achieving strategic-fit between business and human resource strategies. International Journal of Humanities and Social Science Invention, 4(1), 53
14. Kaufman, B. E. (2015). The RBV theory foundation of strategic HRM: Critical flaws, problems for research and practice, and an alternative economics paradigm. Human Resource Management Journal, 25(4), 516
15. Kim, J. H. (2019). Multicollinearity and misleading statistical results. Korean Journal of Anesthesiology, 72(6), 558.
16. Lillis, B. ve Sweeney, M. (2013). Managing the fit between the views of competitive strategy and the strategic role of service operations. European Management Journal, 31(6), 564
17. Luoma, M. A. (2015). Revisiting the strategy-performance linkage: An application of an empirically derived typology of strategy content areas. Management Decision, 53(5), 1083-1106.
18. Miles, R. E. ve Snow, C. (2003). Organizational Strategy, Structure, and Process. Stanford University Press, Stanford, California.
19. Murthi, B. P. S., Rasheed, A. A. ve Goll, I. (2013). An empirical analysis of strategic groups in the airline industry using latent class regressions. Managerial and Decision Economics, 34(2), 59.
20. Parnell, J.A. (2011). Strategic capabilities, competitive strategy, and performance among retailers in Argentina, Peru and the United States. Management Decision, 49(1), 139-155
21. Porter, M. (2015). Rekabet Stratejileri. Aura Kitapları.

22. Saraç, M., Ertan, Y. ve Yücel, E. (2014). How Do Business Strategies Predict Firm Performance? An Investigation on Borsa Istanbul 100 Index. Journal of Accounting & Finance, (61), 121-134.
23. Cooper, B. K. ve Sheehan, C. (2011). SHRM outsourcing: organisational`s impact size and HRM strategic involvement. Personnel Review, 20(6), 740-750.
24. Mirze, S. K. ve Ülgen, H. (2019). Teşkilatlarda stratejik yönetim (8. Baskı).

**Мирзабала Поладов**

## СВЯЗЬ МЕЖДУ СТРАТЕГИЯМИ УПРАВЛЕНИЯ ЧЕЛОВЕЧЕСКИМИ РЕСУРСАМИ И СТРАТЕГИЯМИ КОНКУРЕНТОСПОСОБНОСТИ КОМПАНИИ В РЕГУЛИРОВАНИИ ТРУДОВЫХ ОТНОШЕНИЙ

***Резюме***

*Исследование подчеркивает положительное влияние соответствия HR-приложений стратегиям на производительность, а также то, что как строгие, так и минимальные уровни соответствия приводят к лучшим результатам. В то же время отмечается необходимость более активного стремления менеджеров к стратегическому управлению HR.*

*Развиваясь в Азербайджане, стратегическое управление человеческими ресурсами отличается от предыдущих исследований методологией, концептуализацией динамики стратегического соответствия, качеством выборки и тем, что не является западным по своему происхождению. В рамках дополнительных анализов в исследовании также рассматривалось, существует ли значительная разница в организационных трудовых отношениях в зависимости от различных стратегий, принятых предприятиями. Выявлено, что производительность трудовых отношений демонстрирует значительную разницу в зависимости от различных стратегий. Кроме того, определено, что защитные, проактивные и аналитические стратегии имеют положительное и значительное влияние на рыночную производительность, производительность продуктов и услуг, а также производительность трудовых отношений. В целом результаты показывают, что стратегии, соответствующие HR-приложениям, могут оказывать положительное влияние на производительность.*

***Цель:*** предприятия все больше обращают внимание на стратегии и приложения человеческих ресурсов (HR), чтобы поддерживать свои активы, получить конкурентное преимущество перед соперниками, обеспечить доходы выше среднего по сектору и сделать все эти преимущества устойчивыми. Однако в условиях постоянных изменений и неопределенности выполнение функций и приложений управления человеческими ресурсами (HRM) не всегда оказывается достаточным для достижения целевого конкурентного преимущества. Эта нехватка выделила дисциплину стратегического HRM, которая объединяет HR с стратегией и приложениями, придавая HR стратегическую роль в управлении человеческими ресурсами.

***Методология:*** в исследовании использована количественная методология исследования, являющаяся результатом позитивистского подхода в социальных науках. Применялись количественные методы исследования, начиная от изучения литературы и сбора данных, до их анализа и интерпретации. В этом направлении этапы исследования, такие как выбор темы, цель исследования, значимость исследования, формулирование проблемных предложений, изучение литературы, разработка концептуальной рамки, определение техники сбора данных, сбор, оценка, измерение и анализ данных, а также написание выводов и обсуждений, были реализованы в рамках иерархического пошагового процесса.

***Научная новизна:*** поднятая в исследовании тема имеет большое значение в современном мире. Важно, чтобы структурные подразделения интегрировали свои стратегические цели с стратегическими целями компании для достижения поставленных компанией стратегий.

***Ключевые слова:*** *управление, человеческие ресурсы, трудовые отношения, стратегии, стратегическое соответствие, организация, производительность, размер компании*

doi.org/10.61764/lasr.3.2024.78-84

**Mirzabala Poladov**

# THE RELATIONSHIP BETWEEN HUMAN RESOURCE STRATEGIES AND COMPANY COMPETITIVE STRATEGIES IN THE REGULATION OF LABOR RELATIONS

***Summary***

*The first decades of the 21st century give enough reason to say that the factor of innovation will play a decisive role in all areas of socio-economic development. The growing importance of innovation in food security at the global and national levels is increasingly recognized. The competitiveness and overall efficiency of agro-industrial activities are directly related to the opportunities for innovative development. Realization of innovative potential at the national and regional levels to some extent depends on the characteristics of incentives. Innovative development in agro-industrial areas requires the study of financial incentives. In most countries, innovation is stimulated in the agro-industrial sectors, especially in agriculture. The formation of an effective system of financial incentives for innovation in these areas requires the study of scientific, theoretical and experimental problems. This article discusses the relevant topical issues.*

***Purpose:*** the main purpose of the study is to study topical theoretical and practical problems of the formation and development of a system of financial incentives for innovation in the agro-industrial sectors, to identify the possibilities for their solution, and to substantiate the necessary theoretical provisions.

***Methodology:*** in the course of the study, the main principles of innovative development and ensuring national food security were touched upon, and the increasing strategic importance of innovative agro-industrial activities was explained. In preparing the article, observation methods, monographic, economic and statistical, the method of scientific abstraction, and logical generalization were used. When studying the topic, the works of economists on the topic were used.

***Scientific novelty:*** the main scientific innovation achieved in the article is the characteristics of the system of financial incentives for innovative agro-industrial activities and the definition of conditions in order to create a favorable environment for investing in this activity.

***Keywords:*** *innovation, stimulation, financing, agro-industrial sectors, investments, subsidy, concession, measure, budget, public-private partnership, technological innovation*

doi.org/10.61764/lasr.3.2024.85-91

**UOT 33.332.025**

**GülnarəTanrıverdiyeva**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.f.d.*
*gulya-tan@inbox*.ru

# AZƏRBAYCANDA FORMALAŞAN İNVESTİSİYA MÜHİTİ VƏ UÇOTUNUN TƏŞKİLİ

***Xülasə***

*Hazirki dövr də özünün geniş mahiyyətinin həcminə mürəkkəbliyinə iqtisadi hadisələrin genişliyi əsasli surətdə fərqlənir. İqtisadi proseslərin mürəkkəbliyi,inkşaf sürəti bu sahəyə dinamik xarakter verir. Bu proses müasir hadisələrin baş verməsi onların tətbiqi və inkşafı ilə iqtisadiyyat elminə yol açması ilə nəticələnir. Bu anlayışlardan birir də inverstisiyadır. İqtisad elminin və iqtisadi münasibətlərin müasir üzünəməxsus inkşaf mərhələsində bu anlayiş geniş əhəmiyyətə malikdir.*

*Demək olar ki, hər bir dövlətin, müəssisənin fəaliyyəti bu və ya başqa səviyyədə investisiya qoyuluşları ilə əlaqəlidir. Müəssisədə gündəlik olaraq demək olar ki, maliyyə qoyuluşları xarakterli məsələlər həll olunur. Mal-material ehtiyyatlarının çatışmamazlığı onlara tələbatın durmadan artması inkşafı cəmiyyətdə xarici eyni zamanda daxili resursların araşdırılması məsələlərini qarşıya qoyur. Dünya təsərrüfatına inteqrasiya azərbaycan iqtisadiyyatın beynəlmiləşməsini ön plana qoyur ki, bu isə hazırda dünya iqtisadiyyatında münasibətlərin əsasını qoyur. Azərbaycanda iqtisadi islahatların keçirilməsi ölkə iqtisadiyyatlna cəlb olunması təcrübəsinin inkşafını,onun uçotu və analizinin,investisiya məsələlərinin daha da aktuallaşdırılmasını tələb edir. Təqdim olunan məqalədə qeyd olunan problemlər araşdırılır.*

***Məqsəd*** – investisiya qoyuluşlarının təşkili və onun iqtisadi məzmunu, müasir dövrdə müəssisənin investisiya siyasəti və onun xüsusiyyətləri, investisiyanın uçotu və auditi üzrə obyektlərin əsaslandırılması, investisiyaların uçotunun informasiya mənbələri, Azərbaycanda formalaşan investisiya mühiti və uçotun aparılması,investisiya qoyuluşlarının uçotu və təhlilinin təkmilləşdirilməsi istiqamətləri əsas götürülür.

***Metodologiya*** – obyektlərin öyrənilməsinə sistemli və kompleks yanaşmadan, iqtisadi təhlilin və nəzarətin ümumi və xüsusi metodlarından–müşahidə, müqayisə, qruplaşdırma, dinamik və struktur təhlili, nisbətlərin təhlili, iqtisadi-riyazi modelləşdirmədən istifadə olunmuşdur.

***Elmi yenilik*** – investisiya qoyuluşlarının təşkili və onun iqtisadi məzmunu əsaslandırılmışdır, müasir dövrdə müəssisənin investisiya siyasəti və onun xüsusiyyətləri tədqiq edilmişdir, Azərbaycanda formalaşan investisiya mühiti və uçotunun təşkil olunması araşdırılmışdır,investisiya qoyuluşlarının uçotunu təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmişdir.

***Açar sözlər:*** *investisiya fealiyyəti, investisiya obyekti, gəlir, emisiya gəliri, dividend, portfel investisiya*

## Giriş

Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası ilə əlaqədar olaraq, investisiya qoyuluşu ölkənin iqtisadi siyasətinin əsas elementi olmuşdur. Hazırki dövrümüzdə milli iqtisadiyyatın neft-qaz ehtiyatlarından başqa qeyri-neft sahələrin inkişiaf etdirilməsi dövlətimizin qarşısında duran prioritet məsələlərindəndir. Bu üzdən sənaye və istehsal sahələrinin o cümlədən kənd təsərrüfatı sahələrinin inkişafı labüddür. Bu sektorların ozünə görə inkişafına investisiyalar edilməsi vacib məsələlərin öyrənilməsi həm ona

görə böyük aktuallıq kəsb edir ki, Azərbaycanın bu sahədə təcrübəsi heç də böyük deyildir.

Azərbaycan Respublikasının bazar iqtisadi münasibətlər sisteminə keçid etməsi çoxlu problemlər ortaya atmışdır ki, onlar arasında başlıca maliyyə qoyuluşları problemidir. Məqalənin məqsədi investisiya uçotunun maliyyə hesabatının beynəlxalq uçot standartlarına uyğun təşkilini araşdırmaq, onların yaranma mənbələri və uçotu məsələlərini araşdırmaqdır. Bununla belə uzun və qisa müddətli investisiya qoyuluşlarının uçotu mexanizminin aparılmasını vacib edir.

**İnvestiya anlayışı,onun iqtisadi mahiyyəti və təsnifatı**

Azərbaycan iqtisadiyyatının ə n vacib və çatışmayan məsələlərdən biri investisiyadır. Bu alətdən istifadə istehsalı təkmilləşdirməyə, modernləşdirməyə, iqtisadiyyatın vacib strukturlarının qurulmasına, mövcud iş yerlərinin artırılmasına, əhalinin işlə təmin edilməsinin , milli əmtəə istehsalçılarının sayını artırmasına imkan verir ki, bu da axır nəticədə ölkənin digər ölkələrlə münasibətlərdə nüfuzunun genişləndirilməsinə eyni zamanda insanların maddi rifahının yüksəlməsinə səbəb olur.İnvestisiya sözünün latınca mənası «invest»-«sərmayə qoyuluşu» anlamına gəlir. Qazanc əldə etmək məqsədilə, iqtisadiyyatın digər sahələrində qısa və uzunmüddətli sərmayə qoyuluşudur (1,s24).

Bundan başqa, "invetisiya" termini bütün dünyada iqtisad elminin terminlərinə daxil olmuşdur,eyni zamanda investisiya termini kapital qoyuluşu kimi başa düşülür. Bununla belə, bu termin çox geniş mənada müəyyən olunmurdu: Senayenin bütün sahələrində, nəqliyyat, ticarət və iqtisadi fəaliyyətin başqa sahələrinə uzunmüddətli investisiya qoyuluşu şəklində həyata keçirilən xərclərin məcmusu kimi başa düşülürdü.

Uzunmüddətli maliyyə qoyuluşları əsas kapitalın tərkib hissəsi "investisiya" termini bütün dünyada kapital qoyulması kimi başa düşülür .İnvestisiya anlayışına belə yanaşma düzgün hesab edilmir, çünki fond kimi vəsait kimi qoyuluş edildikdə dövrüyyə vəsaitlərindən təcrid olunmuş şəkildə normal fəaliyyətini davam etdirə bilmir. Bununla əlaqədar, həmçinin beynəlxalq standartların tələbilə "investisiya" termini gəlir əldə etmək məqsədilə əsas və dövrüyyə kapitalına qoyulan daxilolmalar tərzdə başa düşülür (2,s 59).

Amma kifayət qədər tez-tez investisiya və kapital qoyuluşu terminləri ilə eyniləşdirilir. Lakin, kapital qoyuluşu- gəlir əldə etmək üçün maliyyə qoyuluşu formalarından biridir. Eyni zamanda , maliyyə qoyuluşu investisiyanın əsas halqasıdır; müəyyən vaxt ərzində yaranan fondların s a s  t ə r k i b  h i s s ə s i n i  t ə ş k i l  e d i r . Tələb olunan əsas kapitalı əvəzləmək üçün kapital qoyuluşu kifayət qədər deyilsə, istehsalın durğunluq və böhran vəziyyətindən danışmaq olar (3,s 48).

**Uzunmüddətli investisiyaların beynəlxalq və milli uçot standartlarına uyğun uçotunun təşkili**

Əsas vəsaitlər mühasibat balansının 11-ci maddəsində "Torpaq, tikili və avadanlıqlar" adlanır. "Torpaq, tikili və avadanlıqlar" 7 saylı Maliyyə Hesabatının Beynəlxalq Standartında açıqlanıb. Maliyyə vəziyyəti haqqında hesabatın daxilində şirkətin mülkiyyətində olan və ya maliyyə icarəsi üzrə istifadə edilən, amortizasiya ilə bağlı bütün məsələləri çıxıldıqdan sonra TTA-nın nəqliyyat vasitələrinin və digər torpaq, tikili və avadanlıqların ilkin dəyəri aiddir. Bu maddəyə həmçinin 13 saylı Milli Mühasibat Uçotu Standartına əsasən TTA-nın (torpaq tikili avadanlıq) təkrar istehsalı ilə əlaqəli yaranmış istənilən məsrəflərin kapitallaşdırılması aiddir. Uzunmüddətli aktivlər müvafiq olaraq hesablar planının 111 və 113-cü hesablarında uçota alınır (4, s.123).

Uzunmüddətli aktivlərin uçotu onların nümunəvi təsnifatına uyğun çərçivədə , umumiləşdirilmiş formada təyin olunur. Bu proses bütün tərkib elementləri içərisində

doi.org/10.61764/lasr.3.2024.85-91

ayrı-ayrı inventar obyektləri daxilində qeyd olunur. İnventar dedikdə, vahid bütövlükdə birləşdirilmiş və konkret istehsal funksiyalarının həyata keçirilməsi üçün ayrılmış torpaq, tikili və avadanlıqların, bioloji aktivlərin istənilən ayrıca əşyası və ya kompleks əşyası başa düşülür.

Hesabat və uçot sisteminin təyin edilməsi və uzunmüddətli aktivlərin mühafizəsinə nəzarətin təmin edilməsi üçün, hər bir inventar məhsuluna hər hansı bir sıralanma verilir. Sıralanmış inventarlar şirkətdə istifadə dövrü ərzində qorunur. Bu da inventarların rəsmiləşdirilməsinin bütün əsas sənədlər hissəsində əks olunur (5, s. 43).

TTA-nın doğru istifadə olunması cəmiyyətə əsasən də iqtisadiyyatin inkşafına təsir edir. Bu üzdən bu resursları düzgün mövcud olması mühasibat uçotu mexanizmini təşkil etməlidir.

Xarici şirkətlərdə uzunmüddətli aktivlərin tərkibinə binalar, qurğular, ötürücü qurğular, maşın və avadanlıqlar, nəqliyyat vasitələri, alətlər, istehsalat inventarları və ləvazimatları, təsərrüfat inventarları və sair vəsaitlər əsas vəsaitlər daxil edilir.

Şirkət ödəmə edərkən investisiyalar formasında fəaliyyət göstərən istehsal alətlərinin yenidən qurulması genişləndirilməsi nəticəsində hazırkı və gələcək zaman üçün icarə qaydaları əsasında torpaq əsas vasitələri əldə edə bilər. Kommersiya təşkilatı nizamnamə kapitalına qoyuluş kimi iştirakçıdan TTA-lardan ala bilər.

Şirkətin ilkin dəyərinə daxil olan torpaq,tikili və avadanlıqların mövcudluğu və hərəkətinin uçotu 111 saylı "Torpaq, tikili və avadanlıqlar – Dəyər" adlı aktiv inventar hesabında aparılır.

Proseslərin təşkilinin xarakterinə maliyyə qoyuluşları ya müqavilə üsulu ilə, yəni müqavilə əsasında xüsusi tikinti təşkilatı vasitəsi ilə və yaxud da şirkətlər tərəfindən, yəni təsərrüfat üsulu ilə yerinə yetirilir (5, s.74).

Kapital qoyuluşlarının uçotu həm tikinti üzrı bütövlükdə və həm də fərli obyektlərin daxilində bu obyektlər fəaliyyətə başlayana qədər uyğun məsələlərin eyni zamanda məsrəflərin çıxarılmasının bütövlükdə təşkil edilməsinədək ilin və tikintinin əvvəlindən artan yekunla faktiki məsrəflər əsasında aparılır.

Beləliklə, sifarişçi tikintinin həyata keçirilməsi üsulundan başqa daxil olan kapital qoyuluşlarının uçotu smeta dəyəri əsasında yerinə yetirilir.

Alıcının mühasibatlığında maliyyə məsələlərində ön plana keçirilən kapital qoyuluş qoyuluşlarının uçotu 113 saylı "Torpaq, tikinti və avadanlıqlar əsasında məsrəflərin kapitallaşdırılması" hesabında aparılır. Hesabın debetində müəyyən edilmiş qaydada torpaq, tikinti və avadanlıqların obyektlərinin balans dəyərinə aid olan istehlakçının hazırki xərclərini, həmçinin torpaq, tikililərin obyektlərinin ilkin dəyərinə daxil edilməyən, tikili və avadanlıqların tikintisi və əldə edilməsi ilə əlaqədar olan məsrəflər də əks olunur.

İnvestisiya qoyuluşları zamanı uçotun çətinliyini nəzərə alaraq, onların analitik uçotunu düzgün təşkil etmək çox vacibdir, əsaslı tikinti qaydasında məsrəflərin analitik uçotu 18 saylı "Kapital qoyuluşları üzrə məsrəflər" formasında aparılır. İnvestisiya edilən zaman əməliyyatlar 16 saylı jurnal-orderdə uçotu aparılır və proseslər 113 nömrəli TTA üzrə kapitallaşdırma iləbağlı məsrəflərin maliyyələşdirilməsi" hesabının kreditinə yazılmaqla aparilırr.

Bu zaman proseslər yalnız müəyyən üsul ilə həyata keçirilərsə müvafiq saylı jurnal-orderdə (əsasən 16), hesabın kreditində 113 saylı hesab qeyd edilir. Əgər işlər təsərrüfat üsulu ilə aparılarsa, onların istehsalına çəkilən xərc 10-M/d saylı jurnal-orderdə uçota alınır, buna görə də 113 saylı hesabın krediti əsasında əməliyyatlar 16 saylı jurnal-orderdə əks olunmur (6, s. 78).

**Azərbaycanda fəaliyyət göstərən xarici investorların uçotu**

İlk dəfə Azərbaycanda Vergi Məcəlləsi 2001-ci ildə qəbul edilib, hal-hazırda 225 maddə təşkil edir. İndiki dövrdə ölkəmizdə bir neçə rejimi məlumdur:

1) qanunla müəyyən edilmiş vergi rejimi,
2) azad zonalarda və sənaye və texnoloji parklarda vergitutma kimi xüsusi vergi rejimlərini də əhatə edir;
3) Hasilatın Pay Bölgüsü Sazişləri (PSA);
4) Yalnız BTC və Cənub üçün olan Ev Sahibi Hökumət Sazişləri (HGA).
5) Qafqaz boru kəmərləri.

Qanunla müəyyən edilmiş vergi rejimi HPBS və ya HGA ilə idarə olunan və ya öz vergi sistemi mövcud olanlardan başqa, bütün hüquqi şəxslərə (həm yerli, həm də xarici) tətbiq olunur.

PSA/HGA vergi rejimləri eyni zamanda, analoji neft əməliyyat şirkətlərinə, podratçı tərəf kimi xidmət edən xarici sərmayədarlara aid olunur.

Azərbaycanda neft və qaz hasilatı və nəqli üçün 30-dan çox HPBS və HGA imzalanmağı və ratifikasiya olunması məlumdur. Lakin bəzilərinin fəaliyyəti yoxdur. Hər bir HPBS və HGA-nın məxsusi vergi və uçot sistemi vardır. HPBS və HGA-lar onun iştirakçıları, müqavilə imzalayanlar tərəfdaşları üçün daha əlverişli hüquqi və vergi rejimi (məsələn, daha sadə hesabat rejimi, xərclərin tutulması, Mənfəət Vergisinin sabit dərəcəsi, müəyyən vergi və rüsumlardan azadolma və s.) təmin edir.

Qanun müəyyən edir ki, xarici hüquqi şəxslərin Azərbaycanda sahibkarlıq fəaliyyəti icra etməzdən öncə öz nümayəndəlik və ya filiallarını qeydiyyatdan keçirmələri vacibdir (7, s.134).

Nümayəndəlik və ya filial kommersiya fəaliyyətini dayandırarsa, həmin tarixdən gec olmamasl şərtilə vergi orqanına bildiriş göndərməlidirlər.

Korporativ gəlir vergisi ("VÖT") vergi ödəyicisi hüquqi şəxslər və ya xarici hüquqi şəxslərin nümayəndəlikləri və ya filialları ola bilər.

CIT hesablanarkən şirkətin vergi tutulan mənfəəti əsas götürülür. Vergiyə cəlb olunan mənfəəti hesablayarkən, gəlirin qazanılması yolunda çəkilən hər hansı xərclər kimi müəyyən edilən və çıxılan, ümumi satışdan daxilolmalar nəzərə alınır. Lakin əgər cari vergi ödənişləri rüblük bəyan olunursa, CIT illik əsasda bildiriş göndərilir.

CIT ilə bağlı bəzi vergi güzəştləri nəzərə alınır:

- hüquqi şəxslər kənd təsərrüfatı məhsulları istehsal edirsə, hesablanmış mənfəəti (o cümlədən sənaye üsulu ilə);
- sənaye və texnoloji parkların rezidentlərinin mənfəəti vergidən sərbəstdir (sənaye və texnologiyalar parkındakı qeydiyyatdan sonra 10 il ərzində);
- KOB klaster şirkətinin gəliri (KOM klaster şirkətlərinin reyestrinə aid oldugu tarixdən sonra 7 il ərzində);
- investisiya təşviqi sənədini əldə etmiş hüquqi şəxsin bu sənədi imzalandığı gündən 7 il müddətində əldə etdiyi gəlirin 50%-i;
- mikro müəssisələrin sahibkarlıq fəaliyyətinə görə qazandığı gəlirin 75%-i;

CIT məqsədləri üçün tanınmanın iki üsulu var:

- Hesablama metodu
- Nağd pul metodu.

Orta və iri müəssisələrin nağd pul metodunu seçmək hüququ olmur, lakin kiçik bizneslər 1 yanvar 2023-cü il tarixindən etibarən hesablama metodunu tətbiq etməlidirlər. Mikro bizneslər azad istəklərinə uyğun olaraq nağd pul metodu və ya hesablama metodu tətbiq edə bilərlər (8, s.125).

Xarici ölkələrdə qeydiyyata alınmış və Azərbaycan Respublikasının rezidenti olmayan şirkətlər göstərilən şərtlərlə "Nəzarət olunan Xarici Şirkət" sayılır və onun gəlirləri Azərbaycan Respublikasında vergiyə cəlb olunur:

- Xarici müəssisədə birbaşa və ya dolayısı ilə 50 faizdən artıq səsvermə hüququna malik olan və ya onun nizamnamə kapitalının 50 faizdən artıq sahib olan Azərbaycan Respublikasının rezidenti olan şəxs;

- Nəzarət olunan Xarici Şirkətin mənfəətindən hesablanmış faktiki vergilər Azərbaycan Respublikasının vergi qanunvericiliyinə müvafiq həmin mənfəətdən hesablanmış hüquqi şəxslərin mənfəət vergisindən iki dəfə və ya daha az olarsa;

- Əgər xarici müəssisənin illik gəlirinin 30%-dən çoxu aşağıdakılar təşkil edirsə: qonorarlardan daxil olan pul vəsaitləri, səhmlərin və səhmlərin satışından qazanılan pul gəliri, faiz gəlirləri, maliyyə xidmətlərindən əldə olunan pul vəsaitləri və iqtisadi səmərə yaratmayan mal və xidmətlərin satışından daxil olan pul vəsaitləri.

01.01.2016-cı ildən etibarən il ərzində 200 000 AZN kimi dövriyyəsi olan şəxslər Sadələşdirilmiş Vergi ödəyiciləri ola bilərlər. Sadələşdirilmiş vergi aylıq pul gəlirinin 2 faizi qədər nəzərdə tutulur.

İllik dövriyyəsi 200 000 manatı üstələyən ictimai iaşə xidmətləri təqdim edən müəssisələr (məsələn, restoranlar, qəhvəxanalar və s.) də sadələşdirilmiş vergi ödəyicisi kimi qeydə alına bilərlər, vergi tutulması aylıq pul gəlirinin 8% olmalıdır. Eyni zamanda 10% Dividend Vergisi həm yerli, həm də xarici şirkətlərə tətbiq edilir.

Dividend vergisinin tətbiq olunma dərəcəsinin azalmasına ikiqat vergitutma müqavilələri əsas yaradır. Azərbaycanda daimi fəaliyyət göstərməyən xarici hüquqi şəxslərin əldə etdikləri gəlirlərdən Mənfəət Vergisinə cəlb olunurlar.

**Nəticə**

Milli iqtisadiyyatımızın müstəqilliyin ilk dövrlərində çökməsi dövrlərində yeganə yolu Azərbaycan xarici ölkılırin iqtisadiyyatina inteqrasiya olunması yolunnu seçmisdir. Bu dövrdə pul ehtiyatları azalan zaman bir ölkə üçün yalnız həll yolunu Azərbaycana xarici və daxili investisiyaların ölkəyə cəlb olunması yolu ilə milli iqtisadiyyatı inkşaf etdirmək, investorlar üçün investisiya mühiti yaratmaq qarşıda duran əsas problemlərdən əsasıdır.

Azərbaycanda bu mühitinin formalaşdırılması dövründə bəzi işlər həyata keçirilir və eyni zamanda bu məsələlər üzrə qanunlar qəbul edildi. Nəticə olaraq, Azərbaycan iqtisadiyyatına qoyulan investisiyaların həcmi milyard dollarlar hesablanır.

Azərbaycanın müasir investisiya siyasətinin əsas xüsusiyyəti isə ölkə iqtisadiyyatının neftden alınan daxilolmalarının və kənd təsərrüfatı istehsal sahəsinə qoyuluşlar formasinda aparılmasını h ə m i n s a h ə n i n yüksək inkişafına nail olmaqla müəyyən olunur.

Buna nail olmaq üçün mövcud sahələrə investisiyalar yönəltməklə bunlarda istehsal gücünü genişləndirmək elmi-texniki tərəqqinin son uğurlardan araşdırmaqla yeni istehsal müəssisələri yaratmaq lazımdır. Buna isə, iqtisadiyyata investisiya qoyuluşlarının cəlb olunması yolu ilə nail olmaq olar.

Hazırki dövrümüzdə artıq xarici iqtisadiyyatda əsas təbii ehtiyatımız olan neftin və qazın qiymətinin aşağı düşməsi ölkə iqtisadiyyatında kənd təsərrüfatı sahəsinin genişləndirilməsinin vacibliyini ön plana çəkir, və adıçəkilən sektorda maliyyə qoyuluşlarının c ə l b o l u n m a s ı g e n i ş l ə n d i r i l i r . Bu proseslər zamanla maliyyə qoyuluşunun uçotunu, onların üzərində nəzarət və təhlilin aparılmasını vacib edir.

## ƏDƏBİYYAT

1. “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu. 1 fevral 2000-ci il
2. S.M.Səbzəliyev “Maliyyə hesabatının beynəlxalq standartları” Bakı-2022

doi.org/10.61764/lasr.3.2024.85-91


3. V.Quliyev, R.Fətullayev, A.Kərimov “Beynəlxalq uçot və hesabata giriş” ( GAAP və İFRS əsasında). Bakı, 2015
4. Mühasibat uçotunun Beyəlxalq Standartları -2018
5. Sadiqov Ə.A., Sadıqov T.Ə., Cəfərova Ş.Ə., Sadıqov C.Ə. “ Mühasibat uçotu”. Bakı, 2015
6. Səfərov R. “Azərbaycanda yeni texnologiyaların tətbiqi sahəsində innovasiya fəaliyyətinin təkmilləşdirilməsi mexanizmləri”. Bakı, -2007
7. Atakişiyev M., Süleymanov Q. “İnnovasiya menecmenti”. Bakı, -2004
8. Firudin İsayev “Maliyyə hesabatının beynəlxalq standartları”. Bakı-2024


**Гюльнара Танрывердиева**

# ФОРМИРОВАНИЕ ИНВЕСТИЦИОННОЙ СРЕДЫ В АЗЕРБАЙДЖАНЕ И ОРГАНИЗАЦИЯ УЧЁТА

***Резюме***


*В данной статье цель исследовать влияние инвестиций на экономику Азербайджана и экономический рост, а также определить направления для улучшения учета этих инвестиций. В последние годы прямые иностранные инвестиции стали центральной экономической политикой развивающихся стран, и Азербайджан не является исключением. Основной причиной этого является то, что они приносят выгоду не только от самого капитала, но и от общества, страны-хозяина и окружающей среды. Привлечение иностранных инвестиций способствует росту человеческого капитала через развитие образовательной инфраструктуры, что, в свою очередь, увеличивает экономический рост в стране. Таким образом, для эффективного использования иностранных инвестиций необходима квалифицированная рабочая сила, что, увеличивая рабочую силу, также будет способствовать росту занятости и созданию множества рабочих мест. Иностранные инвестиции это финансовое участие инвестора в компании, находящейся в другой стране. Основными элементами прямых инвестиций являются поиск ресурсов, маркетинговые исследования, а также поиск эффективности и стратегических активов. Мотив поиска ресурсов заключается в раскрытии дешевых природных ресурсов на глобальном уровне в производственной отрасли. Этот мотив развивается в монополиях, которые необходимы для производства полуфабрикатов, используемых для создания конечной продукции.*

***Цель*** – организация инвестиций и ее экономическое содержание, инвестиционная политика предприятия в современную эпоху и ее характеристики, обоснование объектов учета и аудита инвестиций, информационные источники учета инвестиций, инвестиционная среда, сформированная в Азербайджане и направления для совершенствования учета и анализа инвестиций взяты за основу**.**

***Методология*** – исследование объектов проводилось с системным и комплексным подходом, с использованием общих и специализированных методов экономического анализа и контроля-наблюдения, сравнения, группировки, динамического и структурного анализа, анализа пропорций и экономико-математического моделирования.

***Научная новизна*** – обоснована организация инвестиционных вложений и их экономическое содержание, исследована инвестиционная политика предприятия и ее особенности в современных условиях, проанализирована инвестиционная среда и организация учета в Азербайджане, определены направления совершенствования учета инвестиционных вложений.


***Ключевые слова***: *инвестиционная деятельность, инвестиционный объект, доход, дивиденд, портфельные инвестиции*

doi.org/10.61764/lasr.3.2024.85-91

**Gulnara Tanriverdiyeva**

# FORMATION OF THE INVESTMENT ENVIRONMENT AND ORGANIZATION OF ACCOUNTING IN AZERBAIJAN

***Summary***

*In the country, macroeconomic stability, high indicators of economic growth and economic security, as well as the improvement of the population's standard of living and the absence of socio-economic problems, depend heavily on a successful economic environment. Azerbaijan has become an emerging economy in the world in terms of investment flows. Political and economic stability are crucial for ensuring a successful investment environment. Additionally, a strong defense system and an advanced legislative framework are considered favorable by investors. There should be no discrimination against foreign or local investors. As a result of measures taken to further improve the investment climate in our country, the number of companies investing in Azerbaijan is increasing, and their geographical distribution is expanding. According to statistics, the volume of investments in our country is currently measured at 280 billion. Moreover, our republic is recognized as an investor country in several regional and global projects.*

***Purpose*** – the organization of investments and its economic content, the investment policy of the enterprise in the modern era and its characteristics, the justification of objects for accounting and auditing of investments, the information sources of investment accounting, the investment environment formed in Azerbaijan and the directions for improving accounting and analysis of investments are taken as the basis.

***Methodology*** – a systematic and comprehensive approach was used in the study of objects, employing general and specific methods of economic analysis and control—observation, comparison, grouping, dynamic and structural analysis, ratio analysis, and economic-mathematical modeling.

***Scientific novelty*** – the organization of investment activities and their economic content have been justified; the investment policy of enterprises and its characteristics in the modern era have been studied; the investment environment that has developed in Azerbaijan and the organization of its accounting have been examined; directions for improving investment accounting have been identified.

***Keywords****: investment activity, investment object, income, dividend, portfolio investment*

doi.org/10.61764/lasr.3.2024.92-98

**UDK 33.338**

**Daşqın Adgözəlov**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, müəllim*
*dasqin99.9903@gmail.com*
*Orcid:* 0009-0000-9787-6049

*Sustainability concerns have created a new agenda for economic development discussions, and over time, these discussions have focused on sustainable development. In addition, sustainability discussions have led to a change in the traditional views of neoclassical economics on the environment and natural resources and have paved the way for the emergence of new economic movements. These movements; namely, environmental and natural resources economics, which is a sub-branch of neoclassical economics, and the ecological economics movement that emerged as a reaction to this movement. This study examines the historical development of the concepts of sustainability and sustainable development, evaluates the discussions on these concepts through concepts such as intergenerational equity, efficiency in resource allocation, and substitutability of inputs, and explains the current state of these discussions. The positions of economic movements in the sustainability discussions are clearly revealed at the end of this analysis. The review made here also provides a glimpse of the issues that need to be addressed in the sustainability literature in the coming period. Accordingly, it has been identified that there is a need for theoretical and empirical studies on the relationship between sustainability and technological innovations and the substitutability relationship between inputs, as well as empirical studies and country examples on the criteria of weak and strong sustainability.*

***Purpose*** – sustainable development is gaining importance as a critical strategy for overcoming both economic and environmental problems all over the world today. This concept aims to combine the protection of natural resources, economic growth and social equity in order to meet the needs of present generations and ensure that future generations can meet their own needs. Sustainable development not only solves environmental problems, but also contributes to economic and social recovery.

***Methodology***: in the research process, the basic principles of energy efficiency in agricultural production were referred to, and the strategic importance of increasing the energy efficiency of the sector was explained. During the preparation of the article, observation, economic-statistical, scientific abstraction, generalization methods, as well as research on the topic by economists were used.

***Scientific innovation***: the main scientific innovation achieved in the article is the characterization of the energy sustainability system of agricultural production and the identification of directions for creating a favorable environment.

***Keywords*****:** *Sustainability, sustainable development, intergenerational equity, input substitution, strong and weak sustainability*

doi.org/10.61764/lasr.3.2024.107-113

**UOT 330.567**

**Zakir Əlizadə**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*zakiralizada@yahoo.com*

# AZƏRBAYCANDA SÜNİ İMTELLEKT İMKANLARI

***Xülasə***

***Məqsəd*** – Azərbaycanın süni intellekt imkanlarının müəyyənləşdirilməsi və bu istiqamətdə müvafiq təkliflərin verilməsidir.

***Metodologiya*** – məqalədə süni intellek metodlarından istifadə edilməklə modern biznes imkanlarının yaradılması şərtləri qeyd edilmişdir.

***Məqalənin nəticəsi*** – burada müasir Süni İntellekt metodlarının yeni biznes imkanlarının yaranmasında rolu, dövlət və özəl qurumların effektiv idarə edilməsi istiqamətində geniş imkanları qeyd edilir, Süni İntellekt elminin Azərbaycandakı cari vəziyyəti, hazırda ölkədə süni intellekt istiqamətində mövcud olan özəl və dövlət qurumlarına aid təşəbbüslər, Süni İntellektin inkişafı istiqamətində çatışmazlıqlar verilmişdir.

Tədqiqat əsasında Süni İntellekt problemlərinin həlli istiqamətində təkliflər verilmişdir.

***Açar sözlər****: süni intellekt, data əsaslı idarəetmə, yeni texnologiya biznesləri, data strategiyası, konsaltinq tədqiqatları*

## Giriş

Son illərdə ölkəmizdə Süni İntellekt sahəsində oyanış və inkişaf müşahidə edilir. Data elmi və süni intellekt elmi dövlət və özəl qurumların diqqətini daha çox çəkir və Süni İntellekt istiqamətində təşəbbüslər artan sürətdə çoxalır. Texnologiya sahəsində dünyanın ən qabaqcıl tədris müəsisəsi MIT və Süni İntellekt üzrə dövlətlərə və şirkətlərə xidmətlər göstərən dünya nəhəngi IBM şirkətinin birgə apardığı tədqiqatda "Süni İntellekt elminin dövlətlərdə və müəsisələrdə tətbiqinin uğurlu olması üçün zəruri 3 əsas meyardan məhz birincisinin, birbaşa Rəhbər tərəfindən bu elminin tətbiqinin dəstəklənməsi olduğu qeyd olunmuşdu. Aparılan tədqiqatda qeyd edilirdi ki, Süni İntellekt elmi məlumatların təhlili və emalı üzərində qurulması səbəbindən və yüksək innovasiya tutumlu resurs tələb etməsi nöqteyi nəzərindən, rəhbərliyin bu sahəyə diqqət və qayğısı həyata keçiriləcək layihələrin uğurlu olmasın üçün ilkin şərt idi. Azərbaycanda Süni İntellektin tətbiq edilməsi və inkişaf etdirilməsi üçün dövlət tərəfindən dəstəyin mövcudluğu ölkədə bu sahənin inkişaf etdirilməsi üçün əlverişli zəmin yaratmış oldu. Qeyd etmək lazımdır ki, dünyada dövlət rəhbərliyi tərəfindən Süni İntellekt elminin dəstəkləndiyi ölkələr əksəriyyət etibari ilə inkişaf etmiş ölkələrdir.Azərbaycanda Süni İntellekt ilə bağlı ilk təşəbbüslərə "Center for Data Analytics and Web Insight" (CEDAWI) adlı tədqiqat mərkəzi, ASAN Xidmətin və Azercell şirkətinin fəaliyyətlərini aid etmək olar. 2011-ci ildə yaranmış CEDAWI mərkəzi Big Data (Böyük həcmli verilənlərin emalı) istiqamətində elmi tədqiqatlar aparmaq və ölkə daxilində Big Data ilə əlaqəli böyük konfranslar təşkil etməklə tanınırdı. ASAN Xidmət və Azercell şirkəti isə idarəetməsində müasir data elmi və süni intellekt üsullarının tətbiqinə hətta 2010-cu illərdən geniş yer verirdi. Bu ilkin Süni İntellekt və Data Elmi fəaliyyətləri daha sonra müxtəlif formada genişlənmiş və inkişaf etmişdir. CEDAWI mərkəzi ADA Universitetində CEDAR adlı tədqiqat mərkəzini qurmuş və Azərbaycanda ilk dəfə Data Analitikası üzrə magistratura proqramının fəaliyyətə başlamasına nail olmuşdur. ASAN Xidmət tabeçiliyində yaranmış Elektron Hökumətin İnkişafı Mərkəzi də məhz müasir Süni İntellekt və Data Elmi əsaslı yanaşmalarla idarə edilməyə başlanmışdır.

Ölkədə Data Elmi və Süni İntellekt Elminə artacaq tələbatı görən bəzi biznes qurumları bu elmin tədrisi və tətbiqi istiqamətində konsultasiya xidmətləri həyata keçirməyə başlamışdır. Hazırda ölkədə 15-ə yaxın Data Elmi və Süni İntellektin müxtəlif istiqamətlərində xidmət verən Konsaltinq və Tədqiqat şirkətləri fəaliyyət göstərir. Bəzi yerli Data Elmi Akademiyaları artıq ölkəmizdə bu elmin tədrisi istiqamətində uğurlu fəaliyyətlər həyata keçirir. Bu və ya bəznəri təşəbbüslərin ölkədə sürətlə yayılması artıq ölkəmizdə bir çox digər nüfuzlu dövlət və biznes qurumlarında Data və Süni İntellekt elmi istiqamətində fəaliyyətlərin artmasına gətirib çıxarmışdır. Son zamanlar Bakcell və Azerfon kimi digər telekommunikasiya şirkətləri , Paşa Holding, Beynəlxalq Bank, Unibank Expressbank və Azərkosmos kimi nəhəng biznes qurumları o cümlədən Tibbi Sığorta Üzrə Dövlət Agentliyi, Dövlət Turizm Agentliyi kimi müxtəlif Dövlət Agentlikləri də Data və Süni İntellekt əsaslı idarəetməni öz prioritet istiqaməti elan etmiş və bu səpkidə faəliyyətlərə başlamışdır. Müsbət təşəbbüslər və nəticələr olsa da ölkədə Süni İntellekt elminin tətbiqinin inkişaf etdirilməsi və bu elmdən istifadə etməklə ölkənin daha səmərəli idarə edilməsi və gəlirlərinin artırılması istiqamətində hədsiz imkanlar mövcuddur.

**Ölkədə gələcək üçün böyük perspektiv vəd edən Süni İntellekt İmkanları**

Süni İntellekt və Data Elminin tətbiqi iki əsas istiqamətdə ölkəmizə böyük imkanlar vəd edir.

1) Data əsaslı İdarəetmə, Biznes qurumları və Dövlət qurumlarının səmərəli idarə edilməsini təmin edir.

2) Süni İntellekt əsaslı yeni ağıllı məhsullar yaradılaraq ölkədə texnologiya və innovasiya əsaslı Bizneslərin inkişaf etdirilməsi

**Data əsaslı İdarəetmə**

Data əsaslı dövlət idarəetməsinin əsas 5 hədəfi var .

1) Yeni iş yerlərinin yaradılması
2) Vətəndaşların təhlükəsizliyinin inkişaf etdirilməsi
3) Təhsil və bacarıqlarının inkişaf etdirilməsi
4) Yaşam tərzlərinin davamlılığının qorunması
5) Səhiyyə və rifahlarının inkişaf etdirilməsi

Beləliklə şəhərlərdə icra hakimiyyətləri, təhsil şöbələri, xəstəxanalar, polis şöbəsi və digər bütün idarələrin rəhbərləri müasir süni intellekt üsulları ilə performansı rahatlıqla nəzarət altında saxlayır və effektivlik maksimallaşdıra bilirlər.

Data əsaslı müasir üsullarla idarə edilən Prezident Aparatı tərəfindən bütün fəaliyyətlər mütəmadi izlənilir və şəhərlərin performansları artırılır. Artıq bütün müasir dünya dövlətlərinin bir başa Prezident Tabeçiliyində Dövlət Data Agentlikləri mövcuddur. Bu qurumlar ölkənin data strategiyasını hazırlayaraq həyata keçirirlər.

**Süni İntellekt əsaslı Yeni Texnologiya biznesləri**

Hilton otellər şəbəkəsinin robotu Connie müştərilərin suallarını cavablandıra bilir və artıq fəaliyyətdədir. İngiltərədə Arnold adlı robot artıq insanlar arasında sorğular keçirib təhlillər əsasında nəticələr təqdim edə bilir. İngiltərədə insanlar tərəfindən edilən çirkli işlər artıq robotlar tərəfindən icra edilməyə başlanılıb. Wallmartda bəzi insan işlərini artıq robotlar icra edir. Robot dərs deyir, Robot xəbərləri təqdim edir. Robot yemək bişirir. Robot həkim əvəzinə müalicə və əməliyyatlar edir. Robot döyüşçü kimi fəaliyyət göstərir.

Süni İntellekt və Data elminin ölkəmizə qata biləcəyi digər ən böyük dəyər məhz belə yeni Süni İntellekt əsaslı bizneslərin qurulmasıdır ki, bu gün dünyada büdcəsi ölkələrin büdcəsindən dəfələrlə böyük olan və son 5-10 ildə yaranmış yüzlərlə Süni İntellekt əsaslı texnologiya həllərini göstərmək olar.

doi.org/10.61764/lasr.3.2024.107-113

Süni İntellekt və Data Elminin inkişaf etdiyi qərb ölkələri ilə Azərbaycanı müqayisə etdikdə bizdə aradan qaldırılması zəruri olan çatışmazlıqlar aşağıdakılardır.

1) Dövlətin Süni İntellekt və Data Strategiyasının və ümumiyyətlə bu strategiyanı müəyyən edən və idarə edən dövlət qurumunun mövcud olmaması

2) Yerli Süni İntellekt kadrlarının inkişafı istiqamətində dövlət strategiyasının mövcud olmaması

3) Data Təhlükəsizliyi və GDPR əsaslı qanunvericiliyin mövcud olmaması

4) Tədris Sistemi ilə bağlı çatışmazlıqlar

5) Ölkədə Süni İntellekt üzrə vahid platformanın olmaması

6) İnsanların düşüncə tərzləri və vərdişləri

7) Bizneslər və Akademiyalar arasında əməkdaşlığın zəif olması

**1) Dövlətin Süni İntellekt və Data Strategiyasının və ümumiyyətlə bu strategiyanı müəyyən edən və idarə edən dövlət qurumunun mövcud olmaması**

Dünyanın inkişaf etmiş dövlətləri artıq dünyada yeni dövrün başladığını və hər sahədə rəqabət üstünlüyünü yalnız Süni İntellekt üsulları ilə əldə edə biləcəklərini yaxşı anlayırlar. Məhz bu səbəbdən bunu anlayan bütün ölkələrin həyata keçirdikləri ilk fəaliyyət dövlət səviyyəsində Data və Süni İntellekt Strategiyasını hazırlayacaq və və bu elmi ölkədə tətbiq edilməsini və öyrənilməsini inkişaf etdirəcək vahid qurumun yaradılması olur.Bu qurum ölkəni data strategiyasını hazırlamaqla qalmır və bütün dövlət qurumlarında bu prosesi sürətləndirəcək fəaliyyətləri bir başa Dövlət Rəhbərliyinin dəstəyi ilə həyata keçirməyi təşkil edir.

**2) Yerli Süni İntellekt kadrlarının inkişafı istiqamətində dövlət strategiyasının mövcud olmaması**

Data və Süni intellekt elmi müasir və yeni elm sahəsi olduğundan bu sahədə mütəxəssis çatışmazlığı böyükdür. Buna görə Dövlətlər bu elmin tətbiqi istiqamətində kadrların formalaşması üçün fəaliyyətlər həyata keçirir. Məhz kadr strategiyasının qurulması Data və Süni İntellekt elminin uğurlu tətbiq edilməsi istiqamətində həyata keçirilməli ilkin vacib addım olacaqdır.

**3) Data Təhlükəsizliyi və GDPR əsaslı qanunvericiliyin mövcud olmaması**

Ölkədə Data resurslarından və imkanlardan istifadə etmək üçün ən böyük mane Data Təhlükəsizliyi istiqamətində qanunvericiliyin hələ mövcud olmamasıdır. Müxtəlif dövlət və biznes qurumlarının idarəetmə problemlərini həll etmək üçün əksər hallarda öz aralarında məlumat mübadiləsinə ehtiyac yarana bilir. Bu cür mübadilə qərbdə kommersiya maraqları əsasında tənzimlənir. Yəni qurum öz datalarını pul qarşılığında sata bilir. (Data Monetization) Beləliklə həm qazanc əldə edilir, həm də digər qurum bu məlumatlardan təyinatı üzrə istifadə edərək cəmiyyət üçün faydalı bir çox layihələri icra edə bilir.

Əlbəttə məlumat paylaşması özlüyündə təhlükəsizlik və məxfilik kimi məsələləri gündəmə gətirir. Məlumatların istifadəsi və qorunması ilə bağlı Avropada qəbul edilən GDPR əsaslı qanunların tətbiqinə ölkəmizdə balşanılması bir çox riskləri və problemləri aradan qaldıracağı kimi, eyni zamanda böyük qurumların daha çox məlumata çıxaraq problemləri daha səmərəli həll edə bilməsinə və ya müxtəlif problemləri həll etməyə istiqamətlənmiş data əsaslı yeni məhsulların və bizneslərin yaranmasına gətirib çıxaracaqdır.Avropa ölkələri və Amerika artıq bu qanunvericiliyi qəbul edib

**4) Tədris Sistemi ilə bağlı çatışmazlıqlar**

Dünyada böyük uğur qazanmış Süni İntellekt əsaslı startapların tələbələr tərəfindən yaradılıbdır. O tələbələr uğurlarını təhsil sistemlərinə borcludur. Ölkə iqtisadiyyatı da Təhsil Sisteminin nailiyyətlərindən öz faydasını götürür. Həm ixtisaslı kadrlar yetişir həm də ölkəyə böyük gəlir qazandıran innovasiya və texnologiyalar yaranır. Azərbaycan

Universitetlərində də əvvəlki illər ilə müqayisədə inkişaf var.Lakin bir çox problemlər hələ də qalmaqda davam edir.Aşağı əmək haqqı və təhsilin keyfiyyətsiz idarə edilməsi ucbatından bəzi universitetlər əsl mütəxəssisi cəlb edə bilmirlər. Əksər hallarda Universitetlərin elmi tədqiqatçıları real problemləri tədqiq etmir. Peşəkar mütəxəssislər Azərbaycan təhsil sistemində az təmsil olunurlar.Ölkənin müasir dövlət və biznes qurumları ilə eyni dili danışa biləcək müasir universitet idarəçilərimiz azdır.Əlbəttə on il əvvəl ilə müqayisədə ali təhsil sistemində böyük inkişaflar var. ADA Universiteti, Ali Neft Məktəbi və ya digər müasir təhsil qurumları gözəl fəaliyyətlər ilə fərqlənirlər. Son illərdə Təhsildə Keyfiyyət Təminatı Dövlət Agentliyinın yaradılması qeyd olunan məsələlərə əsaslı həllər gətirəcəkdir.

Universitetlər və iş dünyası arasında əlaqə qurulmur. Ölkəmizdə kifayət qədər yüksək peşəkarlığa malik şəxslər özəl şirkətlərdə çalışır və ölkəmizdə dövlət və özəl qurumlar arasında müasir və peşəkar ənənələrlə fəaliyyət göstərənlər kifayət qədərdir. Lakin nə bu qurumlar akademiyalarla dayanıqlı əlaqələrin qurulmasına maraqlıdır nə də universitetlərdə bu əlaqəni qura biləcək müasir rəhbərlər var.

Ölkəmizdəki bütün nəhəng müasir dövlət və biznes qurumları öz daxillərində tədris mərkəzləri və tədqiat mərkəzləri yaradaraq tədrisə və tədqiqata kifayət qədər yüksək məbləğdə vəsait xərcləyirlər. Onlar öz daxilllərində müasir üsullarla keyfiyyətli tədqiqat və tədrisi həyata keçirə bilirlər. Qərb ölkələrində isə Universitetlər və İş dünyası arasında sıx əlaqə mövcuddur. Universitetlər üçün peşəkar mütəxəssislər, peşəkar mütəxəssislər üçün Universitetlər hər cəhətdən cəlbedicidir.

**5) Ölkədə Süni İntellekt üzrə vahid platformanın olmaması**

Ölkəmizdə Data və Süni intellekt sahəsində müxtəlif qurumlar tərəfindən xeyli təşəbbüs mövcuddur. Süni İntellekt çox böyük və fərqli alt qolları olan mürəkkəb sahə olduğundan hər qurum öz təşəbbüslərində yalnız Süni İntellektin bir və ya ən yaxşı halda iki sahəsində ixtisaslaşa bilir. Bəzi qurumlar Böyük Datalarla işləyə biləcək mühəndislik arxitekturasını qurmağa fokuslanır, bəzi qurumlar məhz Vizual təhlillər icra etməyi həyata keçirir. Bəziləri isə tədqiqata, bir başqa qurum isə Süni İntellektin tamamilə ayrı sahəsində fəaliyyət göstərir. Əslində bütün bu qurumların bir birləri ilə koordinasiya içində olması onların birgə böyük qlobal uğurları əldə etmələrinə səbəb ola bilər. Bu həm də ölkəmizdə Süni İntellekt ehtiyaclarının daha effektiv təmin edilməsinə və bu elmin inkişafının öz yerli mütəxəssislərimiz tərəfindən həyata keçirlməsinə münbit şərait yarada bilər. Azərbaycan şirkətləri və dövlət qurumları hər il külli miqdarda vəsaiti məhz xarici data elmi üzrə konsultantlara xərcləyirlər. Belə bir vahid mərkəz və platforma daxilində həm Süni İntellekt və Data Elmi sahəsində fəaliyyət göstərən Akademiyalar, Şirkətlər və Tədqiqat mərkəzləri birgə fəaliyyət göstərərsə ölkənin yerli Süni İntellekt ehtiyaclarını yerli mütəxəssislərlə təmin etmək mümkün ola bilər.

**6) İnsanların düşüncə tərzləri və vərdişləri**

İnnovasiya və Texnologiyalar sahəsində uğurlu ölkələrdəki insanların və qurumların bəzi müsbət vərdişləri onların bir çox sahədə uğurlu olmasına səbəb olur. Belə vərdişləri onlar məhz uşaqlıqdan inkişaf etdirməyə meyilli olurlar. Təssüf ki, belə müsbət vərdişlər ölkəmizdə daha zəif inkişaf edir. Texnologiya və İnnovasiya sahəsində uğuru təmin edən əsas vərdişlərə Paylaşma, Əməkdaşlıq, Komanda ruhu, İnam və qarşılıqlı maraqlar (Kommersiya) səbəb olur. Biznes və kommersiya qaydaları idarə etmə üsullarını effektiv etməkdə görünməz gücə malikdir. Məhz bu səbəblə, Amerika və digər qərb ölkələri hətta əksər dövlət qurumlarını belə biznes əsasları ilə idarə edir ki, səmərəlilik yüksək olsun və nəticələrə daha effektiv nail oluna bilinsin. Belə qurumda çalışan insanların hamısını bir araya gətirən məqsəd biznes maraqları olur. Müəsisə də gəlir qazanmağı hədəflədiyindən daima ən yaxşı işçiləri seçməyi və daha keyfiyyətli xidmət göstərməyi hədəfləyir. Biznes

modeli ilə idarə etmənin məqsədi odur ki, əgər qurum məhz öz fəaliyyəti ilə pul qazana bilmirsə deməli dəyər formalaşdıra bilmir. Bu cür kommersiya qaydaları ilə idarə etməyə keçidi məhz Təhsil Qurumları ilə başlamaq ən doğru addım olardı. Digər vərdiş isə əməkdaşlıqa və komanda ilə işləməyə meyillilikdir. Böyük uğurlar əməkdaşlıqlar əsasında qurulur. İnam və etibar olmadan əməkdaşlıq mümkün deyil. Müasir dünya praktikasına uyğun olaraq bu formada akademik sferada təmsil olunma dünyanın ən qabaqcıl qurumlarında təşviq edilir və dəstəklənir.

**7) Bizneslər və Akademiyalar arasında əməkdaşlığın zəif olması**

Universitetlərdəki keyfiyyət problemləri İş dünyası və Universitetlər arasındakı zəruri olan əməkdaşlığı zəifldədir. Halbuki Amerikada, Avropada ən nəhəng şirkətlərin və dövlət qurumlarının ən vacib tədqiqatları məhz Universitet daxilində fəaliyyət göstərən mərkəzlər tərəfindən həyata keçirilir.

**Nəticə və təkliflər**

Azərbaycanda sənayenin müasir inkişaf səviyyəsinin və bu sektorda əmək resurslarından istifadənin mövcud vəziyyətinin təhlili əsasında formalaşan aşagıdakı elmi nəticələr blokunu qeyd etmək olar:

1. Dövlət Süni İntellekt və Data Agentliyi yaradılmalı və Dövlətin Süni İntellekt Strategiyası hazırlanmalıdır.
2. Dövlət Süni İntellekt Kadr strategiyası hazırlanmalıdı
3. GDPR və şəxsi dataların qorunması haqqında qanun qəbul edilməli və nəzarət mexanizmi qurulmalıdır.
4. Ölkədə Süni İntellekt üzrə təşəbbüsləri Koordinasiya edən və dəstəkləyən vahid platforma yaradılmalıdır.
5. Universitetlərin idarəedilməsi biznes qaydaları ilə həyata keçirilməli və Universitet rəhbərləri biznes bacarıqları olan qərb təhsilli və təcrübəli mütəxəssislər arasından seçilməlidir. Hər kafedraya müstəqil biznes kimi yanaşılmalı, kafedranın müstəqil gəlir qazanmasına şərait yaradılmalı və kafedranın qazancından müəllimlərə istədiyi əmək haqqını təyin edə bilmə səlahiyyəti verilməlidir. Tələb təklif münasibətləri keyfiyyətli tədrisi daima təmin edəcəkdir.
6. Universitetlərdə, məktəblərdə və bağçalarda müasir dövrdə uğur qazanmağı dəstəkləyən vərdişlərin yaradılması istiqamətində kurrikulumlara əlavələr edilməlidir.
7. Bizneslər və Akademiyalar arasında əməkdaşlıq qurulmalı və yerli dövlət və biznes qurumları Universitet tədqiqat mərkəzlərinə real biznes sifarişləri verməlidir.

## ƏDƏBİYYAT

1. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri".2016
2. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"
3. 3.Azərbaycanın statistik göstəriciləri. Bakı."Səda nəşriyyatı " .2022
4. Azərbaycan-faktlar və rəqəmlər. AR DSK, Bakı: – 2022
5. https://strategy.data.gov/
6. www.stat.gov.az

doi.org/10.61764/lasr.3.2024.107-113

**Закир Ализаде**

## ВОЗМОЖНОСТИ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В АЗЕРБАЙДЖАНЕ

*Резюме*

***Цель*** **–** выявление возможностей искусственного интеллекта Азербайджана и внесение соответствующих предложений в этом направлении.

***Методология*** – в статье изложены условия создания современных бизнес-возможностей с использованием методов искусственного интеллекта.

***Заключение статьи*** **–** здесь отмечена роль современных методов искусственного интеллекта в создании новых возможностей для бизнеса, широких возможностей в направлении эффективного управления государственными и частными учреждениями. Отражено современное состояние науки искусственного интеллекта в Азербайджане, инициативы, связанные с частными и государственными учреждениями в области искусственного интеллекта.

Для решение проблемы по недостаткам в развитии искусственного интеллекта дано предложение:

1. Необходимо создать Государственное агентство искусственного интеллекта и данных и подготовить Государственную стратегию в области искусственного интеллекта.
2. Должна быть подготовлена государственная кадровая стратегия по искусственному интеллекту.
3. Необходимо принять GDPR и закон о защите персональных данных, а также создать механизм контроля.
4. Должна быть создана единая платформа для координации и поддержки инициатив по искусственному интеллекту в стране.
5. Управление университетами должно осуществляться в соответствии с бизнес-правилами, а руководители университетов должны выбираться из числа образованных и опытных специалистов, обладающих западными навыками ведения бизнеса. К каждому факультету следует относиться как к независимому бизнесу, необходимо создать условия для того, чтобы факультет получал независимый доход, а преподавателям следует предоставить право устанавливать желаемую зарплату из доходов отдела. Отношения спроса и предложения всегда будут обеспечивать качество образования.
6. В университетах, школах и детских садах следует вносить дополнения в учебные программы с целью формирования привычек, поддерживающих успех в современную эпоху.
7. Должно быть установлено сотрудничество между бизнесом и академиями, а местные органы власти и бизнес-организации должны давать реальные бизнес-заказы университетским исследовательским центрам.

***Ключевые слова****: искусственный интеллект, управление на основе данных, новые технологические предприятия, стратегия данных, консалтинговые исследования*

**Zakir Alizada**

## ARTIFICIAL INTELLIGENCE OPPORTUNITIES IN AZERBAIJAN

***Summary***

***The goal is to identify*** the capabilities of Azerbaijan's artificial intelligence and make appropriate proposals in this direction.

***Methodology*** – the article describes the conditions for creating modern business opportunities using artificial intelligence methods.

***The conclusion of the article*** is that the role of modern artificial intelligence methods in creating new business opportunities and broad opportunities for effective management of public

and private institutions is noted here. The current state of artificial intelligence science in Azerbaijan, initiatives related to private and public institutions in the field of artificial intelligence are reflected. To solve the problem of shortcomings in the development of artificial intelligence, a proposal is given:

1. The State Artificial Intelligence and Data Agency should be established and the State Artificial Intelligence Strategy should be prepared.

2. State Artificial Intelligence Personnel strategy should be prepared

3. GDPR and the law on personal data protection should be adopted and a control mechanism should be established.

4. A single platform should be created to coordinate and support initiatives on Artificial Intelligence in the country.

5. The management of the universities should be carried out according to business rules, and the heads of the universities should be selected from western educated and experienced professionals with business skills. Each department should be treated as an independent business, conditions should be created for the department to earn an independent income, and teachers should be given the authority to set their desired salary from the department's earnings. Supply and demand relationships will always ensure quality education.

6. In universities, schools and kindergartens, additions should be made to the curricula in order to create habits that support success in the modern era.

7. Cooperation between businesses and Academies should be established and local government and business organizations should give real business orders to University research centers.

***Keywords:*** *artificial intelligence, data-based management, new technology businesses, data strategy, consulting research*

doi.org/10.61764/lasr.3.2024.114-124

**UOT 053**

**Niyar Umarova**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, tex.ü.f.d., dos.*
*niyar61@list.ru*
ORCİD:0009-0000-3747-3459

# AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN TANINMASINDA İKT-nin ROLU

***Xülasə***

*Məqalədə Azərbaycanın zəngin təbiəti, qeyri-adi mənzərələri, adət-ənənələrimiz, xalqımızin qonaqpərvərliyi, respublikamızdakı din azadlığı, ölkəmizin turizm potensialı və onun inkişfı, Azərbaycanın ürəyi Şuşanın qeyri-adi füsunkarlığı, özünə xas fərqliliyi, Dağlıq Qarabağ torpağının 30 illik əsrlik dövrü, onun başına gələn müsibətlər, ermənilər tərəfindən Qarabağda yaşayan insanlara, onun torpağına, təbiətinə qarşı törədilən qətliyamlar, 44 günlük müharibə və qələbəmiz, "Dəmir Yumruq" əməlliyyatı, Şuşanın alınmasında adını dünya tarixinə yazan qeyri-adi əməliyyatlar və igid oğullarımızın qəhrəmanlıqları haqqında ümumi məlumat verilir. Məqalədə eyni zamanda dünyada İKT sahəsinin inkişafı və tətbiqinin üstünlükləri, Azərbaycan Respublikasında informasia emalı texnologiyalarının inkişafına göstərilən diqqət, inkişaf tendensiyasına uyğun olaraq bu yönümlü layihələrin qəbul edilməsi və onların tətbiqi, Qarabağ ərazisində aparılan yenidən qurma işləri və "Ağıllı" layihələrin tətbiqi məsələlərinə də toxunulmuşdur.*

***Məqsəd*** – Azad olmuş Dağlıq Qarabağ torpağında "Ağıllı" layihələrin tətbiqi və Azərbaycan Respublikasında yeniləşən texnolgiyalardan istifadənin üstünlüklərinin verilməsidir.

***Metodologiya*** – məqalədə müvafiq əsaslandırma və məntiqi-sistemli təhlil metodundan istifadə edilmişdir.

***Tədqiqatın nəticələri –*** Müasir cəmiyyətdə İKT sistemlərinin tətbiqini təhlil edərək, ölkənin istehsal-iqtisadi potensialının inkişafında necə rol oynaması göstərilmişdir.

***Açar sözlər –*** *Soyqırım, Şuşa, İKT, "ağıllı" layihələr*

## Giriş

Azərbaycan qeyriadi flora və faunası, füsunkar təbiəti, zəngin torpaqları, müxtəlif sahəli dağlıq və aran ərazilərə malik olması ilə həmişə diqqət mərkəzində olub. Ölkəmiz qonaqpərvərliyi və özünə xas mədəniyyətilə həmişə seçilib. Azərbaycan gənc respublika olmasına baxmayaraq bütün sahələrdə (məsələn, informasiya emalı texnologiyalarının inkişafı və tətbiqi, digər sənaye sahələrinin müasir səviyyədə inkişafının təmini, süni peyklərin tətbiqi, kənd təsərrüfatı sahələrinin yeni texnologiya ilə təminatı, yaşıllaşdırmanın kütləvi şəkildə aparılması, tranzit yolların çəkilişi, "ağıllı" layihələrin tətbiqi və s. ) sürətlə inkişaf edir. Qədim Böyük İpək yolunun yenidən bərpası bir çox ölkələrin diqqətini yenidən ölkəmizə cəlb edib.

Bütün dünya xalqlarında olduğu kimi bizim də özümüzə xas adətənənimiz var. Məsələn, xalqımız tərəfindən xüsusi maraqla gözlənilən Novruz bayramının (2009-cu il sentyabrın 30-da Novruz bayramı YUNESKO (UNESCO) tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş, 23 fevral 2010-cu ildə isə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında mart ayının 21-i "Beynəlxalq Novruz Günü" elan edilmişdir. https://az.wikipedia.org/wiki/Novruz_bayram) keçirilməsi və ona xas olan milli atributları haqqında kitablar yazmaq olar. Eyni zamanda qeyd etmək lazımdır ki, ölkəmizdə din azaddır və hər bir millətin dininə, ayinlərinə, dini bayramlarına xüsusi hörmətlə yanaşılır. İslam dininə xas olan və xüsusi maraqla keçirilən Qurban bayramı, Ramazan bayramı, həmçinin Novruz bayramı ərəfələrində ölkəmizi çoxlu turistlər zirayət edir.

doi.org/10.61764/lasr.3.2024.114-124

Xalqımıza xas olan, naxışlarına görə dünyaya səs salan, texniki xüsusiyyətlərinə görə xovlu və xovsuz olaraq seçilən xalçaçılıq haqqında xüsusilə danışmaq olar (Qazıntılar zamanı məlum olmuşdur ki, Azərbaycanda xalça toxuculuğu 5 min il əvvələ (tunc dövrünə) aiddir). Milli mədəniyyətimizdən danışarkən bizə xas olan səs tempi ilə seçilən müğamları xüsusilə vurğulamaq lazımdır. Muğamımız 2008-ci ildə YUNESKO (UNESCO) tərəfindən "bəşəriyyətin mədəni irs" siyahısına daxil edilmişdir. Ölkəmiz öz milli sərvətlərinə aid olan olan nefti, qazı, balıq ikrasını, qızılı, zəfəranı, pambığı, fındığı, nar şirəsini, şərabı, quru südü və s. dünyaya ixrac edir. İl ərzində qeyri-enerji ixracı isə 25 % artıb, qazın ümumi ixracı təqribən 22-23 milyard kubmetr təşkil edir, ümumilikdə isə, bizim qaz ehtiyatımız 2,6 trilyon kubmetrə bərabərdir (https://azertag.az/xeber). Azərbaycanda pambığın və irək qurdunun yetişməsi üçün olduqca münbit şərait var.

Ölkəmiz səfalı guşələri, maraqlı mənzərələri ilə də seçilir, ona görə də turizmin inkişafı üçün geniş potensiallar var. (Turizm sahələri müxtəlifdir, bunlara misal olaraq - mədəni, sağlamlıq, dağ və qış, idman, işgüzar, çimərlik, ekoloji, ov və qara turizm sahələrini göstərmək olar.) Dünya səviyyəsində turistlərəi ölkəyə cəlb edən potensiallarımıza aşağıda adları qeyd olunanları misal göstərmək olaq:

- Qız qalası, Atəşgah məbədi, Şirvanşahlar Sarayı kompleksi, İçəri şəhər;
- Qobustanın qayaüstü təsvirləri və palçıq vulkanları;
- Qusar "Şahdağ" Qış-Yay Turizm istirahət kompleksi;
- Xaçmaz rayonunun "Nabran" kurort turizmi;
- Quba rayonunun əsrarəngiz görünüşü, "Cənnət bağı", "Şahbulaq" və s. istirahət mərkəzləri;
- Lənkəran böləsinin nadir qoruqları və istirahət guşələri;
- Qaz, Zaqatala, Balakən ərazisində yerləşən meşəliklər, qoruqlar, şəlalələr;
- İsmayıllı –Lahıc qəsəbəsinin füsunkar görünüşü və təbiəti;
- Memarlıq sənətinin nadir incilərindən olar və özünə xas mozaikası ilə seçilən Şəki Xan sarayı, Alban kilsəsi, Marxal istirahət mərkəzi;
- Qəbələ rayonunun dağlıq və meşəlik ərazisi, onun füsunkar mənzərəsi, "Semerana" "Duyma" və s. istirahət mərkəzləri, "Qəbələn" əyləncə mərkəzi, "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət kompleksi;
- Mingəçevir şəhərində "Kür" çayı üzərində kürəkçəkmə idmanı;
- Naxçıvan ərazisində yerləşən əsrarəngsiz mənzərələr, təbii müzeylər, Möminə xatın və Yusif ibn Küseyir türbələri, müalicəvi düz mərkəzi;
- *Zəngin tarixi-mədəni irsə, əlverişli təbii-coğrafi şəraitə malik olması,* havası, suyu və təbiətinin gözəlliyi ilə seçilən Dağlıq Qarabağ zonasının müxtəlif turizm məkanları;
- Kəlbəcər və Laçın rayonlarının qədim abidələri, səfalı güşələri, dağlıq əraziləri;
- "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və s. adlandırılıan Şuşa şəhərinin əlverişli mühiti, Pənahəli xanın sarayı, Xurşidbanu Natəvanın evi, gözöxşayan təbiəti, təmiz havası, səfalı güşələri və s. (Umarova, 2021: 16)

Lakin belə zənginliyə malik olan ölkəmizi zəbt etmək üçün ta qədimdən mənfur düşmanlar tərəfindən xüsusi olaraq planlı şəkildə tədbirlər hazırlanaraq həyata keçirməyə çalışmışlar. Əsasən XIX əsrin sonu və XX əsrın əvvəllərindən etibarən Kişik Qafqaz dağlarının füsunkar təbiətinin gözəlliklərini özündə birləşdirən Dağlıq Qarabağ torpağını zəbt etmək üçün bəzi qonşu dövlətlər planlı şəkildə mənfur siyasət işlətməyə çalışmışlar. Hətta bunun üçün onlar keçən əsrin axırlarında insanlığa yaraşmayan qətliyamlarıda törətmişlər. Düşmanlarımız utanmadan törətdikləri qətliyamları, həyata keçirdikləri mənfur siyasəti bizim üzərimizə atmağa çalışmaşlar. Lakin adını tariximizə qızıl hərflərlə yazan, öz qanı ilə vətənini yuyan igid oğullarının qəhrəmanlıq şücaəti nəticəsində mənfur düşmənlər həmişə öz cəzalarını layiqincə almışlar. Xalqımızın qəlbində daim yaşayan Koroğluları, Babəkləri, Cavanşirləri,

Cavadları, Nəbiləri, Çingizləri, Xəzərləri, Mübarizləri, Poladları və s. kimi neçə-neçə igidləri var.

**I və II Qarabağ müharibəsi şəhidlərinin İKT-də təbliği**

Qədimdən Azərbaycan ərazisinə aid olan və xüsusilə özünə xas rəngarəngliyi ilə seçilən Qarabağ torpağı sonradan burada yerləşdirilən ermənilərin mənfur siyasəti nəticəsində əsarətə məruz qalmışdır. Bu 30 il xalqımızın qəlbində qara hərflərlə yazılmışdır. 30 il düşmənlərimizin əlində qalan ərazilərimizin bütün yaşayış sahələri, bu yerin flora və faunası onlar tərəfindən ağlagəlməz dərəcədə qətlyama məruz qalmışdır.

Ümimiyyətlə dünya tarixinə adını qara hərflərlə yazan və soyqırım faciələrini yaşamağa məcbur edilən müxtəlif xalqlar olmuşdur (https://az.wikipedia.org/wiki/). Məsələn, Srebrenitsa, Ruanda, Namibiya, Kamboca, Oradur, Tasmaniya, Amerika, Holokost, Oradur, Ruanda, Srebrenitsa, Myanma. Çox təəssüflər olsun ki, bu qətlyamlar siyahısına Xocalınında adı əlavə olundu. Xocalı faciəsində insanlığa sığmayan vəhşiliklər törədilmişdir. Vətənimizin qan yaddaına yazılan faciəli günləri qeyd edərkən 31 mart soyqırımını, Quba məzarlığını, azadlıq üçün ömürlərini fəda edən vətən övladlarının qətlyamına səbəb olan və ürəklərimizi sızladan 20 yanvar hadisələrini (faciəsini) xüsusilə qeyd etmək lazımdır (Şəkil 1).




**Şəkil 1. Soyqırım faciələrimiz**

Digər hadisələrdə olduğu kimi burada törədilən hadisələrin dünyaya tanınmasında da informasiya emalı texnologiyaları əvəzsiz rol oynamışdır.

Artıq 90-cı illərdə olduğu kimi birtərəfli müharibə getmir. Çünki, qafqaz regionu üzrə ilk kosmik sənaye ölkəsi olan vətənimiz optik texnologiyalar bazasında inkişaf edir və media sahələrində xüsusi aktivlik göstərərək, informasiyaların şəffaf, düzgün, real ötürülməsini təmin etməyə çalışırlar. Ermənilər real cəbhədə olduğu kimi informasiya müharibəsində də uduzdular, onların dünyaya yaymağa çalışdıqları yalanlara (yalan məlumatlar, saxta videolar və s.) bizim mütəxəssislər layiqincə cavab verdilər. 30 il erməni əlində olarkan Qarabağda törədilən təbiət qətliyamı şəkil 2-də cüzi də olsa göstərilir.



**Şəkil 2. Düşmən qətlyamına məruz qalmış Qarabağ həqiqətləri**

Düşmən əsarətində qalan Dağlıq Qarabağ ərazisi hörmətli Ali Baş Komandan İlham Əliyevin düzgün siyasəti və igidlikləri ilə dillərə dastan olan, vətəni üçün canından keçən

doi.org/10.61764/lasr.3.2024.114-124

igid oğullarımızın qəhrəmanlıq şücaəti nəticəsində 30 ildən sonra rahat nəfəs almağa başladı. 44 günlük (27.09.2020- 08.11.2020) "Dəmir Yumruq" adı altında aparılan İkinci Qarabağ müharibəsi Zəfər tarixi ilə bitdi. 10.11.2020-ci il tarixində isə İ. Əliyev, V. Putin və N.Paşinyan arasında atəşkəs bəyanatı imzalandı (https://az.wikipedia.org/wiki/2020). Adını dünya tarixinə qəhrəmanlıq şücaəti ilə yazdıran Qarabağın tacı, Azərbaycanın qədim mədəniyyət beşiyi olan Şuşanın alınmasında istifadə olunan taktikanı (nəticəni əldə etmək üçün istifadə olunan bütün yollar və metodlar) və təcrübəni bir çox ölkələr öyrənməyə çalışırlar. Gözöxşayan təbiətilə seçilən igid övladlarımızın xüsusi qəhrəmanlıqları ilə Şuşa şəhəri 2020-ci il noyabrın 8-də işğaldan azad edildi. Ölkə Prezidenti 05.01.2022-ci il tarixində Şuşanın alınması şəfərinə 2022-ci ilin "Şuşa ili" elan edilməsi haqqında Sərəncam imzalamışdır.

*Qələbəmizdə haqlı olduğumuzu bilərək, bizə mənəvi dayaq olan ölkələrə, xalqlara, insanlara dərin təşəkkürümüzü bildiririk.*

Düşmənlərdən azad olan Qarabağ torpagının bərpası üçün ölkə Prezdentinin bilavasitə rəhbərliyi və nəzarəti ilə bir çox işlər görülür, yeni layihələr qəbul edilərək, tətbiq olunur. Bu ərazilər ilk növbədə minalardan təmizlənir, sonra dünya standartlarına cavab verə bilən yeni yollar çəkilir. Hazırda "Yaşıl enerji zonası"nın (günəş, külək, biokütlə, termal, geotermal və digər bərpa olunan enerji potensialının öyrənilməsi, tətbiqi) yaradılması istiqamətində uğurlu addımlar atılır, ağıllı intellektual elektron lahiyələrdən istifadə edilərək, yeni şəhərlər və kəndlər salınır. Burada tətbiq olunan və müasir texnologiyalara cavab verə bilən sistemlərin yaradılması və tətbiqində dünya təcrübələrindən istifadə olunur.

## İKT-nin tətbiqi xüsusiyyətləri

Dünyanın qlobalaşmasına geniş imkanları yaradan əsas vasitələr informasiya emalı texnologiyalarıdır, yəni, yaşadığımız müasir informasiya cəmiyyətinin əsas aparıcı qüvvəsi İKT və internet-şəbəkə sistemləridir. Məsafəni nəzərə almadan sürətli qarşılıqlı virtual əlaqəni təşkil edən və cəmiyyətin demokratikləşdirilməsi proseslərində başlıca rol oynayan İKT vasitələrindən düzgün istifadə etmək insan təvəkkürünü inkişaf etdirir. Hazırda İKT-dən kütləvi şəkildə istifadə olunması qlobal informasiya mühitinin yaradılmasına, intellektual texnologiyalara əsaslanan biliklər bazasının inkişafına, bulud (Cloud) texnologiyasının inkişaf etdirilməsinə və informasiya iqtisadiyyatının (keşən əsrin 60-cı illərində yaranan bu sahə İKT tətbiqinin təzahürüdür) yaranmasına səbəb olmuşdur. Ümumiyyətlə, İKT sistemləri və onun əlaqə vasitələrindən istifadə insanların intellektual səviyyəsini artırmaqla bərabər, eyni zamanda dünyada baş verən inteqrasiya proseslərinin aktivliyində də əvəzedilməz rola malikdir. Hazırda bütün sahələrdə İKT məhsullarının tətbiqi ilə istənilən məsələləri həll etmək, məlumat axtarmaq, əlaqələr yaratmaq və s. mümkündür. İnformasiya emalı texnologiyalarının tətbiq olunduğu sahələrə misal olaraq aşagıdakıları göstərə bilərik:

- *Bank sistemləri* (məsələn, BankONet, Macrobank4, PowerCard, Cash@Will, FinnOne, CHIPS, R-Stvle Softlab, RS-Bank V.6,FedWire, Swift və s.);
- Nəşriyyat sistemləri (burada adətən mətn və qrafiki redaktorların imkanlarından birlikdə istifadə olunur, bu proqramlara misal olaraq Page Maker, Ventura Publisher, QuarkXPress və s. göstərmək olar);
- Turizm (məsələn, *MASTER TUR, CAMO-TYP, TURWIN MULTIPRO AMADEUS, GALILEO, SABRE, WORLDSPAN* və s.);
- Mühasibat məsələrinin həlli (məsələn, SAP/R3paketi, Oracle Appalications, Baan IV paketi, Renaissance CS sistemi, "Project Expert 5" sistemi, "1С: Предприятие 8." sistemi, "MS BackOffice" və s);

- Kompyuter qrafikası (məsələn, Adobe Photoshop, Picture Publisher, Photostiller, Corel Draw, Macromedia DreamWeaver, Ulead Gif Animator Autodesk 3D Studio Max, Maya, 3D, Wing3D, AutoCAD, ArchiCAD, OrCAD, MathCAD, Fractal Explorer, Amtemu və s).
- Bazaların yaradılması (məsələn, FoxBase+, dBase, Clipper, Dbase for Windows, FoxPro, Database, Sybase, Ms Access, Progress, Paradox, Vizual Foxpro Oracle, SQL Server; Delphi; SQL İnterbase; ADABAS və s.);
- İnformasiya mühafizə sistemləri (məsələn, Dr. Solomon's Anti-Virus Toolkit, Norton AntiVirus, Doctor Web, Aidstest, AVP, AntiViral Toolkit Pro Scaner; AIDSTEST, MsAfee VirusScan, Avira, Avast İnternet Security, Nod 32, Trend-Mikro, Kav-Personal Pro, Antivirus Plus, Panda Antivirus Pro, G Data AntiVirus, BullGuard AntiVirus və s.);
- İnternet axtarış sistemləri (məsələn, Google, Yahoo, Oingo, MSN Search (BING), Altavista, Toema, Deja, Fast, Snap, Eurosee, Infoseek, Opentext, Aport, Yandex, Rambler, Ask.com, AOL.com, Blekko.com, Wolframalpha.com (archive.org), DuckDuckGo.com, ChaCha.com (Alexan ) və s.);
- Veb proqramları (məsələn, HTML, SQL, CSS, C++, PHP, Ruby, Python, Java, JavaScript və s.); Süni intellekt proqramları (ChatGPT, Midjourney, DALL.E 2, Beatoven.ai, Magic Eraser, Podcastle.ai, Python, C ++, Proloq, R, Scala, Julia, Rust, Lisp və s.).

Hazırda GPS peyk naviqasiya sistemlərindəki elektron ötürücülər vasitəsilə nəqliyyat vasitələrinin işinə nəzarət etmək, yollarin istiqaməti haqqında məlumat almaq və s. mümkündür.

Elektron texnologiyaların istifadəsindən danışarkən sosial şəbəkələr və onların təsir gücünü xüsusilə qeyd etmək lazımdır. Məsafədən asılı olmayaraq sosial şəbəkələr vasitəsilə qarşılıqlı ünsiyyət yaratmaq, səmərəli və maraqlı vaxt keçirmək, istənilən mövzular barədə müzakirələr aparmaq, lazım olan sorğulara cavab tapmaq kimi müxtəlif əməliyyatları isra etmək mümkündür. Fərqli maraq dairələri olan insanlar bu sistemlər vasitəsilə birləşirlər. Hazırda dünya ölkələri tərəfindən müxtəlif sosial şəbəkələrdən, virtual foto və video paylaşma əlaqələrindən istifadə olunur, məsələn,_WhatsApp, Facebook, TikTok, YouTube, Twitter, İnstagram, "Facebook Messenger" (Facebook tərəfindən xəbər və videoların sürətli mübadiləsi üçün yaradılmışdır), MySpace, Reddit, Sina Weibo, WeChat, Nexopia, Tagged, Friendster, Multiply, Orkut və s.

Covid19 pandemiyası dövdündə vəziyyətlə əlaqədar yaranan təhlükələrin azalması üçün sərt karantin rejiminin tətbiqinə keçirildı. Əlaqələrin real müstəvidən virtual onlayn (online) əlaqəsinə keçməsi cəmiyyətdə informasiya emalı texnologiyalarına xüsusi maraq yaratdı. Həmin dövrdə dünyada İKT sahəsində informasiya emalı texnologiyalarının tətbiqinin təzahüründən yaranan qlobal telesağlamlıq (ing.-telehealth) marketi daha da sürətlə inkişaf etməyə başladı. Hazırda isə bu bazarın böyüməsi və inkişafının artması planlaşdırılır. İKT telesağlamlığa aid bazarın 2024-2025-ci illər ərzində inkişafının 24,1% artması və gəlirin 17,2 milyarda qədər çatması nəzərdə tutulur.

**Azərbaycanda İKT-nin rolu**

İnkişaf etmiş ölkələrdə olduğu kimi Azərbaycan Respublikasında İKT sənayesinin formalaşdırılması, informasiya emalı texnologiyalarının yeniləşən versiyalarının öyrənilməsi və ona uyğun olaraq həmin sahənin kadr patensialının inkişafı, İT modernləşdirilməsi, rəqəmsal iqtisadiyyatın inkişafı, mobil əlaqələrin əlçatan olması və s. istiqamətində bir çox layihələr qəbul edilərək, tətbiq olunur.

doi.org/10.61764/lasr.3.2024.114-124

Daim aktiv fəaliyyət göstərən elektron hökumət (Prezidentin 23.05.2011-ci il tarixli 429 nömrəli Fərmanına əsasən 2012-ci ilin aprelində Elektron hökumət portalı istifadəyə verilmişdir) yüzlərlə portalları özündə birləşdirir. "Mobil hökumət - mobil imza" layihəsində mobil telefonlar vasitəsilə elektron imzanı mobil imza əvəz edəcək. Azərbaycan brendi adını almış "Asan xidmət"-in (13.07.2012-ci ildə yaradılıb. ASAN - ing. "Azerbaijan Service and Assesment Network"dir - Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi) iş təcrübəsindən, onun vaxta qənaət etməyə imkan verən əlverişli proqramlardan, mobil notariat əlaqələrinin iş sistemindən bir çox dünya ölkələri istifadə edir. 09.08.2018-də yaradılmış DOST (Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi) mərkəzlərinin fəaliyyətindən aktiv şəkildə istifadə olunur. Hazırda "ASAN Login"ə "Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi" (e-Agro), Dövlət Satınalmalarının Vahid İnternet portalı (e-Satınalma), "ASAN ödəniş", e-sosial, "myGov" şəxsi kabinet əsaslı elektron hökumət platforması, Dövlət Gömrük Komitəsi və digərləri olmaqla 28 qurum və 60-a yaxın sistem inteqrasiya edilib.

Azərbaycanın "Azərspace-1" (08.02.2013), "Azerspace-2" (26.09.2018) süni peykləri müxtəlif xidmətlər göstərir. Onun xidmətlərinə - telelviziya və radio kanallarının yayımlanması, rabitə platformalarının təmini, internet şəbəkəsinə daxil olma, rəqəmsal teleradioyayım sistemi, məlumatlar bazasının yaranması və ötürülməsi və s.aiddir.

Ölkədə fəaliyyət göstərən və İT xidmətləri üzrə istismar xərclərini 40 % azaltmağa imkan yaradan Data Mərkəzi TİER III sertifikatına layiq görülüb. Hazırda optik texnologiyalar bazası dünya inkişaf səviyyəsinə uyğun olaraq inkişaf edir. TASİM layihəsi BMT-nin Baş Assambleyası tərəfindən yüksək qiymətləndirilib. "Genişzolaqlı İnternetin İnkişafı üzrə Dövlət" proqramı qəbul edilərək, tətbiq olunur. Ölkə Prezidentinin 14.03.2018-ci il tarixli Fərmanı ilə AR Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "Elektron Hökumətin İnkişafı Mərkəzi" yaradılıb. 2017-ci ildən E-hökumət portalında "Elektron ipoteka" sistemindən istifadə olunur (Umarova, 2021: 67). Hazırda elektron imza və e-Aqro aktiv fəaliyyət göstərir (buradakı imzalama transaksiyasının sayı milyonlarladır), "Asan xidmət"in tərkibində mobil əlçatanlığa lazımi şərait yaradılıb və mobil notariat fəaliyyət göstərir. Alıcılara qarşı pul tələbi hüququnun banka güzəşt etməsi ilə əlaqədar olaraq banklar kiçik və orta sahibkarlar üçün *FAKTORİNQ xidməti* təklif edir. Ölkədə nəqliyyatda "İntellektual idarəetmə mərkəzi" sistemi, nəqliyyat kartlarının tətbiqi, on-layn (online) bilet satışı, virtual pul mübadiləsi sistemi, xəstəxanalarda vətəndaşların elektron sağlamlıq kartı, banklarda plastik kartların tətbiqi, banklararası sistemlərin sürətli virtual əlaqəsinin qurulması, "elektron imza"dan istifadə, e-müsabiqələr, vergi hesab-fakturasının elektron formada təqdim etmə imkanı və s. uğurlu şəkildə fəaliyət göstərir. İKT-nin tətbiqi ilə təhsil sistemində distant təhsildən istifadə etmək imkanı yaranmışdır, e-kitabxanalar, Mobil kitabxana "Bookmate" və s. aktiv fəaliyyətdədir. "Hökumət buludu"nun yaradılması və "Bulud xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında" Fərman 03.06.2019-cu il tarixində imzalanmışdır.

Hazırda e-ticarət bütün dünyda ən aktiv fəaliyyət göstərən sahələrdən biridir. Son illər Azərbacanda e-ticarət yüksək səviyyədə inkişaf edir. "Azexport" portalı "Made in Azerbaijan" adı altında daxili mallarımızı (yerli mənşəli mallar, bunlara misal olaraq, pambıq mahlıcı, toyuq əti, tütün, pambıq toxumu, noxud, meyvə tamlı süd, tikinti materialı, toyuq yumurtası, çay, şərab, nar şirəsi, bitki yağı, biyan kökü, şirniyyat, tibbi zəli və s.) dünyaya tanıtdırır. Azərbaycanda səhm almaq üçün elektron mağaza yaradılıb. 2017-ci ilin yanvar ayından 2021-ci ilin 31 may tarixinədək (53 ay ərzində) *Azexport.az* portalına dünyanın 145 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 2,390 mlrd. dollar təşkil edib. 2021-ci ilin yanvar-may aylarında e-ticarət ümumi nağdsız ödənişlərin əsas payını

doi.org/10.61764/lasr.3.2024.114-124

təşkil edib 52,9% (həmin aylarda əhali tərəfindən bank kartları vasitəsilə e-ticarətdə 1,846 mlrd. manatlıq ödəniş edilib) *01.01.2021-ci il tarixindən etibarən "Sadələşdirilmiş Bəyannamə - Elektron Ticarət" (Smart Customs) layihəsi tətbiq olunur. (*https://www.rabitabank.com/pos-terminallar), Visa payWave kartları ilə toxunmadan ödəniş imkanını həyata keçirmək mümkünləşir.

İKT sektorunda məhsul (xidmətlər) buraxılışı, İKT sektorunda yaradılmış əlavə dəyərin həcmi, İKT məhsullarının idxal həcmləri verilmişdir (cədvəl 1) *(*https://stat.gov.az/source/communication/*)*

Ölkəmizdə və dünyanın bir çox ölkələrində keçirilən Ekspo sərgilərində (məsələn, Milan, Antalya və Astana, Dubay və s.) Azərbaycan "Made in Azerbaijan" brend malları ilə uğurla çıxış edir. Bu cür beynəlxalq sərgilərdə təqribən 190-a yaxın ölkə öz məhsullarını təmsil edir. Belə sərgilərdə iştirak edən ölkələr öz məhsullarını dünyaya tanıtdırır.

Türkiyənin "Teknofest" (AEROKOSMİK VƏ TEXNOLOGİYA FESTİVALI ) festivalında 2021-ci ildə iştirak edən ölkəmiz pilotsuz uçuş aparatlarını, 11 yerli şirkət və startapın məhsullarını nümayiş etmişdir (https://www.teknofest.az/az/corporate/about/). 26.05.2022 - 29.05.2022-ci il tarixlərində "Bakı Kristal Zalı" və dənizkənarı bulvar ərazisində "Teknofest Azərbaycan" festivalının keçirilməsi ölkəmizin İKT sahəsinin inkişafına və tətbiqinə olan marağını bir daha sübut edir.



Ölkəmizdə bəzi mütəsəssislər tərəfindən internetin qızılı adlandırılan ilk kriptovalyuta birjası 24.04.2020-ci il tarixindən etibarən Azərbaycanda yaradıldı və manatla bitkoin satılması planlaşdırıldı *https://fed.az/az/birja/* Kriptovalyuta birjasında - Bitcoin (BTC), Ethereum (ETH) və Ripple (XRP) manatla alıb satmaq mümkündür. Azərbaycanda "*PulExchange"* – platforması ilk kriptovalyuta alışına və satışına imkanı yaradır (*https://azport.info/473/bitcoin-ndir;* AzCoin-http://www.azcoin.az/). Azərbaycanda kriptovalyuta əməliyyatlarının vergiyə cəlb edilməsi istiqamətində mexanizm hazırlanır.

Ölkə Prezidentinin 02.02.2021-ci il tarixli Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" layihəsi qəbul edilmişdir (https://nk.gov.az). Bu layihədə 5 strateji hədəf və hər hədəfə uyğun prioritetlər müəyyən edilib. İKT sahəsinin inkişafı Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı" bölməsində daha ətraflı əks olunur.

"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətlərinin təsdiq edilməsi" haqqında AR Prezidentinin Fərmanı (16.03.2016-cı il, Sərəncam №1897) ilə qəbul edilən Sərəncamda ümumilkdə aşağıdakılar nəzərdə tutulur:

I. 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planı;

II. 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış;

III. 2025-ci ildən sonrakı dövrə aid hədəf baxışını özündə əks edir (burada - 1.11. "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi" – əlavə olunur. (https://mida.gov.az/documents/Telekommunikasiya.pdf).

Burada əsas məqsəd AR-nı regionun aparıcı texnologiya əsaslı ölkəsinə çevril-məkdir, çünki, İKT özü ilə digər sahələridə paralel inkişaf etdirir. Ölkəmizin ümumdünya elektron məkanına sürətli inteqrasiyası üçün son texnologiyaya əsaslanan biliklər bazası yaradılır, telekommunikasiya sahəsinin və informasiya iqtisadiyyatının inkişafına dəstək məqsədilə xüsusi maliyyə vəsaiti ayrılır, bu yönümlü dünya təcrübələrindən istifadə olunur (Umarova, 2021: 146). İqtisadi proqnozlara görə Azərbaycanda 2024-cü ildə isə 2,4 %

iqtisadi inkişaf olacaq və fiber-optik və LTE texnologiyaları ilə genişzolaqlı internet şəbəkələrinin və xidmətlərin əhatə dairəsi 80%-dək genişləndiriləcək.

**"Ağıllı" layihələr**

İKT sahəsinin daim inkişaf etməsi bu texnologiyanın bütün sahələrdə tətbiqini artırır. Məsələn, 5G texnologiyasının yaranması (5G 10 Gbps sürəti ilə işləyir, onun tətbiqi isə "ağıllı" elektron layihələrin tətbiqini sürətləndirir. Finlandiyadakı Ar-Ge mərkəzində 6G texnologiyasının tətbiqi ilə bağlı araşdırmalar aparılır) yalnız sənaye sahələrində deyil, eyni zamanda aqrar sahələrdə də onun tətbiqinə xüsusi maraq yaratdı. Ümumiyyətlə, müxtəlif sahələrdə tətbiq olunan yeni innovativ texnologiyalardan istifadə bu bazarı müxtəlif bölmələrə ayırır (şəkil 3).

"Ağıllı" layihələrdən istifadənin özünə xas üstünlükləri var. Məsələn, yeniləşən İKT-dən, robotlaşmış texnikadan istifadə cəmiyyətdə aşağıdakı üstünlükləri yaradır:

- rəqəmsal iqtisadiyyatı daha da inkişaf etdirir;
- təhlükəsizliyə təminat yaradır və göstərilən xidmətlərin keyfiyyəti artır;
- az işçi qüvvə ilə çox iş görmək mümkün olur;




**Şəkil 3. Yeni innovativ texnologiyalar**

- elekrton təhsilə imkan yaradır;
- elekrton tibb tətbiq olunur;
- elekrton ticarətlə kommersiya həyata keçirilir;
- sistemlərin təhlükəsizliyinin təmini artır;
- kommunal xidmətlərə fasiləsiz çıxış yaranır;
- mərkəzdən "ağıllı" idarəetmə təmin olunur;
- nəqliyyatla elekrton əlaqə yaradılır;
- Virtual məkanda dünyaya çıxışı sürətləndirir və s.

İşğaldan azad olunmuş Qarabağ bölgəsinin təbiəti də ermənilər tərəfindən qətlyama uğramışdır. Bu torpaqlardakı vəziyyəti stabilləşdirmək, orada yaşayacaq əhali üçün müasir inkişaf səviyyəsinə uyğun olaraq lazımi şəraitin yaradılması istiqamətində müxtəlif layihələr qəbul edilir, planlı işlər həyata keçirilir (Umarova, 2021: 96) Məsələn:

- Ölkə prezidentinin 04.01.2021-ci il tarixli fərmanı ilə Qarabağ Dirçəliş Fondunun yaradılması;
- "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında Prezidentin 19.04.2021-ci il tarixində imzaladığı Sərəncam;
- Bölgədə yeni hava beynəlxalq hava limanlarının yaranması;
- Rəqəmsal iqtisadi regionların yaranması və inkişafı;

- Yeni yolların salınması;
- Alternativ enerji mənbələrinin yaradılması və s.

5G texnologiyası və süni intellekt əsasında yaradılan “Ağıllı kənd”, “Ağıllı şəhər” layihələrin innovativ tətbiqi dayanıqlı inkişafında çox böyük təsirə malikdir. Qarabağ ərazisində yenidənqurma prosesləri bu konsepsiyalar əsasında bərpa olunur. Qarabağda təqdim edilən "Ağıllı" intellektual layihələrin tətbiqi ardıcıllığı müxtəlif bölmələrinindən, bir neçə alt hissədən (çünki, hazırlanan layihələr müəyyən addımlar əsasında proqramda nəzərdə tutulan ardıcılıqla həyata keçirilir) ibarətdir. Görüləcək işlər üçün ilkin olaraq 2021-ci ildə dövlət büdcəsindən 2,2 milyard manat pul ayrılıb (şəkil 4).




**Şəkil 4. “Ağıllı” layihələr**

Mütəxəssislərin araşdırmasına görə “ağıllı” istehsal və “ağıllı” kənd təsərrüfati sahələri, müvafiq qaydada 70 milyard və 55 milyard avro ilə ən yüksək xalis mənfəət gətirir. 5G mobil texnologiyasının “açıq innovasiyalar platforması” kimi istifadə olunması nəticəsində 2025-ci ilə qədər 2.600.000.000 avro maliyyə mənfəəti əldə edə bilər (https://www.azerbaijan-news.az**).**

**Nəticə**

İKT sənayesinin daim inkişaf edərək tətbiq olunması rəqəmsal iqtisadiyyatı gücləndirməklə bərabər, eyni zamanda intellektual informasiya bazalarının yaranmasına və formalaşmasına səbəb olur. Cəmiyyətin demokratikləşdirilməsi prosesində çox böyük rol oynayan bu texnologiyaların yaratdıqları imkanlar sayəsində dünya üzərindən sürətli internet-şəbəkə əlaqələri təmin olunur. Lakin İKT sahəsi inkişafda olduğuna görə daim həmin sahəyə investisiya yatırımları qoyulur. Müstəqil Azərbaycan Respublikasında bu sahəyə xüsusi maraq göstərilir, azad olmuş Qarabağ torpağında “ağıllı” layihələrin tətbiq olunması bunu bir daha sübut edir. İKT sənayesinin inkişaf səviyyəsinə uyğun olaraq dünya səviyyəsində kadrların yetişdirilməsi və bu sahəyə xüsusi investisiya qoyulmasi bu günün əsas tələbatlarından biridir. Ölkəmizdə bu sahəyə aid bölmələrin daha inkişaf etdirilməsi və yüksək texnologiyalar parklarının yaradılması istiqmətində görülən işlərə əlavə olaraq aşağıdakı bölmələri də əlavə etmək olar:

1. Genişzolaqlı şəbəkənin tətbiqinin daha da artırılması üçün xüsusi vəsaitin ayrılması;
2. Rəqəmsal reseptlərin kütləvi şəkildə verilməsi və inkişafı;
3. Mərkəzi elektron tibbi uçot sisteminin daha da inkişaf etdirilməsi;
4. Kriptovalyuta proseslərini dərindən öyrənilməsi üçün xüsusi mütəxəssislərin cəlb edilməsil;
5. Bu sahə üzrə yerli kadrlari yetişdirilməsi;
6. Tranzit trafik xəttinin sürətli inkişafı.

doi.org/10.61764/lasr.3.2024.114-124

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi “Azərbaycanda turizm”. Statistik məcmuə. Rəsmi nəşr. Bakı-2019
2. Süleymanov E.N. “Azərbaycanda turizmin inkişafının sosial-iqtisadi rolu” BDİU. Bakı 2016.
3. Umarova N.Ə. “Turizmin inkişafında İKT” Metodiki vəsait. 2021
4. Umarova N.Ə. “İqtisadiyyatda innovativ texnologiyalar. Elektron kommersiya” Dərs vəsaiti ADNSU mətbəəsi. 2021
5. https:// azerbaijan-news.az
6. https://azertag.az/xeber
7. http://www.azcoin.az/)
8. https://az.wikipedia.org/wiki/
9. https:// yeniazerbaycan.com/SonXeber_e18540_az.html

**Нияр Умарова**

## РОЛЬ ИКТ В ПРИЗНАНИИ АЗЕРБАЙДЖАНСКОЙ КУЛЬТУРЫ

***Резюме***

В статье богатая природа Азербайджана, необычные пейзажи, наши традиции, гостеприимство нашего народа, свобода вероисповедания в нашей республике, туристический потенциал нашей страны и ее развитие, необыкновенное очарование Шуши, сердца Азербайджана, его самобытность, 30-летний период существования земли Нагорного Карабаха, ее главные грядущие бедствия, массовые убийства, совершенные армянами против народа, проживающего в Карабахе, его земли и природы, 44-дневная война и даны общие сведения о нашей победе, операции «Железный кулак», чрезвычайных операциях, вошедших в мировую историю при взятии Шуши, героизме наших храбрых сыновей. В статье также затронуты преимущества развития и применения сферы ИКТ в мире, внимание, уделяемое развитию технологий обработки информации в Азербайджанской Республике, принятие и реализация этих ориентированных проектов в соответствии с тенденцией развития, проводимые на территории Карабаха восстановительные работы и реализация «умных» проектов.

***Цель*** – Реализация «Умных» проектов на освобожденной земле Нагорного Карабаха и предоставление преимуществ использования инновационных технологий в Азербайджанской Республике

***Методология*** – В статье использованы соответствующие рассуждения и метод логико-системного анализа.

***Результаты исследования*** – На основе анализа применения систем ИКТ в современном обществе показано, какую роль они играют в развитии производственно-экономического потенциала страны.

***Ключевые слова*** – *геноцид, Шуша, ИКТ, «умные» проекты*

**Niyar Umarova**

## THE ROLE OF ICT IN KNOWING THE CULTURE OF AZERBAIJAN

***Summary***

In the article, the rich nature of Azerbaijan, unusual landscapes, our traditions, the hospitality of our people, freedom of religion in our republic, the tourism potential of our country and its development, the extraordinary charm of Shusha, the heart of Azerbaijan, its distinctiveness, the

30-year century period of the land of Nagorno-Karabakh, to its head general information is given about the coming calamities, the massacres committed by Armenians against the people living in Karabakh, its land and nature, the 44-day war and our victory, the "Iron Fist" operation, the extraordinary operations that made history in the capture of Shusha, and the heroism of our brave sons. At the same time, the advantages of the development and application of the ICT field in the world, the attention paid to the development of information processing technologies in the Republic of Azerbaijan, the adoption and implementation of these oriented projects in accordance with the development trend, the reconstruction works carried out in the Karabakh territory and the implementation of "Smart" projects were also touched upon in the article.

***Məqsəd*** – The implementation of "Smart" projects in the liberated territory of Nagorno-Karabakh and the provision of advantages in the use of innovative technologies in the Republic of Azerbaijan.

***Metodologiya*** – The article used appropriate reasoning and logical-systematic analysis methods.

***Tədqiqatın nəticələri*** **–** By analyzing the application of ICT systems in modern society, it is shown how they play a role in the development of the country's production and economic potential.

***Key words*** *– Genocide, Shusha, ICT, "smart" projects*

doi.org/10.61764/lasr.3.2024.125-131

**Firanə Məmmədova**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademıyası,*
*Qiyabi, əlavə təhsil və əcnəbi tələbələrlə iş şöbəsinin müdiri, riy.ü.f.d.*
*firanam.@mail.ru*

# OYUNLAR NƏZƏRİYYƏSİNİN MÜXTƏLİF ELM SAHƏLƏRİNƏ TƏSİRİ VƏ İNKİŞAF DİNAMİKASI

***Xülasə***

***Məqalənin məqsədi*** – idarəetmə qərarlarının qəbul edilməsi yolu ilə həyata keçirilən iqtisadi sistemlərin davranışı və inkişafının təmin edilməsi. İdarəetmə təcrübələrinə əsasən hər bir idarəetmə qərarlarının qəbul edilməsi münaqişəli vəziyyətdə aparıldığından belə vəziyyətlərin qiymətləndirilməsi yollarının araşdırılması.

***Metodologiyası*** – oyunlar nəzəriyyəsini tədqiq etmək, verilənlərin tam olmaması şəraitində, doğru qərarların qəbulu yollarını araşdırmaq, oyunlar nəzəriyyəsi məsələsini xətti proqramlaşdırma məsələsinə gətirməklə və bir sıra kriteriyaların köməyi ilə məsələnin optimal həllini tapmaq.

***Tədqiqatın nəticəsi*** – oyunlar nəzəriyyəsinin fəqli elm sahələri ilə əlaqəsi, bu sahələrdə təzahürü göstərilmiş, məsələnin həllində istifadə edilə bilən üsul və kriteriyalar ön plana çəkilmişdir.

***Açar sözlər:*** *oyun, qarışıq strategiya, xalis strategiya, uduş, oyunçu, oyunun gedişi*

## Giriş

Oyunlar nəzəriyyəsi münaqişəli vəziyyətlərin riyazi əsasları rolunu oynamaqla bir sıra iqtisadi məsələlərin həllində mühüm rol oynayır. Müəyyən qayda və razılıqlar toplusu olan oyun yarış xarakterinə əsasən iqtisadi inkişafda müəyyən əhəmiyyətə malikdir. Oyunlar nəzəriyyəsində iki şəxsin oyunu timsalında oyunun yaxşı mənimsənilməsi üçün şahmat, dama və s. kimi oyunları araşdırmaq olar.

Oyunlar nəzəriyyəsi 20-ci əsrin əvvəllərində Ernst Zermelo (1913) və John von Neyman (1928) adlı riyaziyyatçılar tərəfindən elmə gətirilmişdir. John von Neymanın və Oskar Morgensternin birlikdə hazırladığı "Oyunlar nəzəriyyəsi və iqtisadi davranış" adlı kitabın 1944-cü ilə aid nəşri nəzəriyyənin inkişafında sıçrayış oldu. Bundan sonra Con Neş (1950-51) və Lloyd Shapley (1953) kimi tədqiqatçılarda oyunlar nəzəriyyəsinin tədqiqi ilə məşğul olmağa başladılar. Aparılan tədqiqat işləri oyunlar nəzəriyyəsinin inkişafına güclü təkan vermiş və nəticədə bu nəzəriyyə sənayenin təşkilinə, beynəlxalq ticarətə, əmək iqtisadiyyatına, makroiqtisadiyyata bir sözlə iqtisadiyyatın müxtəlif sahələrinə tətbiq edilmişdir.

1994-cü ildə Con Neş, Con Harsanyi və Reynhard Selten tədqiqatçılar üçlüyünün nəzəri tətbiqinin iqtisadiyyata danılmaz təsiri olan elmi tədqiqatlarına əsasən Nobel mükafatına layiq görülmüşdür.

Eyni zamanda ABŞ Federal Rabitə Komissiyası 7 milyard dollarlıq bir layihənin hazırlanmasında oyunlar nəzəriyyəsindən istifadə etmişdir.

Oyunlar nəzəriyyəsi ilə bağlı tədqiqatlara görə daha üç dəfə: 2005-ci ildə Robert Auman və Tomas Şelling, 2007-ci ildə Leonid Hurviç, 2012-ci ildə isə Lloyd Shapley və Alvina Nobel mukafatına layiq görüldü. Bu tədqiqatlara əsasən interaktiv vəzyyətlərin başqa sözlə desək oyunçu adlanan bir neçə varlığın hərəkət etdiyi vəziyyətlərin təsviri və təhlili üçün müəyyən bir dil təmin edildi. Müxtəlif məsələlərdə oyunçunun təbiəti müxtəlifdir. Bu müxtəlifliyi tədqiqatçılar öz əsərlərində müxtəlif izah etmişdir. Məsələn 1982-ci ildə təkamül biologiyası ilə əlaqədar tədqiqatında Jon Maynard Smith oyunçunu

"canlı orqanizm", Şoham –Leyton Brovn proqramlaşdırma ilə bağlı tədqiqatlarında "süni agentlər", Kamerer isə oyunlar nəzəriyyəsində "adi insanlar" adlandırmışdır.

**Oyunlar nəzəriyyəsinin müxtəlif sahələrə təsiri**

Oyunlar nəzəriyyəsinin inkişafı iqtisadi sahələrlə yanaşı sosial elmlərə də təsir etmişdir. Bu təsiri bir çox tədqiqatçıların əsərlərində rast gəlmək olar. Məsələn Stevan Tadel 2013- cü ildə yazdığı "Oyunlar əsərinə giriş" əsərində hər səhər oyananda səhər yeməyində nə ilə qidalanacağı, harda qidalanacağı ilə bağlı bir çox suallara cavab tapmaq üçün oyunlar nəzəriyyəsinə müraciət etmişdir. Tədqiqatçı bu sadə məsələ olsada bunun kimi və bir sıra çətin sosial məsələrin həllində oyunlar nəzəriyyəsindən istifadə etməklə problemin optimal həllini tapmışdır. Bundan başqa Giakoma Bonanno "Oyunlar nəzəriyyəsi" adlı əsərində təhsil səviyyələrində aparılan imtahanlarda təhsilalanların imtahanda köçürmənin qarşısını almaq üçün özünün həyata keçirdiyi üsulu oyunlar nəzəriyyəsinin köməyi ilə optimal həllini tapmağa çalışmışdır.

Təbii olaraq oyunlar nəzəriyyəsinə hərfi olaraq müxtəlif təriflər verilmişdir. Məsələn Robert Aumana görə "Oyun və iqtisadi nəzəriyyə interaktiv əlaqədə olan rasional insandır. O həmişə məqsədyönlü, həm də məntiqli hərəkət edən, dəqiq müəyyən edilmiş məqsədləri olan, yalnız bu məqsədlərə mümkün qədər yaxınlaşmaq istəyi ilə motivasiya edilmiş və sonrakı vəziyyəti hesablama qabiliyyətinə malikdir. Hal-hazırda isə bəzi ədəbiyyatlarda oyuna belə tərif verilmişdir- "Müəyyən qayda və razılıqlar yığımına oyun deyilir". Oyunlar nəzəriyyəsi iki əsas qola ayrılır. Bunlardan biri kooperativ oyunlar, digəri isə qeyri-kooperativ oyunlar adlanır. Məsələn səsvermə davranışını təhlil etmək üçün kooperativ oyunlardan istifadə edilmişdir. Müxtəlif elmi sahələrdə isə qeyri-kooperativoyunlar tətbiq edilir. Bu nəzəriyyədə oyunçuların bacara bilməyəcəyi vəziyyətlər modelləşdirilir.

Qeyri-kooperativ oyunlar nəzəriyyəsinin aşağıda adları qeyd olunan növləri məlumdur:

- sıralı ödənişli oyunlar
- strateji oyunlar
- verilənləri tam olan dinamik oyunlar
- verilənləri tam olmayan dinamik oyunlar

Oyunlar nəzəriyyəsinin tədqiq edilməsində bir sıra oyunların mühüm rolu vardır. Belə oyunlara şahmat, dama və s. kimi oyunları nümunə göstərmək olar. Belə oyunların öyrənilməsi oyunlar nəzəriyyəsinin inkişafına müsbət təsir göstərmişdir. Şahmat, dama və s. kimi oyunlara baxmaqla müəssisələr arasındakı rəqabəti izah etmək olar. Belə oyunlar eyni zamanda iki nəfərli oyunlar adlanır. Oyunçuların hər biri qalib gəlmək üçün müəyyən addımlar atmalıdır. Belə addımlar oyunlar nəzəriyyəsində "gediş" adlandır. Beləki, gedişləri "şəxsi" və "təsadüfi" gedişlərə ayırmaq olar. Şüurlu surətdə oyunçunun getdiyi gediş şəxsi gediş hesab edilir. Təsadüfi gedişlər isə hər hansı bir mexanizm vasitəsilə mümkün olan imkanlardan birinin seçilməsi kimi məlumdur. Bu gedişlər oyunçu tərəfindən seçilmədiyi üçün onun bacarığından asılı olmur.

Gedişlərin yerinə yetirilməsi zamanı oyunçu qarşı tərəfə mütləq müəyyən bir məbləğ verir, yəni müəyyən bir uduş əldə edilir. Bu uduşların cəmi oyunlar nəzəriyyəsində özünə məxsusluğu ilə seçilir. Yəni, oyunun iştirakçılarının uduşları cəmi sıfır olduqda, onda ona sıfır cəmli oyun deyilir.

Oyunçunun strategiyası adlanan və birqiymətli təyin olunan şəxsi gedişləri sonlu və sonsuz ola bilər. Strategiyalar işərisində təsadüfi və qarışıq strategiyalar mövcuddur ki, bu strategiyaların nəticəsində orta uduş üçün maksimal və minimal imkan verən strategiyalar optimal strategiya adlanır.

doi.org/10.61764/lasr.3.2024.125-131

Oyunları eyni zamanda uduş funksiyasının formasına görə matris, bimatris, kəsilməz, qabarıq və s. növlərə ayırmaq olar.

Matris oyun bir gedişdən sonra bitən və yaxud biraddımlı oyun hesab olunur. Bimatris oyun iki şəxs arasında həyata keçirilmiş və sıfır olmayan cəmli sonlu oyun adlanır. Bu oyun zaman hər bir oyunçunun özünə məxsus uduşları matris şəklində verilir.

Bir çox proqramlaşdırma məsələlərində olduğu kimi oyunlar nəzəriyyəsinin də qoyuluşu və iqtisadi mənası maraqlıdır. Bu məsələnin qoyuluşu və iqtisadi mənasını sıfır cəmli ikinəfərli oyuna baxmaqla araşdırmaq olar. Bu məsələdə təbii olaraq hər bir oyunçunun bir gediş etməsi vacibdir.

Bu oyunçulardan birinci oyunçu ($K_1$ adlandıraq) 1,2,…,m natural ədədlərindən (bu ədədlərə $K_1$-in xalis strategiyaları deyilir) birini, ikinci oyunçu (bunu $K_2$ adlandıraq) isə $K_1$-in seçkisi haqqında heç bir məlumat olmadan 1,2,…,n natural ədədlərindən (bu ədədlərə $K_2$–nin xalis strategiyaları deyilir) birini seçir. Sonra seçilmiş strategiyalar müqayisə edilir və bunlardan asılı olaraq, oyunçulardan biri öz rəqibinə müəyyən məbləğ verir, həm də oyunun qaydası təyin edilir. Bu qaydanı daha dəqiqləşdirək.

Tutaq ki, $K_1$ və $K_2$ uyğun olaraq i və j xalis strategiyalarını seçir və se-çilmiş (i ,j) cütünə qarşı $a_{ij}$ ədədi qoyulur. Fərz edək ki, həmin ədədin işarəsindən asılı olmayaraq, $K_1$-in uduşu $a_{ij}$ kəmiyyətinə bərabərdir, yaxud $K_2$ öz rəqibinə $a_{ij}$ qədər məbləğ verir ($a_{ij}$ ədədi mənfi olduqda $K_1$ öz rəqibinə həmin məbləği verir).

Əvvəldə qeyd etdiyimiz kimi birinci oyunçunun uduşu matris şəklində verilir. Matrisin sətri birinci oyunçunun tətbiq etdiyi strategiyanın nömrəsinə, sütunu isə ikinci oyunçunun strategiyasının nömrəsinə uyğun olur. Matrisin sətir və sütunun kəsişməsində birinci oyunçunun uduşu durur.

İkinci oyunçunun uduşu birinci oyunçunun uduzmasına bərabərdir.

Birinci və ikinci oyunçuların uyğun olaraq i=1,.....m olan m, və j=1,.....n olan n strategiyası var. Hər bir (i,j) strategiya cütünə uyğun $a_{ij}$ ədədi qarşı qoyulur.Cəbri mənada matrisin ünsürü olan $a_{ij}$ i-ci sətir ilə j-cu sütunun kəsişməsində dayanır.

Belə halda hər bir gedişi təmiz strategiya adlandırmaq olar. Qeyd olunanlardan məlum olur ki, birinci oyunçunun uduşu olan mxn tərtibli $A=(a_{ij})$ matrisi ilə oyunu vermək

$A=(a_{ij})$ matrisi eyni zamanda ödəniş matrisidir.

$$A = (a_{ij})_{m+n} = \begin{pmatrix} a_{11}a_{12} \;....a_{1n} \\ a_{21}a_{22}......a_{2n} \\ ......................... \\ a_{m1}a_{m2} \;....a_{mn} \end{pmatrix}$$

Əgər $K_1$ oyunçusu i=1 xalis strategiya ilə çıxış edərsə onda onun uduşu heç olmasa birinci sətrin ən kiçik elementi, yəni

$$\min_{1\le j\le n} a_{1j}$$

qədər olar. Ümumiyyətlə, o, i-ci sətri seçərsə, onda o minimal uduşunu tapır.

Daha sonra minimal uduşlar içərisində maksimal strategiya tapılır, yəni

$$\alpha = \max_{1\le i\le m} \min_{1\le j\le n} a_{ij}$$

burada α kəmiyyəti oyunun aşağı qiyməti, yaxud maksimum uduşu, onu təmin edən strategiya isə $K_1$ –in maksimum strategiyası adlanır.

Maksimin strategiyasını seçən $K_1$ onda rəqibinin seçdiyi strategiyasından asılı olmayaraq, özünü α-dan az olmayan uduşla təmin edə bilər.

Bu mühakiməni analoji olaraq $K_2$ üçün də söyləmək olar. Burada məqsəd rəqibinin uduşunu minimuma endirməkdir. Əgər $K_2$ özünün j-ci xalis strategiyasından istifadə etsə, onda o, ən çoxu qədər uduzar.

$K_2$ oyunçu mümkün strategiyası vasitəsilə $K_1$ oyunçunun uduşunu maksimal azaltmağa arzusyndadır. Ona görə də $K_2$ özü üçün $\max_i a_{ij}$ tapır, başqa sözlə j-ci təmiz strategiyadan istifadə etməklə $K_i$-in əldə etdiyi maksimal uduşu müəyyən edir. $K_2$ elə strategiya tapır ki, bu halda $K_1$ minimal uduş əldə edir, başqa sözlə

$$\beta = \min_j \max_i a_{ij}$$

bərabərliyindən qiymətləndirilir.

β aldığı qiymət oyunun ən böyük qiyməti, yaxud minimaks uduş, bu uduşu təmin edən $K_2$ oyunçunun strategiyası isə minimaks strategiya adlanır.

Aydındır ki, $K_2$ minimaks strategiyasını seçərsə, o, istənilən halda β- dan çox uduza bilməz.

Biz irəlidə göstərəcəyik ki, ixtiyari A matrisi üçün $\alpha \leq \beta$ şərti həmişə ödənilir. Buna görə α və β kəmiyyətlərinə uyğun olaraq, oyunun aşağı və yuxarı qiymətləri adi verilməsi təbiidir. Əgər belə matris üçün

Bərabərliyi alınarsa, onda $K_1$ bilməlidir ki, uduş $v$- yə bərabər olacaq və onun bu ədəddən çox uduşuna $K_2$ mane olacaq.

Buna görə $v$ oyunun qiyməti, bu bərabərliyi təmin edən i və j indekslərinin qiymətləri isə uyğun olaraq, $K_1$ və $K_2$ oyunçunun optimal xalis strategiyaları adlanır.[ 1. s. 441-442 ]

Oyunçunun ödəniş matrisinin hər hansı sətrinin və yaxud sütununun tezlikləri cəmi vahidə bərabər olarsa belə strategiyalar qarışıq strategiyalar adlanır. Belə qarışıq strategiyalar çoxluğunu $S_m$ və $S_n$ ilə işarə etmək olar. Məlumdur ki, bu çoxluqlar qapalı çoxluqlardır.

**Optimal strategiyaların xassələrinin teoremlər vasitəsilə istifadəsi**

Optimal strategiyaların bəzi xassələri aşağıdakı teoremlər vasitəsilə ifadə olunur.

**Teorem 1.** Tutaq ki, ödəniş matrisi $A=(a_{ij})_{m\times n}$ olan matrisli oyunun qiyməti υ və uduşun riyazi gözləməsi E-dir. Onda $x^* = (x_1^*, x_2^*, \ldots, x_m^*) \in S_m$ elementinin $K_1$-in optimal strategiyası olması üçün zəruri və kafi şərt

$$\upsilon \leq E(x^* y)$$

bərabərsizliyinin hər bir $y \in S_n$ üçün $y^* = \| y_1^*, y_2^*, \ldots, y_n^* \| \in S_n$ elementinin isə $K_2$ –nin optimal strategiyası olması üçün

$$\upsilon \leq E(x,\ y^*)$$

bərabərsizliyinin hər bir $x \in S_m$ üçün ödənilməsidir.

**Teorem 2.** Tutaq ki, **E** ödəniş matrisi **A** olan matrisli oyunda uduşun riyazi gözləməsi, **υ** həqiqi ədəd, $x^* = (x_1^*, x_2^*, \ldots, x_m^*)$ və $y^* = (y_1^*, y_2^*, \ldots, y_n^*)$ isə uyğun olaraq və çoxluqlarının elementləridir. Onda υ -nin oyunun qiyməti, $x^*$ və

$y^*$ elementlərinin uyğun olaraq, $K_1$ və $K_2$ –nin optimal strategiyaları olması üçün zəruri və kafi şərt $E(x, y^*) \le \upsilon \le E(x^*, y)$ bərabərsizliklərinin ödənilməsidir.

Əgər $y^*$ birinci oyunçunun strategiyası, $x^*$ isə ikinci oyunçunun strategiyası olarsa, onda

$$\upsilon = \sum_{j=1}^{n} \sum_{i=1}^{m} a_{ij} x_i^* y_j^*$$

oyunun qiyməti adlanır.

Hər bir oyunun qaydaları var və bu qaydalardan kənara çıxmaq olmaz.Oyunçular öz məqsədlərinə çatmaq üçün oyunun qaydası hesab edilən bütün mümkün hərəkətləri istifadə edə bilər. [ 1. s 455-456]

Maraq dairələrinə görə oyunları bir neçə qrupa bölmək olar:

1. Məntiqi (intellektual) oyunlar;
2. Təsadüfi xarakterli oyunlar;
3. Cəzbedici oyunlar.

Bütün oyunlar üçün əsas məqsəd uduş strategiyası və oyunun qiymətini göstərməkdir.

Bir çox proqramlaşdırma məsələlərində olduğu kimi oyunlar nəzəriyyəsi məsələsinin xətti proqramlaşdırma məsələsinə gətirməklə həll etmək olar.

Qismən və ya tamamilə bir-birinə zidd olan maraqların mübahisəli vəziyyəti həm də verilənlərin tam olmaması şəraitində baş verə bilər bu zaman vəziyyətin qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Qərarın qəbul olunduğu vəziyyət haqqında kifayət qədər etibarlı informasiyanın olmaması hallarında ödəmə matrisi ilə yanaşı həm də, risk matrisindən istifadə edilir. Bu tip oyunlarda qərar qəbul etmək üçün obyektiv reallığı nəzərə almaq lazım gəlir. Belə obyektiv reallığa "təbiət" deyilir. Müvafiq oyunlar isə **"İnsanın təbiətlə oyunları"** adlanır.

Qeyri-müəyyənlik şəraitində qərarın qəbul edilməsini əsaslandırmaq üçün təbiətin vəziyyətlərinin qiymətləndirilməsi kriteriyaları haqqında razılığa gəlmək lazımdır. Bu vəziyyətlər haqqında informasiyanın növündən asılı olaraq kriteriyalar müxtəlif ola bilər. Nəticədə qəbul edilmiş qərarlarda müxtəlif olacaqdır.

Mürəkkəb yanaşmalarda vəziyyətlər qeyri-bərabər ehtimallı hesab edilir. Belə olduqda təbiətin vəziyyətlərini qiymətləndimək lazım gəlir. Təbiətin vəziyyətinin qiymətləndirilməsi Vald kriteriyası, Sevidj kriteriyası, Qurvits kriteriyası üzrə aparıla bilər. Hesablamalar aparmaqla qeyri-müəyyənlik şəraitində qərarın qəbul edilməsi, münaqişəli vəziyyətlərin tədqiqindən yararlanaraq müəsissələr arasında sağlam rəqabətin və inkişaf yollarının təyin edilməsi oyunlar nəzəriyyəsinin əsas predmetidir.

**Nəticə**

Oyunlar nəzəriyyəsinin inkişaf tarixinə nəzər salınmış, bir sıra elm sahələri ilə əlaqəsi və bu sahələrdə təzahürü vurğulanıb, məsələnin həlli üçün istifadə edilən üsul və kriteriyalar ön plana çəkilmişdir.

## ƏDƏBİYYAT


1. Hacızalov , Y.Kərimova , L.Hüseynova Ekonometrika. Bakı, 2010.
2. M.Zeynalov, V.Muxtarov, İ.Əliyev – Planlaşdırmada iqtisadi-riyazi üsullar və modellər. Bakı, 1983.

doi.org/10.61764/lasr.3.2024.125-131

3. .О.Замков и др. Математические методы в економике. Москва, 1999.
4. А.Карасев и др. Математические методы в планировании и управлении. Москва, 1987.
5. П.Конховский- Математические методы исследования операций в економике. Москва, 2000.
6. М.Мельник –Экономико- математические методы и модели в планировании и управлении МТС. Москва, 1990.
7. Ф.Солодовников и др. Математика в экономике. Часть I и II Москва, 2000.
8. Л.Терехов и др. Экономико- математические методы в планировании и управлении. Киев, 1984
9. F.Abdullayev , Q.M.Namazov "Xətti proqramlaşdırmanın iqtisadi-riyazi modelləri". Bakı, 2009.
11. Y. Həsənli "Ekonometrikaya giriş" Bakı,2008.
12. B.S.Musayev, Ş.Səmədzadə -"Planlaşdırmanın riyazi üsulları və modelləri". Bakı, 1973.
13. A.Əliyev Riyazi proqramlaşdırma üzrə tədris-metodik göstəricilər. 2018
14. H.S.Axundov, E.R.Şəfizadə -"Ekonometruka". Bakı, 2019.,331.
15. S.A. Borodiç "Ekonometrika praktikum" Bakı 2019.
16. https://www.theorie.physik.uni-muenchen.de/lsfrey/teaching/archiv/sose_06/softmatter/talks/Heiko_Hotz-Spieltheorie-Handout.pdf
17. https://ru.scribd.com/document/544069753/EKONOMETRIKA
18. http://elibrary.bsu.edu.az/files/books_170/N_48.pdf
19. https://anl.az/el/kitab2022/04/cd/777797.pdf
20. https://unec.edu.az/application/uploads/2015/12/1801-Ekonometrika_az.pdf
21. https://students.aiu.edu/submissions/profiles/resources/onlineBook/Y5z2A2_Game_Theory_An_Introduction.pd

**Фирана Маммадова**

## ВЛИЯНИЕ ТЕОРИИ ИГР НА РАЗЛИЧНЫЕ ОБЛАСТИ НАУКИ И ДИНАМИКУ РАЗВИТИЯ

***Резюме***

*Теория игр играет важную роль в решении ряда экономических вопросов, играя роль математического обоснования конфликтных ситуаций. Игра, представляющая собой совокупность определенных правил и соглашений, имеет определенное значение в экономическом развитии в силу своей конкурентной природы. Шахматы, шашки и т. д. используются для хорошего освоения игры как игры двоих в теории игр. вы можете исследовать такие игры, как Теория игр была введена в науку в начале 20 века математиками Эрнстом Цермело (1913 г.) и Джоном фон Нейманом (1928 г.)*

*Публикация в 1944 году книги Джона фон Неймана и Оскара Моргенштерна «Теория игр и экономического поведения» ознаменовала прорыв в развитии теории. После этого такие исследователи, как Джон Нэш (1950–51) и Ллойд Шепли (1953) начали изучать теорию игр. Проведенные исследования дали мощный толчок развитию теории игр, в результате чего эта теория была применена к организации промышленности, международной торговли, экономике труда, макроэкономике, словом, к различным областям экономики.*

***Цель статьи*** – обеспечение поведения и развития экономических систем, реализуемое путем принятия управленческих решений. Согласно практике управления, каждое управленческое решение принимается в конфликтной ситуации, поэтому исследуются способы оценки таких ситуаций.

***Методология*** – исследование теории игр, исследование способов принятия правильных решений при отсутствии полных данных, сведение задачи теории игр к задаче линейного программирования и поиск оптимального решения задачи с помощью ряда критериев.

doi.org/10.61764/lasr.3.2024.125-131

***Результат исследования*** **–** связь теории игр с предметными областями науки, показано ее проявление в этих областях, выдвинуты на первый план методы и критерии, которые могут быть использованы при решении задачи.

***Ключевые слова***: *игра, смешанная стратегия, чистая стратегия, выигрыш, игрок, ход игры*

**Firana Mammadova**

**THE IMPACT OF GAME THEORY ON VARIOUS FIELDS OF SCIENCE AND DEVELOPMENT DYNAMICS**

***Summary***

*Game theory plays an important role in solving a number of economic issues, playing the role of mathematical justification of conflict situations. The game, which is a set of certain rules and agreements, has a certain importance in economic development due to its competitive nature. Chess, checkers, etc. are used for good mastery of the game as a two-person game in game theory. You can explore games like Game theory, which was introduced to science in the early 20th century by mathematicians Ernst Zermelo (1913) and John von Neumann (1928).*

*Game theory was introduced to science at the beginning of the 20th century by mathematicians Ernst Zermelo (1913) and John von Neumann (1928). The 1944 publication of John von Neumann and Oskar Morgenstern's book The Theory of Games and Economic Behavior marked a breakthrough in the development of the theory. After that, researchers such as John Nash (1950-51) and Lloyd Shapley (1953) began to study game theory. The conducted researches gave a strong impetus to the development of the theory of games, and as a result, this theory was applied to the organization of industry, international trade, labor economics, macroeconomics, in a word, to various areas of the economy.*

***The purpose of the article*** is to ensure the behavior and development of economic systems implemented by making management decisions. According to management practices, every management decision is made in a conflict situation, so the investigation of ways to evaluate such situations.

***Methodology*** – researching the theory of games, investigating ways of making the right decisions in the absence of complete data, bringing the problem of game theory to the problem of linear programming and finding the optimal solution to the problem with the help of a number of criteria.

***The result of the research*** is the connection of game theory with the subject areas of science, its manifestation in these areas is shown, methods and criteria that can be used in solving the problem are highlighted.

***Keywords:*** *game, mixed strategy, pure strategy, winning, player, game progress*

# YAZI QAYDALARI

1. Məqalələr **Times New Roman**, **1** interval və **12** şriftlə yazılmalıdır.
2. Parametrlər aşağıdakı qaydada olmalıdır:
   Sağ - **3**sm
   Sol - **1,5** sm
   Yuxarı - **2** sm
   Aşağı - **2** sm

3. Abzas **1** sm olmalıdır.

**Başlıq:**

Yuxarı sağ küncdə UOT kodu, sol küncdə Müəllifin **Adı, soyadı** qara verilməli, altında iş yeri, vəzifəsi, email, ORCİD, DOİ varsa *kursivlə* yazılır.

Altda ortada **12** şriftlə **qara** məqalənin adı verilir.

Altda xülasə *kursivlə* verilir, onun strukturunda - **məqsəd, metodologiya, tədqiqatın nəticəsi** olmaqla 200-250 sözdən ibarət olur və alt sətirdə **4-5 sözdən ibarət açar sözlər** verilir.

Nümunə:

**UOT 379** **Fərid Abbaszadə**

*Elm və Təhsil Nazirliyinin İqtisadiyyat institutu, doktorant*

*fabbaszada2019@gmail.com*

**YAŞIL İQTİSADİYYAT: "YENİ KONSEPSİYA VƏ YENİ İNVESTİSİYA MODELİ**

***Xülasə***

*Məqalədə yaşıl iqtisadiyyatın cəmiyyətin iqtisadi fəaliyyətində rolu, sosial investisya kimi verdiyi töhfələrin əhəmiyyəti göstərilir. .....*

***Məqsəd*** **-** Yaşıl iqtisadiyyatın .....

***Metodologiya*** **-** tədqiqat işində ....metodlardan istifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** - Yeni konsepsiya və yeni investisya modeli ..........

***Açar sözlər:*** yaşıl iqtisadiyyat.......

Məqalənin mətni: **Giriş, 1., 2., ..bölmələr**, **Nəticə** və ədəbiyyat (ədəbiyyata istinad: [5,s.15-20] ədəbiyyat siyahısı ilə uyğun gəlməlidir)

**Ədəbiyyat**

Kitab adı:

1.Əlizadə F.K. İqtisadi artım: modellər və xüsusiyyətlər. Bakı: AƏSMA Nəşriyyatı, 2005, 198 s

Məqalə adı:

1.Əlizadə F.K. Turist axınının iqtisadiyyatın inkişafına təsiri // K.Əlizadə. ƏSM jurnalı, Bakı, 2010, №2, s.92-98

Konfrans materialı:

1. Əlizadə F.K. Qloballaşma və onun ölkə iqtisadiyyatına təsiri. AƏSMA-NIN "Heydər Əliyev Müasir Azərbaycan dövlətinin qurucusudur" mövzusunda beynəlxalq elmi-praktiki konfrans. Bakı, 5 may 2022-ci il, s.29-38
2. Xülasələr: üç azərbaycan, rus və ingilis dilində qəbul edilir. Yazı dili və ondan sonra iki dildə, məsələn azərbaycan dilində məqaləyə rus və ingilis dilində xülasə yazılır.

Nümunə:

**Фарид Аббасзаде**

**ЗЕЛЕНАЯ ЭКОНОМИКА: «НОВАЯ КОНЦЕПЦИЯ И НОВАЯ ИНВЕСТИЦИОННАЯ МОДЕЛЬ»**

***Резюме***

В статье показана роль зеленой экономики в экономической деятельности......

***Цель -***

***Методология -***

***Результаты исследования -***

***Ключевые слова***

**Farid Abbaszade**

**GREEN ECONOMY: "A NEW CONCEPT AND A NEW INVESTMENT MODEL**

***Summary***

The role of the green economy in the economic activity……..

***Purpose-***

***Methodology-***

***Research results-***

***Keywords:***

**MÜHÜM QEYDLƏR:**

- Bu qaydalara **uyğun yazılmayan, orfoqrafik və üslub xətaları olan məqalələr qəbul edilmir** və geri qaytarılmır.
- Məqalələr **StrikePlagiarismcom proqramında** yoxlanılır, göstəricilər uyğun olmadıqda qəbul edilmir.
- Elmi dərəcəsi olmayanlar məqalələrinə **rəhbərin imzası ilə rəy əlavə edilməsi** vacibdir.
- Bütün məqalələr **bir rəy və müzakirədən keçdiyi protokoldan çıxarış** (kağız və ya elektron) variantında tədqim edilməlidir.
- Məqalə redaksiyaya daxil olduqda **kənar və yerli** (redaksiya heyətinin tərkibindən bir nəfərə) **rəyə** göndərilir, **rəylər müsbət olduqda redaksiya heyəti çap ediılməsi** məsələsinə baxır.

# ПРАВИЛА НАПИСАНИЯ

1. Статьи должны быть написаны ***Times New Roman, 1*** интервалом и ***12*** шрифтами.
2. Параметры должны быть в следующем порядке:
Справа - ***3см***
Слева - ***1,5 см***
Вверх - ***2 см***
Нижний - ***2 см***
3. Абзац должен быть ***1 см.***
4. Заголовок:

В правом верхнем углу **код УДК,** в левом углу ***имя автора, фамилия*** должны быть выделены ***черным цветом,*** под ним ***курсивом,*** *место работы, должность, e-mail, ORCID, если есть DOİ.*

Внизу название статьи **черным цветом с 12** шрифтами посередине.

Внизу выделяется ***курсивом резюме,*** в его структуре-***200-250 слов*** вместе с ***целью, методологией, результатом исследования, а в нижней строке приводятся ключевые слова,*** состоящие из ***4-5 слов.***

Пример:
**УДК 379**

**Фарид Аббасзаде**
*Институт экономики Министерства науки и образования, докторант*
*fabbaszada2019@gmail.com*

**ЗЕЛЕНАЯ ЭКОНОМИКА: "НОВАЯ КОНЦЕПЦИЯ И НОВАЯ ИНВЕСТИЦИОННАЯ МОДЕЛЬ"**

***Резюме***

*В статье показана роль зеленой экономики .....*
***Цель-***Зеленая экономика .....
***Методика-***в исследовательской работе.... были использованы методы.
***Результаты исследования-***новая концепция и новая инвестиционная модель ..........
***Ключевые слова:*** зеленая экономика.......
Текст статьи*:* **Введение, 1.,2.,..разделы,заключение и литература** (ссылки на литературу: [5, с.15-20] должен соответствовать списку литературы)
**Литература**
Название книги:
1. Ализаде Ф.К. Экономический рост: модели и особенности. Баку: издательство , 2005, 198 С.
Название статьи:
1. Ализаде Ф.К. Влияние туристского потока на развитие экономики // Ф.Ализаде. Журнал АСМ, Баку, 2010, №2, с.92-98
Материалы конференции:
1. Ализаде Ф.К. Глобализация и ее влияние на экономику страны. Международная научно-практическая конференция на тему: "Гейдар Алиев-основатель современного

Азербайджанского государства". Баку, 5 мая 2022 года, С.29-38

2. Резюме: принимаются на трех языках: азербайджанском, русском и английском. Письменный язык, а после него на двух языках, например на азербайджанском языке к статье пишется резюме на русском и английском языках.

Пример:

**Фарид Аббасзаде**

**ЗЕЛЕНАЯ ЭКОНОМИКА: «НОВАЯ КОНЦЕПЦИЯ И НОВАЯ ИНВЕСТИЦИОННАЯ МОДЕЛЬ»**

***Резюме***

В статье показана роль зеленой экономики..........................................................................

**Цель-**

**Методология-**

**Результаты исследования-**

**Ключевые слова:**

**Farid Abbaszade**

**GREEN ECONOMY: "A NEW CONCEPT AND A NEW INVESTMENT MODEL"**

***Summary***

The role of the green economy in the economic activity………………………………………..

***Purpose-***

***Methodology-***

***Research results-***

***Keywords:***

**ВАЖНЫЕ ЗАМЕТКИ:**

- Статьи, написанные не в соответствии с настоящими Правилами, с **орфографическими и стилистическими ошибками**, не принимаются и он не подлежит возврату.

- Статьи проверяются в программе **StrikePlagiarismcom,** если показатели не совпадают, то не принимаются.

- Тем, у кого нет ученой степени, важно, чтобы к их статьям добавили **отзывы за подписью руководителя.**

- Все статьи должны быть представлены в **виде одной рецензии и выписки из протокола** обсуждения (бумажного или электронного) .

- При поступлении статьи в редакцию она направляется **на внешнее и местное** (одному человеку из состава редакции) рецензирование, при положительных **отзывах редакция** рассматривает вопрос о публикации.

# RULES OF WRITING

1. Articles should be written in **Times New Roman,** 1 interval and **12** fonts.

2. The parameters should be in the following order:

**Right -** 3cm

**Left** - 1.5 cm

**Up -** 2 cm

**Bottom** - 2 cm

3. The paragraph should be **1** cm.

4. Title:

In the upper right corner, the **JEL** code, in the **left corner, the author's name, surname should be highlighted in black, under it in italics, place of work, position, e-mail, ORCID,** if there is a DOI.

At the bottom, the title of the article is in black with **12** fonts in the middle.

The summary is italicized at the bottom, in its structure-**200-250 words** together with the purpose, methodology, research result, and in the bottom line there are keywords consisting of **4-5 words.**

Example:

**JEL CODE A1.A13.**

**Farid Abbaszade**
*Institute of Economics of the Ministry of Science and Education, doctoral student*
*fabbaszada2019@gmail.com*

**GREEN ECONOMY: "A NEW CONCEPT AND A NEW INVESTMENT MODEL"**

***Summary***

The article shows the role of the green economy .....

**Purpose** .....

**Methodology**-in the research work..... methods were used.

**Research results**-a new concept and a new investment model ..........

**Keywords**: green economy.......

Text of the article: **Introduction, 1.,2.,..sections, conclusion and literature** (references to literature: [5, pp.15-20] must correspond to the list of references)

**References**

Title of the book:

1. Alizade F.K. Economic growth: models and features. Baku: Publishing House , 2005, 198 P.

Title of the article:

1. Alizade F.K. The influence of the tourist flow on the development of the economy // F.Alizade. AFM Magazine, Baku, 2010, No. 2, pp.92-98

Conference materials:

1. Alizade F.K. Globalization and its impact on the country's economy. International scientific and practical conference on the topic: "Heydar Aliyev is the founder of the modern Azerbaijani state". Baku, May 5, 2022, pp.29-38

Пример:

**Фарид Аббасзаде**

**ЗЕЛЕНАЯ ЭКОНОМИКА: «НОВАЯ КОНЦЕПЦИЯ И НОВАЯ ИНВЕСТИЦИОННАЯ МОДЕЛЬ»**

***Резюме***

В статье показана роль зеленой экономики..........................................................................

**Цель -**
**Методология -**
**Результаты исследования-**
**Ключевые слова:**

**Farid Abbaszade**

**GREEN ECONOMY: "A NEW CONCEPT AND A NEW INVESTMENT MODEL"**

***Summary***

The role of the green economy in the economic activity………………………………………..

***Purpose -***
***Methodology -***
***Research results -***
***Keywords:***

## IMPORTANT NOTES:

**-** Articles written not in accordance with these Rules, with spelling and stylistic errors, are not accepted and it is non-refundable.

**-** Articles are checked in the **StrikePlagiarismcom** program, if the indicators do not match, they are not accepted.

**- For those who do not have an academic degree, it is important that reviews signed by the head** be added to their articles.

**-** All articles should be submitted in **the form of one review and an extract from** the discussion protocol (paper or electronic).

**-** When an article is **submitted to the editorial office, it is sent for external and local (to one person from the editorial staff)** review, with positive reviews, the editorial board considers the issue of publication.

**“ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR”**

**Elmi-praktik jurnal**

**№ 2 (22), 2024**

Nəşriyyatın direktoru: M.Şəfiyev
Texniki redaktor: S.Mamoyeva

“Müəllim” nəşriyyatında çap olunmuşdur.
E-mail: muallim.mmc@gmail.com

Yığılmağa verilib: 26.12.2024
Çapa imzalanıb: 23.01.2025
Kağız formatı: $60x84^{1/8.}$ 17,5 ç.v.